ƏYT
Ən yeni tərcümə

HERMANN HESSE

SİDDHARTHA

HİND POVESTİ



1946-CI İL NOBEL MÜKAFATI LAUREATI

Telegram: @cinciva

HERMAN HESSE

1877-1962

SİDDHARTHA

HİND POVESTİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Telegram: @cinciva

Həyat yoldaşım Ninona
həsr edirəm

Telegram: @cinciva

Herman Hesse - Nobel mükafatı laureatı, "Muncuq oyunu", "Yalquzaq" kimi məşhur romanların, "Nərgiz və Qoldmund", "Demian" və s. povestlərin müəllifidir.

Hind mövzusunda olan "Siddhartha" (1922) povesti Hessenin ilkin yaradıcılığının ümumiləşdiricisi rolunda çıxış edir. Əsərin güclü psixosimvolik mövzusu isə onu yazıçının sonrakı işlərilə doğmalaşdırır.

Povestin qəhrəmanı müqəddəs Hautama Buddanın adaşıdır.

Telegram: @cinciva

Az 2

HERMAN HESSE. SİDDHARTHA (hind povesti)

Bakı, Qanun Nəşriyyatı, 2011.

148 səhifə. 500 tiraj.

Tərcüməçi: Kifayət Haqverdiyeva

Q 0100020009
AB 022051

© Qanun Nəşriyyatı, 2011
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9.
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az

Telegram: @cinciva

BİRİNCİ HİSSƏ

Telegram: @cinciva

Telegram: @cinciva

BRAHMANIN OĞLU

Doğma evində, palmalığın, əncir ağacının kölgəsində, çayın günəşli sahilindəki qayıqların arasında brahman oğlu Qovinda ilə birgə daha bir brahman oğlu, cavan və gözəl, şahin Siddhartha böyüyürdü. Oğlan çayda çimərkən, dəstəmaz alarkən, qurban mərasimləri keçirərkən günəşin şüaları onun saf çiyinlərini oxşayırdı. Manqa ağaclarının alatoranısa uşaq oyunları, anasının laylası, atasının öyüd-nəsihətləri, müdrik brahmanların səbrli nitqi zamanı onun qara gözlərində əks olunurdu. Artıq xeyli vaxtdı ki, Siddhartha müdriklərin söhbətinə qatılır, dostu Qovinda ilə birgə düşüncənin incəliklərinə yiyələnir, fikir dəryasının gizli sularında üzməyi öyrənirdi. O, sözlərin şahı "Aum"u səssiz söyləməyi, hər nəfəsində içinə hopdurmağı və bayıra püskürməyi bacarır, bu mantranın gizli varlığında Atmanı, Məhvedilməzi duya bilirdi.

Bilikləri təbii bacarıqla özünə hopduran oğul atanın urəyini fərəhlə doldurur, yaxın gələcəkdə

Telegram: @cinciva

Siddharthanı möhtərəm brahmanlar sırasında görürdü.

Qamətli, güclü, gözəl Siddhartha hər duruşunda-oturuşunda anasının da ürəyini sevincdən döyündürürdü.

Brahmanların cavan qızları şəhərdə gəzən incə belli, aydın baxışlı Siuddharthanı görəndə sevgi burulğanında qərq olurdular.

Amma onu hamıdan çox dostu Qovunda sevirdi. O, Siddharthanın gözlərini, məftunedici səsini, yerişini, mükəmməl hərəkətlərini, bir sözlə, onun hər bir hərəkətini, ən çoxsa ağlını, odlu-alovlu fikirlərini, dəmir iradəsini, təbii istedadını sevirdi. Qovinda dostunun sıradan bir brahman, tənbəl kahin, tamahkar ovsun alverçisi, özündənrazı boş çərənçi, qəzəbli ruhani, ya da sürüdə mehriban və sadəlövh quzu olmadığını bilirdi. Yox! O özü, Qovinda həmçinin onsuz da sayı-hesabı olmayan brahman sürüsünün artımında iştirak etmək istəmirdi. O, sevimli Siddharthasını təkrarlamaq arzusundaydı. Və əgər günlərin bir günü Siddhartha allahlardan biri ola, Atman səviyyəsinə yüksələ bilərdisə, Qovinda sıradan bir silahdaşı kimi onu izləməyə hazır idi.

Siddharthanı hamı sevirdi. O, hər kəsə sevinc bəxş edirdi. Bircə özündən savayı. Əncir bağları-

Telegram: @cinciva

nın çəhrayı cığırında gəzərkən, düşüncə ormanının mavi kölgəsində oturarkən, hər gün dəstəmaz alarkən, manqa meşəsinin alatoranında qurban gətirərkən təbii gözəlliyi, dəqiq hərəkətlərilə ətrafı heyrətləndirən bu növcavan öz içini yeyirdi. Çayın şırıltısı, siyah göyün ənginliklərinə doğru uzanan parlaq ulduzların şəfəqi, günəşin insanın beynini dələn gözqamaşdırıcı şüaları onda sonsuz arzular oyadırdı. Kahinlərin tüstüsündən, Riqvedanın ətir saçan şeirlərindən, ahıl brahmanların təlimlərindən sovrulan arzular onun içini dağıdır, ruhuna rahatlıq vermirdi.

Siddhartha beynini dağıdan narazılığını günügündən yeni fikirlərlə yemləyirdi. O, ata-anasının, dostu Qovindanın məhəbbətinin heç də həmişə sevinc və güc mənbəyi olmayacağını, nə vaxtsa tükənəcəyini anlamağa başlayırdı. Siddhartha atasının və başqa möhtərəm müəllimlərinin malik olduqları ən qiymətli bilikləri artıq bölüşüb qurtardıqlarını və bu növcavanın gözlənti qabına yetərincə xörək tökdüklərini, amma o qabın dolmadığını, ağlının bu qədərilə razı qalmadığını, ruhunun sakitləşmədiyini, ürək döyüntülərinin azalmadığını hiss edirdi. Dəstəmaz xeyirli idi, amma su günahları yuyub aparmır, ağlın atəşini söndürmür, ürəyin qorxularını əridə bilmirdi. Qurbangətirmə mərasimləri və Al-

Telegram: @cinciva

laha itaət əlaydı. Amma məyər bu yetərliydimi? Məyər qurbanlar xoşbəxtlik açarıydımı? Bəs allahlar? Görəsən, Pradcapati hər şeyi yaradandımı? Bəlkə onlar da Siddhartha kimi zamana tabeydilər və sıradan biri kimi yaradılmışdılar? Onda onlara qurban gətirməyə nə lüzum? Buydumu ən ali əməl? Kimə qurban gətirməli, kimə ehtiram etməli? Və Atmanın özünü harada axtarmalı? O, harada yaşayır, ölməz ürəyi harada döyünür? Bəlkə hər kəsin özündə daşıdığı Mərhəm, Məhvedilməz Mənində? Amma bu Mən, Mərhəm, Sonsuz Son hardadır? Müdriklərə inansa, bu, nə bədən, nə də qandı, nə təfəkkür, nə də şüurdu. Bəs o hardaydı? Özünə, Məninə, Atmana çatmaq üçün başqa yol vardımı və bunu axtarmağa dəyərdimi? Vardısa da, atasının, ya da başqa müəllimlərinin, qurbanlıq nəğmələrinin bu yolun göstəricilərinin olmadığını dəqiq bilirdi! Brahmanlar, onların müqəddəs kitabları hər şeydən danışır və lazım olandan da çox şeyin qayğısına qalırdılar: dünyanın yaranışı, nitqin, qidanın, nəfsin təkamülü, hisslərin nizamlanması, allahların əməlləri, - onlar sonsuz sayda çox şey bilirdilər. Amma ən əsası əlçatmaz qalırdısa, bütün bunları bilməyinə dəyərdimi?

Sözsüz, müqəddəs kitabların bir çox şeiri və hər şeydən əvvəl Samaveda Upanişadları Mər-

Telegram: @cinciva

həm, Sonuncu haqda söhbət açırdı. "Dünya elə sənin ruhundur", - orda belə deyilirdi. Və o da deyilirdi ki, insan ən dərin yuxusunda özünün Mərhəm həddinə çatır və Atmana qarışır. Yox, nəsildən-nəslə ötürülən və qarış-qarış yığılan biliklərin üstündən qalın bir xətt çəkmək olmazdı. Amma ucu-bucağı görünməyən bu əngin biliyi özünün həqiqi malına çevirə bilən brahmanlar, ruhanilər, müdriklər və ya tövbə edənlər hardaydılar? Onlar bu biliyə həqiqətənmi vara bilmişdilər? Və bu həqiqəti yuxudan oyanışa, yoxdan vara, sözdən əmələ keçirə bilən vardımı? Siddhartha çoxlu sayda möhtərəm brahman tanıyırdı. Hamısından irəlidə isə atasıydı. Onun nitqi və hərəkətləri sakit və nəcib, həyatı təmiz idi, ətrafdakılardan təbii müdrikliyilə seçilirdi. Amma görəsən, o bu qədər çox bildiyi halda özündən məmnun idimi, rahatlıq tapmışdımı? Məyər o, yenidən və yenidən qurbanlara, kitablara, müqəddəs mənbələrə üz tutmurdumu? Niyə qüsursuz, ləkəsiz, təmizdən təmiz olan atası hər gün günahlarını yumalı və hər dəfə təmizliyinin qayğısına qalmalıydı? Məyər o, ilk əsas mənbəyi Atmanla deyildimi? Axı özünün Mənində bu ilk mənbəyi tapmalı və məhz ona çatmalıydı! Qalanlarısa yalnız dolanbac, vurnuxma, yanılmaydı.

Telegram: @cinciva

Siddharthanın içini dağıdan, canını acıdan fikirlər bunlardı. O, tez-tez Çxandoqya Upanişaddan bu kəlmələrí təkrar edərdi: "Brahmanın adı Satyamdır, bu həqiqəti dərk edən hər gün göylərə yüksəlir". Səmavi dünya ona tez-tez yaxın görünür, amma əlini nə qədər yüksəyə uzatsa da, ona çata, atəşinə su çiləyə bilmirdi. Və o, ətrafında bu səmavi dünyaya çata bilən, susuzluğunu yatırmağı bacaran birisini tanımırdı.

- Qovinda, - Siddhartha bir dəfə dostuna dedi. - Qovinda, əzizim, gəl, birlikdə banan ağacının kölgəsində meditasiya edək.

Onlar ağaca yaxınlaşıb yerə oturdular. Qovinda "Aum" deməyə macal tapmamış Siddhartha mızıldandı:

"Aum" yaydır, könülsə - ox,
Brahman könül oxunun nişangahıdır,
Onu hər vəchlə vurmaq lazımdır.

Qovinda meditasiyasını bitirdikdən sonra ayağa qalxdı. Axşam düşdü. Növbəti dəstəmazın vaxtı idi. O, Siddharthanı çağırdı, amma dostundan səs çıxmadı. Qımıldanmadan oturmuş Siddharthanın baxışları harasa uzaqlara dikilmişdi, azacıq çölə çıxmış dili belə tərpənmirdi. Sanki nəfəs də al-

Telegram: @cinciva

mırdı. Ətrafdan bütünlüklə qopmuş gənc brahman "Aum"un dərinliyinə vararaq, sanki ruhunun oxunu Brahmana tuşlamışdı.

Günlərin bir günü şəhərə üz-gözündən yorğunluq yağan, cizgilərindən yaşları bəlli olmayan, qanlı çiyinləri tozla örtülmüş, qızmar günəşin altında çılpaq dəriləri qaralmış, tənhalığı özünə yol yoldaşı seçmiş üç saman, gəzərgi zahid təşrif buyurdu.

Siddhartha axşamüstü birsaatlıq meditasiyadan sonra Qovindaya söylədi:

- Əziz dost, sabah sübh tezdən Siddhartha samanların sıralarına qatılacaq.

Bunu eşidən Qovindanın bənizi ağardı, dostunun donuq baxışlarından qərarında qəti olduğunu oxudu. Və anladı: Siddhartha tale yolunun başındadır, deməli, o özü də bu yolla getməlidir.

- Siddhartha! - Qovinda ucadan söylədi. - Məyər atan buna icazə verəcəkmi?

Siddhartha sanki indicə yuxudan ayılıbmış kimi baxışlarını Qovindaya dikdi və dostunun könlündəki təslimiyyət qarışıq qorxunu sezdi.

- Qovinda, - o, sakitcə dilləndi, - gəl boşuna danışmayaq. Sabah günəşin ilk şəfəqlərilə saman həyat tərzinə başlayacam. Artıq sözə lüzum yoxdur.

Siddhartha səssizcə otağa daxil olub, həsir üst-

Telegram: @cinciva

də oturmuş atasının arxasında dayandı. Bir azdan ata oğlunun baxışlarını hiss etdi.

- Siddhartha, bu sənsən? Nəsə bir sözün var?

- Ata, izninlə deməliyəm ki, sübh tezdən evini tərk edib tərki-dünya zahidlərin yanına yollanacam. Onlardan biri olmaq istəyirəm. Arzuma xilaf çıxma.

Brahman xeyli susdu. Ta o vaxtadək ki, səma ulduz yağışına büründü. Oğul əlləri qoynunda sakitcə ayaq üstə gözləyir, ata yerindəcə daş kimi oturmaqda, ulduzlarsa axmağındaydı. Nəhayət, ata ortalığa çökmüş sükutu pozdu:

- Qəzəb hissi brahmana layiq deyil. Lakin hiddət könlümü ağuşuna alıb. Səndən bu haqda bir kəlmə belə eşitmək istəmirəm.

Brahman asta-asta qalxdı; Siddhartha isə əlləri qoynunda dayanmışdı.

- Nə gözləyirsən? - atası soruşdu.

- Özün bilirsən, - Siddhartha cavab verdi.

Qəzəblənmiş ata otaqdan çıxıb yatağına uzandı.

Brahman bir saat yuxuya getməyə çalışdıqdan sonra ayağa qalxdı və otaq boyu var-gəl edib evdən çıxdı. O, kiçicik pəncərədən Siddharthanı qoyub gəldiyi vəziyyətdə - əlləri qoynunda otağın ortasında dayanmış halda gördü. Narahat ata yatağına qayıtdı.

Telegram: @cinciva

Brahman daha bir saatdan sonra qalxıb var-gəl elədi və bayıra çıxıb gözlərini aya zillədi. Sonra pəncərədən içəri baxıb oğlunu əvvəlki duruşunda gördü. Narahat ata yatağına qayıtdı.

Beləcə, gecə boyu hər saatdan bir ayağa qalxaraq pəncərədən içəri boylanıb oğlunu eyni vəziyyətdə görən atanın hirsli, narahat, həyəcanlı ürəyi qübarlandı. O, dan yeri sökülməzdən bir saat əvvəl yenidən qalxıb otağa gəldi, indi ona yaşlı və özgə görünən növcavana baxdı.

- Siddhartha, - atası dilləndi, - nə gözləyirsən?

- Nə gözlədiyimi bilirsən.

- Sən gecə-gündüz burda dayanıb gözləyəcəksən?

- Hə.

- Siddhartha, yorulacaqsan.

- Bəli.

- Siddhartha, yuxulayacaqsan.

- Xeyr.

- Siddhartha, öləcəksən.

- Bəli.

- Və sən ölməyinə rəğmən atanın sözündən çıxmağa razısan?

- Siddhartha həmişə atasının sözünə baxıb.

- Deməli, niyyətindən əl çəkirsən?

- Siddhartha atasının dediyi kimi edəcək.

Telegram: @cinciva

Otağa günəşin ilk şəfəqləri düşdü. Brahman oğlunun dizlərinin azacıq əsdiyini sezsə də, baxışlarında yorğunluqdan əsər-əlamət belə yox idi, gənc brahmanın nəzərləri harasa uzaqlara dikilmişdi. Sonunda ata oğlunun artıq onun yanında olmadığını anladı.

O, əlini Siddharthanın çiyinlərinə qoydu:

- Meşəyə gedib saman olacaqsan. Əgər xoşbəxtliyini orda tapsan, gəlib mənə də öyrədərsən. Yox, əgər peşman olsan, yenə də qayıt, birlikdə allâhlara qurban verməyə davam edək. Get, anani öp və hara gedəcəyini ona da de. Mənsə dəstəmaz almaq üçün çaya düşürəm.

Brahman əllərini oğlunun çiynindən çəkib qapıya tərəf yönəldi. Siddhartha addım atmaq istəyərkən yerində ləngər vurdu, ayaqlarındakı ağrıya üstün gələn oğlan anasının yanına getdi.

Siddhartha yorğunluqdan sözünə baxmayan ayaqlarını aramla tərpədərək şəhəri tərk edərkən sonuncu komadan bir kölgə ayrılıb ona qoşuldu.

- Sən gəldin, - Siddhartha gülümsündü.

- Mən gəldim, - Qovinda söylədi.

Telegram: @cinciva

ASKETLƏRİN ARASINDA

Dostlar axşama yaxın samanlara çatıb, sıralarına qatılmaq istədiklərini söylədilər və onlara itaət edəcəklərinə söz verdilər. Samanlar cavanların xahişini qəbul etdilər.

Siddhartha əyin-başını yolda qarşısına çıxan ilk diləncı brahmana bağışladı. İndi onun geyimi yalnız yan sarğısından və torpaq rəngli kobud çiyinlikdən ibarət idi. Bişmiş qidadan tamamilə imtina edən gənc saman gündə bir dəfə yeməklə kifayətlənirdi. On beş günlük orucdan sonra isə əməlli arıqlamışdı. Həqiqətə dorğu millənmiş baxışlarında sanki alov şölələnirdi, arıqlamış barmaqlarının dırnaqları uzanmış, üzünü saqqal basmışdı. Təsadüfən qadınla rastlaşan baxışları buz bağlamışdı; yolu şəhərdən düşərkən rastlaşdığı dəbdəbəli geyinmiş insanları görəndə ağzını büzürdü. Tacirlərin mal, fahişələrin bədən alveri, xanların ov əyləncələri, mərhum yiyələrinin göz yaşları, həkimlərin xəstə qayğıları, kahinlərin ayinləri, sevgililərin ah-ufları

42-263049

M.F. ... adına
Azərbaycan Milli
Kitabxanası

Telegram: @cinciva

onun baxışlarına layiq deyildi. Hamısı pis qoxuyurdu, bunlar gözəllik, xoşbəxtlik adı altında ölümdən və fanilikdən savayı bir şey deyildi. Bu dünyanın dadı acıydı. Həyat işgəncəydi.

Siddharthanın qarşısında yeganə məqsəd dururdu: heç olmaq, arzu və istəklərini, sevinc və ağrısını boğmaq. Özü üçün ölmək, Məninə son demək, boşalmış ürəyinin hüzuruna tapınmaq, fədakar düşüncələrində möcüzə ilə rastlaşmaq - buydu Siddharthanın məqsədi. Öhdəsindən gəldiyi Məni öləndə, ürəyindəki son damla ehtiras quruyanda, bax onda əsasların əsası, ilahi sirr, Mərhəmin qapıları onun üzünə açılacaq.

Dərisini saatlarla qızmar günəşin şüaları altında yandıran, ciyərini susuzluğa məruz qoyan Siddhartha bəzən ağrı belə hiss etmirdi. İstiyə-yağışa varmadan elə hey dayanırdı. Təpəsindən axan su üşüyən ombasından, baldırından süzülür, o isə soyuğa hissiyyatını itirənəcən daş heykəltək dayanırdı. Kolluqların arasında çömələn, tikan batmış dərisindən irinqarışıq qan axan Siddhartha hərəkətsizlikdən keyləşsə də oturmaqda davam edir, bir sürə sonra artıq nə batan tikanları, nə də bundan doğan ağrını hiss edirdi.

Bir müddət sonra Siddhartha artıq qamətini pozmadan oturmağı, nəfəsini uzun müddət saxlamağı, havadan minimum istifadə etməyi, ürəyinin

Telegram: @cinciva

döyüntülərini tamamilə azaltmağı bacarırdı.

Samanlardan ən qocasının nəzarəti altında olan Siddhartha yeni üsullarla özünü dərketmə təliminə yiyələnirdi. Bambuk ağaclarının budaqları üzərindən vağ uçurdusa, Siddhartha dönüb bu quşa çevrilir, havada süzür, balıq yeyir, vağın aclığını öz üzərində hiss edir, onun dilində danışır, onun ölümünü yaşayırdı. Qumsalda çaqqal gəbərirdisə, Siddharthanın ruhu ölümün pərdəsinə bürünüb heyvan cəsədinə çevrilir, şişir, qoxulanaraq çürüyür, goreşənlərə, leşyeyənlərə nəsib olur, yerdə qalan sümükləri yanaraq külə dönüb rüzgara sovrulurd. Lakin dövranın qəmli şövqünü, faniliyini dadan Siddharthanın ruhu yenidən qayıdır və hər dəfə könlünü əbədiyyətə apara biləcək yeni məqamı ovçu şikarını pusan kimi gözləyirdi. O, hisslərini öldürür, Mənindən qaçaraq minlərlə özgə obraza girir, gah heyvan, gah daş, gah da ağac olur, amma yenə də geri qayıdır və hər yeni susuzluğunu yatırtmaqla dövrə vururdu.

Samanlardan çox şeyə yiyələnən Siddhartha Mənindən uzaqlaşmaq üçün müxtəlif yollara əl atır, fədakarlığı ona ağrı, özünə əzab vermə və bundan qurtulma, aclıq, susuzluq, yorğunluq hesabına başa gəlirdi. Ancaq Siddhartha Mənindən qaçdıqca sonuncusu ondan bərk yapışır və gənc samanı başladığı nöqtəyə qaytarırdı. Mənindən min dəfələrcə qaç-

Telegram: @cinciva

maq cəhdinin, yəni heçliyə dalmanın, heyvan, daş cildinə girmənin sonu hər dəfə ağır dəqiqələrlə müşayiət olunan qayıdışla sonuclanırdı. İstər ay batsın, istər günəş çıxsın, istərsə də dünya yenidən zülmətə qərq olsun, sonunda gənc saman yenidən özünə qayıdır və mənfur dövranın acısını yaşayırdı.

Dostunun kölgəsinə çevrilən sadiq Qovinda özünü eyni sınaqlara çəkir və eyni məqsədə qulluq edirdi. Onlar öhdəliklərdən və təmrinlərdən kənar mövzu haqda, demək olar ki, danışmırdılar. Dostlar vaxtaşırı birgə kəndə gedir və özlərilə müəllimlərinin qarnını doyurmaq üçün dilənirdilər.

- Qovinda, - Siddhartha kənddə növbəti dəfə dilənərkən dilə gəldi, - səncə, biz məqsədimizə çata bilmişik?

Qovinda cavab verdi:

- Çox şey öyrənmişik və hələ də öyrənməkdə davam edirik. Siddhartha, sən dahi saman olacaqsan. İstənilən təmrinin öhdəsindən asanlıqla gəlirsən, qoca samanlar sənin qabiliyyətinə məəttəl qalıblar. Siddhartha, adın nə vaxtsa müqəddəslər sırasına yazılacaq.

Siddhartha dilləndi:

- Dostum, səninlə razı deyiləm. Samanlardan öyrəndiklərim mənə heç nə verməyib. Bütün bunlara pivəxanada, fahişələrin arasında, qumar oynayarkən belə çata bilərdim.

Telegram: @cinciva

Qovinda təəccüblə dedi:

- Siddhartha məni ələ salır? Sən o bədbəxtlərin arasında necə daxilinə vara bilər, nəfəsini saxlamağı bacarar, aclığın və ağrının öhdəsindən belə rahat gələ bilərdin?

Siddhartha sanki özü ilə danışırmış kimi söylədi:

- Nədir daxiləvarma? Özünü bədənindən kənarda hiss etmək nədir? Ya oruc, ya nəfəsi saxlama? Bunların hamısı Mənin qarşısında qorxudan başqa bir şey deyil. Ondan qaçmaq üçün bircə dəqiqəlik yalançı azadlığın təqibi, həyatın mənasızlığını azacıq müddətə unutmaqdan savayı heç nə. Vəssalam! Bu cür azadlığa çarvadarlar karvansarada bir fincan düyü arağı içməklə də çatırlar. Bircə fincan bəs edir ki, hansısa müddətə bütün ağrı-acılardan qurtulsunlar. Və bu zaman Mənindən uzaqlaşan sərxoş çarvadar Siddhartha və Qovindanın axtardığını tapır. Dostum, bu, acı həqiqətdir.

Qovinda israrla dilləndi:

- Sən saman Siddharthanın sərxoş çarvadar olmadığını unudursan. Ola bilsin, sonuncusu sərxoş olanda özündən uzaqlaşıb dincələ bilir, amma ayılan kimi həyat adlanan burulğanda heç nəyin dəyişmədiyini, dənizin o tayında durduğunu və müdrikliyə doğru zərrə qədər də addım atmadığını başa düşür.

Telegram: @cinciva

Siddhartha gülümsündü:

- Bu haqda heç nə deyə bilmərəm, çünki sərxoş olmamışam. Amma mən, Siddhartha öz təmrin və təlqinlərimlə yalnız qısamüddətli səadətə çatdığımı və müdrikliklə nicatdan anamın bətnindəkitək uzaq olduğumu desəm, yanılmaram. Qovinda, bunu dəqiq bilirəm.

Dostlar növbəti dəfə kəndə dilənməyə gedəndə Siddhartha köhnə söhbətə qayıtdı:

- Qovinda, biz düz yoldayıqmı? Həqiqətə nə dərəcədə yaxınıq? Nicat tezmi baş verəcək? Bəlkə cəhdlərimiz yerimizdə dövrə vurmaqdan başqa bir şey deyil. Nə gülünc. Dövrandan qurtulmaq istəyənlər dövrə vururlar!

Dostu ilə razılaşmayan Qovinda dedi:

- Siddhartha, çox şey öyrənmişik, hələ çox şey də öyrənəcəyik. Xeyr, biz dövrə vurmuruq, pillə-pillə yüksəlirik. Çünki dövrəmiz spiralşəkillidir, arxada qoyduğumuz pillələrin sayı günü-gündən çoxalır.

Siddharha davam etdi:

- Necə fikirləşirsən, möhtərəm müəllimimiz, samanlardan ən qocasının neçə yaşı var?

Qovinda cavab verdi:

- Məncə, altmışdan az olmaz.

Siddhartha gülümsündü:

- Altmış il ömür sürmüş bu qoca nirvanaya çatmayıb. O, yetmişi də, səksəni də haqlayacaq, amma

Telegram: @cinciva

elə yerində sayacaq, həmçinin bizim bu həyatda bacardığımız orucdan və meditasiyadan o yana keçməyəcək. Lakin nə o, nə də biz nirvanaya çatmayacağıq. Qovinda, məncə, müasirlərimizdən heç birinə nirvanaya çatmaq səadəti nəsib olmayacaq. Bəli, biz təsəlli tapırıq, qısa müddət kəsiyində fikirlərimizə hökmranlıq edə bilirik və eyni ustalıqla özümüz-özümüzü aldadırıq. Amma yolun ən əsasının sərhədinə belə yaxınlaşınırıq.

Qovinda qəzəblə çığırdı:

- Siddhartha, belə deməyə dilin necə çönür?! Bu qədər ali brahmanın, möhtərəm samanların, bu qədər axtarışda olanların sırasından yolun sonuna yetə bilən biri olmadımı?

Siddhartha kədər, rişxənd, hüznqarışıq səslə söylədi:

- Qovinda, tezliklə dostun uzun müddət birgə addımladığımız bu yoldan sarpacaq. Samanların yanan könlümün atəşini söndürə bilməyəcəyini anladım. Həmişə öyrənməyə can atmışam, saysız-hesabsız suallara cavab axtarmışam. İllər boyu brahmanlardan, müqəddəs Vedalardan soruşmuşam. Qovinda, bəlkə suallarımı şimpanzeyə və ya kərgədana yönəltsəydim, eyni cavabı alardım. İndi gəldiyim və alışan ruhuma bir az da od səpən nəticəyə çatmaq üçün mənə uzun illər lazım olub. Qovinda, sən demə, heç nəyi öyrənmək mümkün deyil! Sən demə,

Telegram: @cinciva

nəzəriyyə deyilən bir şey yoxmuş. Yalnız bircə bilik, daha doğrusu, bircə həqiqət var, o da hər birimizin içində yaşayan Atmandır. Və bircə şeyi bilirəm: bu həqiqətin yeganə qəddar düşməni nəzəriyyədir.

Yalvarış dolu baxışlarla əllərini göyə qaldıran Qovinda dedi:

- Siddhartha, məni qorxutma! Sən nə dediyinin fərqindəmisən?! Bəs brahmanların dilində əzbər olan duaların müqəddəsliyi, bəs samanların nəsilləri əvəzləyən bilgiləri hardandır?! Bəs yer üzündə müqəddəs sayılan və ehtiramla xatırlanan şeylər necə olsun?!

Siddhartha dostuna susmaqla cavab verdi. O, Qovindanın dedikləri üzərində uzun müddət fikirləşdi və bu nəticəyə gəldi:

"Bəli, indiyədək müqəddəs saydığımın hansı biri əbədi həqiqətdir? Nəyə inanım?" Və başını bulladı.

Günlərin bir günü - dostlar artıq üç il idi ki, saman həyatı yaşayırdılar, - çoxsaylı yolayrıcı və çığırlardan birində gənc samanların qulaqlarına Hautama Budda adlı bir müqəddəsin peyda olması haqda xəbər çatdı. Guya bu mükəmməl insan bütün iztirabların öhdəsindən gələrək çevrilmə təkərini saxlaya bilmişdi. Sarı geyimli, aydın baxışlı, ləmək an, mülksüz, qadınsız Budda ardıcıllarının əhatəsində ölkəni qarış-qarış gəzərək baxışlarını yayırmış. Brahmanların və şahların özü onun qarşısında baş əyirmiş.

Telegram: @cinciva

Qulaqları cingildədən bu əfsanə meşəyə də gəlib çatmışdı. Cavan samanlar Hautamanın adı çəkilən istənilən yerdə gah söyüş, gah da tərif eşidirdilər. Bircə şey gün kimi aydın idi: heç kəs bu adı etinasız qarşılamırdı.

Taundan əziyyət çəkən ölkədə guya bir barmağının toxunuşu ilə xəstəyə şəfa verən müqəddəs təbib haqda yayılan şayiələrin cavab reaksiyası necə olardısa, - sözsüz, buna kimlərsə ağız büzər, kimlərsə heyran qalar, bir çoxlarısa şəfa arzusu ilə yola düşərdilər, - şakya qəbiləsindən olan müdrik Budda haqda olan söhbətlər də eyni qaydada gedirdi. Deyilənlərə görə, ona ali həqiqət açılmış, ötən həyatlarını xatırlayan müqəddəs Budda nirvanaya çataraq dövrandan çıxmış və bir daha çevrilmənin bulanıq burulğanına qayıtmamışdı. Haqqında əfsanələr gəzən bu şəxsiyyət guya şeytana qalib gəlmiş və allahlarla söhbətə girmiş, xarüqələr yaratmışdı. Düşmənlərisə Hautamanı adidən adi şöhrətpərəst adlandırır və əslində bu fırıldaqçının biliyə, qurbanlara və özünə işgəncəyə nifrət edərək günlərini eyş-işrətdə keçirdiyini söyləyirdilər.

Budda haqda əfsanələr şirin olduğu qədər cəlbediciydi. Həsrət atəşilə yanan könüllərinə su çiləmək arzusu ilə Buddaya tapınan hər kəs istənilən şəhər və kənddə brahman oğullarının arzuolunan qonağıydı.

Telegram: @cinciva

Ölkəni ağuşuna almış söz-söhbət meşə sakinlərindən də yan keçmədi. Siddhartha ilə Qovindanın qulaqlarına dolan bu şayiələrin hər damcısı özündə şübhəqarışıq bir ümid daşıyırdı. Qoca saman Buddanın heyranları sırasında olmadığından cavanlar bu haqda az danışırdılar. O, uydurma Buddanın guya nə vaxtsa meşədə zahid həyat tərzi keçirdiyini, amma sonralar yer ləzzətinin dadını çıxarmağa üstünlük verdiyini eşitdiyindən Hautamanın adı qocada nifrətdən savayı heç nə oyatmırdı.

- Siddhartha, - günlərin bir günü Qovinda dilləndi, - bu gün şəhərdə olarkən bir brahman məni Buddanı öz gözlərilə görən, onun söylədiklərini qulaqları ilə eşidən maqadhalı qonağını dinləməyə dəvət etdi. Bu, inanılmaz və möhtəşəm idi. Dostum, hər ikimizin həmin baxışları Hautamanın öz dilindən eşidəcəyimiz günü səbirsizliklə gözləyirəm! Gəl, minlərlə başqaları kimi biz də onun hüzuruna gedək.

Siddhartha cavab verdi:

- Qovinda, sənin həyatın boyu samanların yanında qalacağını düşünürdüm. Fikirləşirdim, yaşa dolduqca samanların yaşam tərzinin, düşüncələrinin dərinliyinə varmaq yeganə məqsədindir. Sən demə, zənnimdə yanılmışam. Beləcə, əziz dost, Buddanın yanına gedib onu dinləmək istəyirsən?

Qovinda azacıq incik səslə söylədi:

Telegram: @cinciva

- Siddhartha, istədiyin qədər məni ələ sala bilərsən! Ancaq ürəyinin səsi səni də ora çağırmırmı? Artıq samanların cığırından çıxmağın vaxtının gəldiyini deyən sən deyildinmi?

Siddhartha özünün qeyri-adi gülüşü ilə qəhqəhə çəkdi. Bu gülüşdə kədər və istehza can-birdi.

- Qovinda, dediklərimi mənə xatırlatmaqda tam haqlısan. Amma sözlərimin arxasını da yadına sal: mən baxışlardan bezmişəm və əsil müəllimə inancım olduqca azdır. Amma, əzizim, qoy sən deyən olsun. Hautamanı dinləməyə hazıram, halbuki, zənnimcə, onun ən yaxşı məhsulunun dadına artıq baxmışıq.

Qovinda sevincqarışıq təəccüblə dilləndi:

- Sənin əminliyin mənə güc verir. Amma bir şeyi anlamadım: Hautamanın baxışlarını, nəzəriyyəsini eşitməmiş o necə bizə məhsulunun ən yaxşısını dadızdıra bilər?

Siddhartha cavab verdi:

- Qovinda, hələlik bu qədərilə kifayətlənək və arxasını gözləyək. Hautamayasa bizi samanlardan ayırdığı üçün borclu olmalıyıq. Bizə daha nəsə verə biləcəyi üzərində gəl əvvəlcədən baş sındırmayaq. Hər şeyi zamanın axarına buraxaq.

Siddhartha həmin gün samanlara onları tərk edəcəyini söylədi. O, bir şagird kimi müəlliminə son dərəcə ehtiram və hörmətlə müraciət etdi. Əvəzində

Telegram: @cinciva

samanı od götürdü. Qoca cavana ağzından çıxanı söylədi. Təhqirlərdən pərt olan Qovinda dəhşətə gəldi. Sakit təbirini itirməyən Siddharthasa əyilib dostunun qulağına pıçıldadı: "İndi ondan nəsə öyrənə bildiyimi göstərəcəm".

Beləcə, oğlan samanın düz qarşısında dayanıb nəzərlərini qocanın gözlərinə dikməklə bayaqdan əl-qol atan müəllimi heykəl kimi donmağa məcbur etdi. Saman susdu, baxışları dondu, sanki iflic oldu, Siddharthanın iradəsinə boyun əymək zorunda qaldı. Və qoca ehtiramla təzim edib şagirdlərinə yaxşı yol arzuladı. Cavanlar öz növbəsində müəllimlərinə təşəkkür edib yola düşdülər.

Qovinda yolda dostuna:

- Siddhartha, sən samanlardan fikirləşdiyimdən də çox şey öyrənmisən. Qoca samanı tabe etmək olduqca çətindir. Əgər meşədə bir az da qalsaydın, suyun üzərində gəzməyi bacaracaqdın,- dedi.

- Bu, mənə heç lazım da deyil, - Siddhartha cavab verdi. - Qoy belə möcüzələri qoca samanlar öyrənsinlər.

Telegram: @cinciva

HAUTAMA

Savathi şəhərində böyükdən kiçiyə hamı dahi Buddanın adını eşitmişdi və hər bir evdə Hautamanın şagirdlərinin səssizcə irəli uzanmış kasalarını məmnuniyyətlə doldururdular. Hautamanın sevimli yeri sadiq pərəstişkarı, varlı tacir Anatxapindikanın ona bağışladığı Cetavana bağı idi.

Siddhartha ilə Qovinda da Buddanın yerilə bağlı sorğularının cavabında, adətən, bu bağın adını eşidirdilər. Beləcə, uzun sürən axtarışlardan sonra dostlar Savathi şəhərinə çatdılar və dilənmək üçün yaxınlaşdıqları ilk qapıdaca qarınlarını doyurandan sonra Siddhartha qadından soruşdu:

- Xeyirxah bəndə, deyə bilməzsiniz, Buddanı hardan tapa bilərik. Biz meşə zahidləri bu mükəmməl insanı görüb, söylədiklərinə qulaq asmaq istəyirik.

Qadın cavab verdi:

- Samanlar, düz yoldasınız. Bu müqəddəs insanısa Anatxapindikanın Cetavana bağında tapa bi-

Telegram: @cinciva

lərsiniz. Elə oradaca gecələmək imkanınınız olacaq, bağda Hautamaya qulaq asmaq üçün gələn hər kəsə yer tapılır.

Qovinda sevincək çığırdı:

- Şükürlər olsun! Məqsədimizə çatdıq, nəhayət, yolumuz bitdi! Bütün sərgərdanların anası, Buddanı öz gözlərinlə görmüsənmi?

Qadın cavab verdi:

- O müqəddəs insanın əynində sarı libas, əlində kasa evlərin qarşısında sakitcə dayanaraq payını gözlədiyinin və heç vaxt da əliboş qayıtmadığının dəfələrcə şahidi olmuşam.

Qovinda ağzını geniş açaraq, heyrətlə qadına qulaq asırdı və Siddhartha onu tələsdirməsəydi, hələ uzun-uzadı yerinə mıxlanıb qalacaqdı. Onlar qadına təşəkkür edib, Hautamanın ardıcıllarının sırasına qoşularaq Cetavana bağına tərəf yönəldilər.

Gec də olsa, bağda yetərincə səs-küy vardı. Gələnlərin ardı-arası kəsilmir, yerlərini sahmanlayan yolçuların səsləri bir-birinə qarışırdı. Meşə həyatına öyrəncəli iki dost sakitcə bir küncə çəkilib yuxuya getdilər.

Sübh tezdən oyanan gənclər bağda sığınacaq tapmış inanclı və maraqlıların çoxluğuna təəccübləndilər. Sarı geyimli rahiblərdən bəzisi gəzişir, bəzisi düşüncələrə dalır, kimi də dini mövzuda söhbət

Telegram: @cinciva

edirdilər. Adamlarla qaynayan bağ iri arı pətəyinə bənzəyirdi. Rahiblərdən çoxu gün ərzində yeganə qida saatı olan nahara yeyəcək tapmaq üçün şəhərə üz tuturdu. Budda özü də hər gün eyni işlə məşğul olurdu.

Siddhartha əlində kasa cığırla sakitcə addımlayan sarı geyimli rahibin Budda olduğunu anladı.

- Ora bax! - Siddhartha Qovindanın qulağına pıçıldadı. - O, Buddadır.

Qovinda ilk baxışda ətrafdakılardan fərqlənməyən sarı geyimli rahibi diqqətlə süzdü. Və özözünə təkrarladı: "Odur!" Dostlar Hautamanı izlədilər.

Düşüncələrə dalan Budda öz yolu ilə gedirdi, onun sakitlik yağan çöhrəsində nə kədər, nə də şadyanalıqdan əsər-əlamət vardı. Tərtəmiz sağlam uşaq təsiri bağışlayan Hautama ilk baxışda yörədəki rahiblərdən heç nə ilə seçilmirdi. Amma onun üzü və yerişi, itaətlə yerə dikilmiş baxışları, iradəsiz sallanan qolları və heysiz əllərinin hər barmağı artıq axtarışa ehtiyacı olmayan mükəmməllikdən, hüzurdan xəbər verirdi.

Hautama şəhərə dilənməyə beləcə gedirdi və dostlar onu yalnız arzu, axtarış, təqlid və səydən uzaq çöhrəsindən tanıya bilərdilər.

- Bu gün onun öyrətdiklirini öz ağzından eşidəcəyik, - Qovunda səsləndi.

Telegram: @cinciva

Siddhartha cavab vermədi. Onu ağızlardan eşitdiyi nəzəriyyə az maraqlandırırdı və yeni nəsə öyrənəcəyinə şübhə ilə yanaşırdı. Amma gənc saman diqqətlə Buddanın çiyinlərinə, ayaqlarına, iradəsiz sallanan qollarına baxaraq, onun hər barmağındakı oynaqdan həqiqət yağdığını düşündü. Bu insan təpədən dırnağadək müqəddəs idi. Siddhartha hələ heç kəsə bu cür hörmətlə yanaşmamış və hələ heç kəsi bu cür sevməmişdi.

Cavanlar Buddanı şəhərəcən izləyib sakitcə geri döndülər. Onlar həmin gün ac qalmaq fikrindəydilər. Dostlar bir azdan Hautamanın qayıtdığını, şagirdlərinin əhatəsində kiçicik bir quşu belə doyuzdurmayacaq qədər yediyini və ehmalca manqa ağaclarının kölgəliyinə çəkildiyini gördülər.

Axşam sərini düşəndə Cetavana canlandı və Budda danışmağa başladı, onun səsi də özü kimi bitkin və mütləq sakit idi. Hautama iztirabdan, onun yaranma səbəbindən və aradan qaldırılma yollarından danışırdı. Onun nitqi aydın və sakit çay tək axıcıydı. Cahan təpədən-dırnağa məşəqqətlərlə doludur, həyatın özü elə iztirabdır, amma qurtuluş mövcuddur: Buddanın yolunu təkrarlayanı azadlıq gözləyir.

Hautama yumşaq olduğu qədər güclü səsilə şagirdlərinə dörd həqiqəti açıqlayır, onun səkkiz yolunu öyrədir və eyni zamanda olduqca sadə nümunələr gətirirdi.

Telegram: @cinciva

Budda nitqinə gecə yarıdan keçəndə son qoydu və zəvvarlardan bir neçəsi irəli çıxaraq onların da icmaya qəbul edilməsini xahiş etdi.

Hautama yeni ardıcıllarını aşağıdakı sözlərlə qəbul etdi: "Siz dediklərimi eşitdiniz və həqiqətin astanasına gəlib çıxdınız. Gəlin və iztirablara son qoymaq üçün müqəddəsliyə qatılın".

Birdən Qovinda qərarsız şəkildə irəli addımlayaraq söylədi: "Mən də müqəddəs Buddanın şagirdi olmaq istəyirəm".

Hautama oranı tərk etdikdən sonra Qovinda Siddharthaya tərəf çevrilib həyəcanla danışmağa başladı:

- Siddhartha, səni tənqid etmək fikrindən uzağam, amma ikimiz də müqəddəs Buddanın söylədiklərinə qulaq asdıq və qəbul etdik. Şəxsən mən bu sözlərdə daldalanacaq yer tapdım, bəs sən? Məyər sən bu cığırla getmək istəmirsən, əziz dost? Niyə gözləyirsən, nəyi gözləyirsən?

Qovindanın sözlərini eşidən Siddhartha sanki yuxudan ayıldı. O, uzun müddət dostuna baxdı. Sonra kədərli, sakit səslə dilləndi:

- Qovinda, nəhayət ki, öz addımını atdın və öz yolunu seçdin. Həmişə mənim dostum olmusan və hər zaman ardımca gəlmisən. Tez-tez fikirləşmişəm: görəsən, Qovinda nə vaxtsa mənsiz, müstəqil olaraq, öz ürəyinin səsilə hərəkət edəcəkmi? Nəhayət,

Telegram: @cinciva

kişi kimi öz yolunu seçdin. Əziz dost, onu sonuna qədər getməni arzulayıram! Azad olmanı diləyirəm!

Nə baş verdiyini sonadək anlamayan Qovinda yenidən həyəcanla öz həqiqətini təlqin etməyə çalışdı:

- Əzizim, de, de ki, - başqa cür ola da bilməz! - sən də müqəddəs Buddanın ardıcılı olmaq istəyirsən!

Siddhartha əlini dostunun çiyninə qoydu:

- Qovinda, sən mənin xeyir-duamı eşitmədin. Təkrar edirəm: yolun sonuna çatasan! Azad olasan!

Həmin an dostunu itirdiyini anlayan Qovinda göz yaşlarına qərq oldu.

- Siddhartha! - o, yalvarış dolu nəzərlərini dostuna dikdi.

- Qovinda, unutma, - Siddhartha mehribancasına cavab verdi, - artıq Hautamanın samanları cərgəsindəsən. Sən vətənindən və valideynlərindən, əsil-nəsəbindən və var-dövlətindən, öz iradəndən və dostluqdan imtina etdin. Bunu Budda və onun baxışları tələb edir. Qovinda, sabah səni tərk edəcəm.

Dostlar uzun müddət meşəni dolaşdıqdan sonra yatmağa çalışdılar. Qovinda Siddharthadan əl çəkməyərək, onun Buddanın baxışlarında hansı yalnışı tapdığını və nə üçün müqəddəs Hautamanın ardıcılı olmaq istəmədiyini soruşurdu. Gənc samansa öz

Telegram: @cinciva

növbəsində doğru cavabdan qaçaraq, dostunu sakitləşdirməyə çalışırdı.

- Qovinda, həyəcanlanma! Bu müdriklikdə səhv tapmaq yekəbaşlıq olardı!

Sübh tezdən yaşlı rahiblərdən biri yeni ardıcılları səsləyərək, onlara sarı libaslar təqdim edib öhdəliklərini başa saldı.

Siddharthasa dərin düşüncələr içərisində meşəni tərk etdi.

O, cığırlardan birində gözlənilmədən Hautama ilə rastlaşdı. Buddanın nəzərlərində o qədər hüzn vardı ki, gənc saman cürətlənib qarşısındakının ona qulaq asmasını xahiş etdi. Hautama razılıq əlaməti olaraq səssizcə başını tərpətdi.

- Dünən nəzərriyyənizi dinləmək mənə də nəsib oldu. Bura gəlmək üçün dostumla uzun yol qət etmişdik. Və dostum sizdə özünə arxalanacaq yer tapdı. Mənsə yoluma davam edirəm.

- Ürəyinin səsinə qulaq as, - Budda nəzakətlə cavab verdi.

- Bəlkə də yekəbaşlıq edirəm, - Siddhartha davam etdi, - amma müqəddəs Budda ilə vidalaşmazdan öncə onunla bölüşmək istərdim. Qiymətli vaxtınızdan mənə daha bir neçə dəqiqə ayırmazdınız?

Hautama yenə də razılıq əlaməti olaraq başını tərpətdi.

Telegram: @cinciva

- Hörmətəlayiq insan, nəzəriyyəndə bir şey məni daha çox heyran etdi. Olduqca aydındır və heç bir sübüta ehtiyacı yoxdur; dediklərində hər şey o qədər zəncirvaridir ki! Daimi səbəb və nəticə zənciri. Ömrümdə bu cür aydın nəzəriyyə ilə rastlaşmamışam. Hər bir brahman öyrətdiklərində qüsursuz, mükəmməl daxili əlaqələrdən ibarət, allahlardan və təsadüflərdən asılı olmayan büllur kimi şəffaf dünyanı görə bilər. Bu pisdir, ya yaxşıdır, həyat həmin nəzəriyyədə iztirabdır, ya sevincdir, qoy bu sual açıq qalsın, əvəzində dünyanın vəhdəti, olanlar arasında əlaqə, irili-xırdalı hər şeyin eyni axına, eyni səbəb, yaranış və ölüm qanununa tabe olması o qədər aydın izah olunub ki! Bununla belə, nəzəriyyəndə bir məqamda əlaqə, ardıcıllıq qırılmış olur. Xırda bir dəlikdən vahid dünyana özgə, sübuta ehtiyacı olan yeni bir şey daxil olur. Bu, sənin qurtuluş haqqında dediklərindir. Həmin kiçik yarıq əbədi və vahid yaranış qanuınunun üstündən qalın xətt çəkir. Cürətimə görə üzr istəyirəm.

Siddharthanı sakitcə dinləyən Hautama özünəxas nəzakətlə dilləndi:

- Brahman oğlu, nəzəriyyəm üzərində düşüncələrin diqqətəlayiqdir. Sən orda səhv tapmısan. Elə bu səhv üzərində düşünməkdə davam et, amma ey həqiqət ovçusu, düşüncələrində mübahisələrdən və

Telegram: @cinciva

mühakimələrdən qaç. Bundan hələ heç kəs xeyir tapmayıb: mühakimələr müdrik də ola bilər, axmaq da. Hər kəs onları bölüşə və ya rədd edə bilər. Sənin eşitdiyinsə mənim mühakiməm deyil və məqsədi maraqlananlara dünyanı başa salmaq da deyil. Onun məqsədi tam başqadır. Son nəticə insanları iztirabdan azad etməkdir. Hautama bunu öyrədir.

- Müqəddəs Budda, mənə hirslənmə, - Siddhartha söylədi. - Bunları mübahisə xətrinə demədim. Sən düz deyirsən, mühakimələrdə fayda azdır. Amma icazə ver, daha bir şey söyləyim: səndən zərrə qədər də şübhə etmirəm. Sənin Budda olduğuna, brahmanların xülyalarında görə biləcəkləri ali məqsədə çata bildiyinə zərrə qədər də şübhəm yoxdur. Sən ölümdən azad olmanın yolunu tapmısan. Və bu nəticəyə öz axtarışlarınla, öz yolunla, öz fikirlərinlə, iç dünyana baş vurmaqla, dərk etməklə, aydınlaşmanla gəlmisən. Bunları başqasından öyrənməmisən! Və elə bu səbəbdən də aydınlıq dəqiqəsində hiss etdiklərini sözlə heç kəsə çatdıra bilməzsən! Müqəddəs Buddanın nəzəriyyəsi çox şeydən xəbər verir - o, mömin yaşamağı, qəzəbdən qaçmağı öyrədir. Orda yalnız bircə şey çatmır: yüz minlərin içindən seçilmiş müqəddəsin hiss etdiyinin sirri. Sənin söylədiklərini dinlərkən bunları fikirləşdim və dərk etdim. Məhz bu səbəbdən yenidən yola çıxıram - daha yaxşı nəzəriyyə tapmaq üçün yox, çünki eşit-

Telegram: @cinciva

diklərimin mükəmməl olduğunu bilirəm, sadəcə bütün müəllimləri və nəzəriyyələri bir kənara qoyub, öz məqsədimə çatmağa, ya da ölməyə üstünlük verirəm. Amma müqəddəs insanla keçirdiyim dəqiqələri həmişə xatırlayacağam.

Buddanın yerə dikilmiş nəzərlərindən mütləq sakitlik yağırdı.

- Qoy fikirlərin, - o, xəfifcə dilləndi, - səni səhv yola sürükləməsin! Məqsədinə çata biləsən! Bircə sualıma cavab ver: səncə, nəzəriyyəmdə daldalanacaq yer tapan minlərlə ardıcılımın yenidən həyat burulğanına qayıtması daha düzgünmü olardı?

- Bu fikirdən tamamilə uzağam! - Siddhartha etiraz etdi. - Qoy onlar sənə sadiq qalsınlar və öz məqsədlərinə çatsınlar! Mənim başqalarını mühakimə etməyə haqqım yoxdur! Yalnız öz fikirlərimə cavabdehəm. Biz samanlar Mənindən qurtuluş yolu axtarırıq. Mügəddəs Budda, sənin ardıcıllarından biri olsaydım, Mənim yalançı rahatlıq tapacaq, xülyalara qapılacaq və daha da böyüyəcəkdi. Belə ki, nəzəriyyən, qardaşlar, sənə olan məhəbbətim, rahiblərin icması - bütün bunların hamısı Mənimə hopacaqdı!

Hautama gülümsəyərək qarşısındakına baxdı və son sözlərini deyərək ordan uzaqlaşdı:

- Saman, çox ağıllısan. Ağıllı danışmağı bacarırsan. Amma həddən artıq ağıllı olmaqdan çəkin!

Telegram: @cinciva

Siddhartha düşüncələrə daldı: "Ömrümdə bu cür baxışları olan, bu cür gülümsəməyi, gəzməyi, nəzər salmağı bacaran adamla qarşılaşmamışdım! Mən də bu cür gülümsəməyi, baxmağı, durub-oturmağı bacarmaq, körpə uşaq təki sərbəst olmaq istərdim. Bunu yalnız öz Məninin məhrəm hüdudlarına çatmış bir unsan bacarar. Mən də cəhd edəcəm. Yalnız onun qarşısında baxışlarımı yerə dikdim. Və əgər onun nəzəriyyəsi məni valeh etmədisə, bundan sonra heç kəs məni heyrətləndirməyəcək".

"Budda məni talan etdi, - Siddhartha düşünürdü, - amma talan etdiyindən də çox mükafatlandırdı. Məni mənə inanan, kölgəm olan dostumdan məhrum etdi, Qovinda bundan belə onun kölgəsidir. Əvəzində mənə Siddharthanı, özümü bağışladı".

Telegram: @cinciva

OYANIŞ

Siddhartha müqəddəs Buddanın, dostu Qovindanın qaldığı meşədən uzaqlaşarkən keçmiş həyatı ilə vidalaşdığını hiss etdi. O bu hisslərə dalaraq aramla addımlayır və düşüncələrində dərinə gedərək səbəbin gizli qapılarına çatıb açmağı cəhd edirdi, çünki məhz sonuncusunun dərk edilməsi təfəkkürün özü idi, yalnız bu zaman hiss yoxa çıxmır, biliyə çevrilir və mahiyyətinə varırdı.

Siddhartha fikirləşirdi. Meşədən uzaqlaşarkən o, artıq cavan Siddharthanın kişiyə çevrildiyini bilirdi. İlan qabığından soyulan tək nəyin onu tərk etdiyini də anlayırdı. Bu, cavanlığı boyu ona sadiq yoldaş olan müəllim tapmaq və başqalarının bilgilərinə daldalanmaq arzusuydu. Amma sonunda qarşısına çıxan ən möhtərəm və müdrik müəllimi, müqəddəs Buddanı da qəbul edə bilmədi, ondan da uzaqlaşdı.

Siddhartha addımlarını daha da yavaşıdırdı. "Müəllim və nəzəriyyələrin sənə çatdıra bilmədiklə-

Telegram: @cinciva

ri nədir?", - deyə o düşünürdü. Və, nəhayət dərk etdi: "Mahiyyətinə və mənasına varmaq istədiyim Mən. Həmişə Mənimdən qaçmağa, ona üstün gəlməyə cəhd etmişəm. Amma əldə etdiyim cüzi qələbə yalnız onu aldada bilməyim, ondan qaça bilməyim və ən nəhayət, ondan gizlənə bilməyimdir. Əslindəsə yer üzündə heç bir şey Mənim qədər düşüncələrimə sahib çıxmayıb. Yaşadığım bu sirr, bu möcüzə, başqalarından ayrılan, fərqlənən mənəm - Siddharthayam! Və yer üzündə özümdən, Siddharthadan çox heç nəyi bilmirəm!"

Gəldiyi bu qənaət onu dayanamağa məcbur etdi. Sonra ağlına əvvəlkindən doğan yeni bir fikir gəldi: "Özüm haqda heç nə bilməməyim, Siddharthanın hələ də mənə naməlum qalmağının yeganə səbəbi var: həmişə özümdən qorxmuşam, qaçmışam! Atmanı, Brahmanı axtararkən Mənimi parçalamağa hazır olmuşam. Sonuncunun, Atmanın, İlahinin mahiyyətinə varmaq üçün Mənimin bütün pərdələrini cırmaq iqtidarındaydım. Və axtararkən özümü itirdim".

Siddhartha gülümsəyərək diqqətlə ətrafı seyr etdi. Sanki dərin yuxudan ayılıbmış kimi oyanış hissi onu ağuşuna aldı. Və gənc saman qəti addımlarla irəlilədi.

"Bundan belə Siddharthanın məndən qaçmasına izn verməyəcəm! Daha fikirlərimi Atmana və dün-

Telegram: @cincivə

ya iztirablarına yönəldən deyiləm. Artıq özümü parçalayıb, qırıntılar arasında sirr axtarmayacam. Mənə heç bir müəllim və heç bir baxış lazım deyil. Bir də Yoqa-Veda, ya da Atharva-Veda üzərində baş sındırmayacam. Özümdən öyrənmək istəyirəm, öz şagirdim olmaq istəyirəm, ən nəhayət, Siddharthanın sirrini açmaq istəyirəm".

O, ətrafına sanki dünyanı birinci dəfə görürmüş kimi nəzər saldı. Aləm heyrətamiz, rəngarəng, qəribə və sirli idi! Meşənin əlvan rəngləri, şırıltı ilə axan çay, mavi səma, zirvəsi qar yorğanına bürünmüş dağlar - hər şey əsrarəngiz olduğu qədər sirliydi və bunların əhatəsində oyanış hissinin burulğanına qərq olan Siddhartha özünə gedən əsas yoldaydı. Cahan sanki ilk dəfə onun ruhuna yol tapmışdı: artıq meşə və çay, təbiətin müxtəlif rəngləri dərin düşüncələrə dalan brahmanın baxışlarına layiq olmayan Maranın sehri, Mayanın örtüyü anlamını daşımırdı. Maya vahidlik xətrinə müxtəlifliyi rədd etdiyi halda, Siddhartha mavi səmada da, şırhaşır axan çayda da ilahi başlanğıcı hiss edirdi. Gah meşə, gah çay, gah səma, gah da Siddhartha olmaq elə Yaradanın məğziydi. Bütün bünların anlamı sərhədləri hüdudunda deyil, məhz onların özündəydi.

"Necə də kar və hissiyyatsız olmuşam! - o, iri addımlarla irəliləyərək fikirləşirdi. - Məktub oxuyan məna axtarışında hərflərə və işarələrə nifrət etmir,

Telegram: @cinciva

onları yalan, heç bir anlamı olmayan örtük saymır və gördüyünə hörmətlə yanaşır. Mənsə həyatımın kitabını vərəqləməyə çalışarkən əvvəldən ehtimal olunan məna xətrinə hərf və işarələrdən iyrənir, dünyanı yalan adlandırır, gözlərimi və dilimi mənasız və yararsız bir şey sayırdım. Artıq oyanmışam və yalnız indi həyata tapınmışam".

Siddhartha bu qənaətə gələndə sanki yolunun üstündə ilan görübmüş kimi donub qaldı.

Çünki o, dərin yuxudan aylıbmış və ya işıqlı dünyaya yenicə göz açıbmış kimi hər şeyi sıfırdan başlamalıydı. Səhər Cetavana bağını tərk edərkən uzun illər keçirdiyi sərgərdan həyat tərzindən sonra ata evinə qayıdacağını düşünürdü. İndi yerində donub qaldığı anda yeni bir fikir onu ağuşuna aldı: "Mən əvvəlki deyiləm, artıq nə zahid, nə ruhani, nə də brahmanam. Bundan belə atamın yanında nə edəcəyəm? Yeni biliklərə yiyələnəcəm? Qurban verəcəm? Düşüncələrə dalacam? Amma sadaladıqlarım yeni seçdiyim yolun ziddinədir".

Siddhartha hələ də tərpənmirdi. Canını bir anlıq üşütmə aldı: o, tənha olduğunu anladı. Uzun illər vətənindən ayrı düşmüşdü, amma bunun fərqinə varmamışdı. İndi vardı. Həmişə, hətta iç dünyasına ən dərin səyahətində belə ali zümrəyə, iki dəfə doğulanlara aid mötəbər brahmanın oğlu olaraq qalmışdı. İndisə o, tənhaydı. İstər brahman, istər sıra-

Telegram: @cinciva

dan sənətkar, istərsə də saman özünə oxşarların əhatəsindəydi. Hətta ən tənha zahid belə meşədə tək deyildi? Onun da ardıcılı, özünə oxşarı vardı. Rahibliyi seçən Qovinda eyni paltar geyən və eyni məzhəbə qulluq edən yüzlərlə qardaş tapmışdı. Bəs Siddhartha kimə məxsus idi? Bundan sonra kimin həyatını yaşayacaq, kimin dilində danışacaqdı?

Vücudunu bürümüş bu biranlıq vicvicə onu səmada görünən ilk ulduza bənzətdi. Amansız fikirlərinin sürüklədiyi burulğandan çıxan Siddhartha artıq başqa adam idi. Dərk elədi ki, bu, oyanışın sonuncu əsməcəsi, doğuşun sonuncu tələşıdı. Tələsik addımlarla irəliləyən yeni doğulmuş Siddharthanın məqsədi evindən, atasından, Cetavana bağından və əvvəlki həyatından qat-qat uzaqda idi.

Telegram: @cinciva

İKİNCİ HİSSƏ

Telegram: @cinciva

Telegram: @cinciva

KƏMALƏ

Siddhartha hər addımında sanki dünyanı yenidən kəşf edirdi. O, dağların arasından çıxan günəşin şəfəqlərinin hündür palmaların yarpaqlarını oxşadığını görürdü. O, gecənin zil qaranlığında aydın səmanı ağuşuna almış ulduzları və ayı, ağacları, buludları, göy qurşağını, qayaları, otları, gülləri, çayları, bulaqları, kolların üstündəki şeh tumurcuqlarını uşaq heyranlığı ilə müşahidə edirdi. Quşlar cəh-cəh vurur, arılar vızıldaşır, külək düyü tarlalarının üzərində rəqs edirdi. Bunların hamısı əvvəllər də olmuşdu, amma Siddhartha üçün eyni anlam daşımamışdı, əksinə, gənc saman təbiətin əsrarəngiz gözəlliyini keçici, illüzor bir şey saymışdı. Çünki həmin vaxt məna görünənin hüdudları sərhədindəydi. İndisə onun baxışları uzun müddət korluqdan əziyyət çəkib, nəhayət, gözlərinə nur gəlmiş birisi tək ətrafını yenidən seyr edir və tərki-dünyalığı unudaraq qarşısında olanı dərk etməyə çalışırdı. Onu əhatə edən dünya ol-

Telegram: @cinciva

duqca gözəl idi. Çünki indi Siddhartha ətrafını körpə uşaq tək seyr edir və yoluna çıxacaq hər bir şeyi köksünə sıxa bilmək iqtidarındaymış kimi addımlayırdı. İndi günəş də dərisini ayrı cür yandırır, meşənin soyuğu ayrı cür üşüdür, banan, balqabaq, bulaq suyu ayrı cür dadırdı. Sanki gündüzlər də, gecələr də qısalmış, hər an yelkən xəzinə dolu gəmini sürətlə irəli dartırmış kimi uçurdu. Siddhartha maraqla budaqların üstündə qaçışan meymunları, qoyuna qalxan qoçu, qamış basmış göldə acgöz durnabalığından qaçıb canını qurtarmağa çalışan və sürü ilə suyun üzündə tullanan körpə balıqları müşahidə edirdi.

Bunlar həmişə olmuşdu, amma onun gözləri indi açılmışdı. Siddhartha sanki uzaq səyahətdən qayıtmış və yenidən bu harmoniyanın bir hissəsinə çevrilərək, uzun müddət ac qalmış ruhunu işıq və kölgə ilə doyuzdurmuş, ürəyini aya və ulduzlara açmışdı.

Gənc saman yolda bir daha Cetavana bağında yaşadıqlarını, Budda və onun baxışlarını, Qovinda ilə vidalaşmasını, Hautama ilə söhbətini xatırladı. Sonra Buddaya dediklərini əvvəllər bilmədiyini təəccüblə dərk etdi. Hautamaya nə demişdi: Budda oyanış vaxtı hiss etdiklərini, sirrini heç bir sözlə, təlimlə ardıcıllarlna çatdıra bilməz. Axı vaxtilə Siddhartha da məhz bu zirvəyə çatmaq üçün

Telegram: @cinciva

isti ata ocağını tərk etmişdi. İndi o özünü kəşf etməliydi. Siddhartha özlüyünün elə Brahmanla daimi vəhdət təşkil edən Atmanın olduğunu çoxdan bilirdi. Amma özünə gedən yol həmişə fikir torunda itib-batırdı. Sözsüz, bu yol, bədən və hisslərin oyunundan keçmirdi, amma eyni zamanda düşüncə, idrak, savad nəticəsində əldə edilmiş müdriklik, gəldiyin qənaət və bu qənaətdən doğan yeni fikir ipliyi də deyildi. Yox, bu fikir dünyası onu məqsədinə doğru aparmamış, təsadüfi hissəvi Mənini öldürərkən təsadüfi ağıl və bilik Mənini göylərə qaldırmışdı. Ağlın da, hisslərin də arxasında sonuncu məğz dayanırdı, lakin onların hər ikisinə nə nifrət etmək, nə də olduğundan çox qiymət verməyə gərək yoxuydu, əksinə, onlarla oynamaq və hər ikisində Məhrəm Səsə varmaq lazım idi. İndi bu Səsdən özgə heç nə ona hakim kəsilməyəcəkdi və Səsə aparan bircə yoldan savayı heş bir cığır onu özünə çəkməyəcəkdi. Niyə Hautama ən müqəddəs dəqiqələrdən birində bodha ağacının kölgəsində yerə oturaraq aydınlıq pilləsinə yüksəldi? O, ürəyinin Səsinə qulaq asaraq, dincəlmək üçün məhz həmin ağacı seçdi və Səsin hökmünə itaət edərək, özünəişgəncə, qurbanlar, dualar və dəstəmaz, yemək-içmək, yuxu haqda fikirləri bir kənara tulladı. Kənardan yox, məhz içdən gələn Səsə itaət ali xoşbəxtlikdir.

Telegram: @cinciva

Gecəni bərəçinin küləş komasında keçirən Siddhartha belə bir yuxu gördü: sarı geyimli Qovinda qarşısında dayanıb. Çöhrəsini kədər bürümüş dostu soruşur: "Niyə məni tərk etdin?" Siddhartha cavabında dostunu qucaqlayır, amma ağuşüna aldığı yarıçılpaq qadın olur. Siddhartha onun eşiyə çıxan döşünü acgözlüklə əmir. Qadın və kişi bədəninin, günəş və meşənin, yer üzündə bitən bütün ot və bitkilərdən hazırlanmış ***ağının*** tamını xatırladan bu süd gənc samanı bihuş edir. Siddhartha oyandı - komanın kandarında solğun çay səssizcə axırdı.

Səhər tezdən Siddhartha komanın sahibindən onu çayın o biri sahilinə keçirməsini xahiş etdi. Qayıqçı gənc samanın xahişini yerə salmadı:

- Gözəl çaydır! - Siddhartha dilləndi.

- Düz deyirsən, - qayıqçı cavab verdi, - həqiqətən, gözəldir bə onu yer üzündə hər şeydən çox istəyirəm. Tez-tez onun səsinə qulaq asır, gözlərinə baxır və ondan öyrənirəm. Çaydan çox şey öyrənmək olar.

- Ey mərhəmətli insan, mənə yardım etdiyin üçün çox sağ ol, - sahilə çaxan Siddhartha dilləndi. - Heyf ki, sənə verməyə pulum yoxdur. Nə vaxtsa brahman oğlu olsam da, hazırda vətənindən məhrum sərgərdanam.

Telegram: @cinciva

- Görürəm, - qayıqçı söylədi, - ona görə də səndən nə hədiyyə, nə də pul gözləyirəm. Sən məni ayrı vaxt mükafatlandıracaqsan.

- Buna inanırsan? - Siddhartha gülümsəyərək səsləndi.

- Əlbəttə. Bu həqiqəti də mənə çay öyrədib: hər şey qayıdır! Saman, sən də qayıdacaqsan! Əlvida! Və qoy cənin ödəncin dostluğun olsun. Allahlara qurban verərkəm məni unutma.

Onlar mehribanlıqla ayrıldılar. Siddhartha çöhrəsində təbəssüm qayıqçı haqda fikirləşir və yeni dostluğuna sevinirdi. "Bu insan Qovindaya oxşayır, - o özlüyündə düşündü. - Qarşıma çıxan hər kəs Qovindaya oxşayır. Hamı mənə minnətdardır, halbuki mən onlara təşəkkür eləməliyəm. Hamı mənə dostluq təklif edir, hər kəs özgəsinin iradəsinə tabe olmağa hazırdır və fikirlərində özlərinə əziyyət vermirlər. Hamı uşağa oxşayır".

Siddhartha günorta kiçik bir kəndə çatdı. Gil komaların qarşısında toz içində balqabaq tumları və balıqqulaqları ilə oynayan uşaqlar samanı görən kimi qorxub qaçdılar. Kəndin kənarındakı yol dayaz çaydan keçirdi. Sahildə çömbəlmiş cavan bir qadın paltar yuyurdu. O, Siddharthanı görcək gülümsündü. Gənc saman bərkdən xeyir-dua verəndən sonra şəhərə gedən yolu soruşdu. Ayağa qalxıb ona tərəf addımlayan qadının işvəli al dodaqları azacıq islan-

Telegram: @cinciva

mışdı. O, Siddharthanın suallarına zarafatla cavab verir, ac olub-olmaması ilə maraqlanır və meşə samanlarının həqiqətənmi qadınlarla yatmadığını soruşurdu. Sonuncu sualı verərkən qadın sol ayağı ilə gənc samanın sağ ayağını tapdalayaraq, kişini sevgi oyununa çağıran bir hərəkət etdi. Siddhatrha qanının coşduğunu və göbəkdən aşağı hissəsinə istilik gəldiyini hiss etdi. O, röyasındakı qadının döşünün qəhvəyi giləsini necə acgözlüklə əmdiyini xatırladı. Gözlərini qaldıranda isə qarşısındakının qıyılmış baxışlarında yalvarış dolu arzusunu oxudu.

Siddhartha özü də bütün vücudu ilə qadını arzuladı. Amma ömründə birinci dəfə qadına toxunan saman ovunu ram etməli halda nədənsə tələsmədi. Elə bu vaxt o, Mərhəm Səsi eşitdi: "Yox". Beləcə, qadının alovlu baxışları, işvəli təbəssümü bütün gücünü itirdi və Siddhartha qarşısında artıq şəhvətli dişidən savayı heç nə görmədi. O, qadının üzünü dostyana sığallayıb bambuk cəngəlliyi arasında gözdən itdi.

Siddhartha həmin günün axşamı böyük şəhərə çatdı və çoxdan bəri darıxdığı insanlarla qarşılaşacağına görə sevindi. Neçə müddət meşədə yaşayan saman uzun illərdən sonra ilk dəfə qayıqçının evində gecələmişdi.

Siddhartha şəhərin kənarında hasarlanmış bağın kölgəliyində əllərində dolu səbət daşıyan çoxlu nökərlərlə rastlaşdı. Bu kiçik mərasimin ortasında

Telegram: @cinciva

addımlayan dörd nökərin çiyinlərində apardığı kəcavədə al yastıqlara dirsəklənmiş bir qadın oturmuşdu. Girişdə dayanan Siddhartha xanımı diqqətlə nəzərdən keçirdi. O, arxadan tac şəklində səliqə ilə yığılmış zil qara saçların altında bəmbəyaz, olduqca ağıllı bir çöhrə, yetişmiş əncirə bənzər al dodaqlar, azacıq yuxarı çatılmış incə qaşlar, siyah gözlər, şahanə dik boyun, hərəkətsiz, süd tək ağ əllər, qızıl bilərziklərlə bəzənmiş zərif biləklər gördü.

Qadının gözəlliyinə heyran olan Siddharthanın ürəyi həyəcanla döyündü. Kəcavə qənşərinə çatanda gənc saman başını qaldırıb xanımın üzünə baxdı. Xanım da xəfif təbəssümlə ehmalca oğlanı salamlayıb ağacların arasında gözdən itdi.

"Bu şəhər məni pis qarşılamadı, - Siddhartha fikirləşdi, - o, mənə yaxşı işarə göndərdi". Oğlan tələsik bağa girmək istəsə də, nökərlərin nifrət dolu baxışlarını xatırlayıb ayaq saxladı.

"Mən hələ də samanam, - o düşündü, - hələ də dilənçi zahidəm. Əgər bu bağa girmək istəyirəmsə dəyişməliyəm". Və qəhqəhə çəkdi.

Yoldan keçənlərdən bağın kimə məxsusluğu ilə maraqlanan Siddhartha sahibənin məşhur kurtizan Kəmalə adlandırıldığını və onun burdan savayı şəhərdə də evi olduğunu öyrəndi.

Siddhartha şəhərə daxil oldu. İndi onun məqsədi vardı.

Telegram: @cincivə

Məqsədinə doğru addımlayan saman şəhərin səs-küylü küçələrini gəzir, daş pilləkənlərdə dincəlir, meydan alverçilərini seyr edirdi. Axşamüstü o, əvvəlcə kənardan işini müşahidə etdiyi, sonra Vişnu mehrablarından birində rastlaşdığı dəllək şagirdi ilə dostlaşdı. Gecəni qayıqların arasında keçirən Siddhartha səhər tezdən hamını qabaqlayaraq yeni dostuna saçlarını kəsdirib, saqqalını qırxdırdı. Dəllək onun başına bahalı və ətirli yağ sürtdü. Sonra saman çayda çimməyə yollandı.

Axşamüstü gözəl Kəmalə kəcavəsində şəhərkənarı bağına yaxınlaşanda Siddhartha onu giriş qapısında gözləyirdi. Gənc saman baş əydi və kurtizan qadın onun salamına cavab verdi. Siddhartha mərasimin sonunda gedən nökəri çağırıb, onun sahibəsilə görüşmək arzusunda olduğunu söylədi. Bir azdan nökər geri qayıtdı və gənc samanı xanımının uzandığı köşkə gətirib, özü səssizcə uzaqlaşdı.

- Dünən axşam girişdə məni salamlayan sən deyildinmi? - Kəmalə soruşdu.

- Zənnində yanılmırsan, mən idim.

- Amma dünən saç-saqqalını toz basmışdı.

- Düz deyirsən, iti baxışlarından heç nə qaçmayıb. O, zahid olmaq üçün ata ocağını tərk edib, üç il meşədə yaşayan Siddhartha idi. İndisə samanlıqdan əl çəkib adamların arasına qayıtmışam, ilk qarşıma çıxan da sən olmusan. Və bütün bunları etiraf

Telegram: @cinciva

etmək üçün sənin yanına gəlmişəm! Siddharthanın danışarkən gözlərinin içinə baxdığı ilk qadınsan. Bundan belə baxışlarımı gözəl qadınlardan gizlədən deyiləm.

Kəmalə tovuz lələyindən düzəldilmiş yelpiyini yellədərək gülümsündü:

- Siddhartha bunları demək üçün yanıma gəlib?

- Həm bunları demək üçün, həm də Kəmalənin gözəlliyi qarşısında baş əymək üçün. Həmçinin ondan dostu və müəllimi olmasını xahiş etmək üçün. Axı sənin sənətin mənin üçün hələ də qaranlıqdı.

Kəmalə ürəkdən qəhqəhə çəkdi:

- Ömrümdə birinci dəfədir ki, meşə samanı tələbəm olmaq istəyir. Hələ heç vaxt cındırından cin hürkən, eybini köhnə sarğı örtən uzun saçlı dilənçi qonağım olmayıb. Hüzuruma çox cavanlar gəlir, aralarında brahman oğulları da var, amma onlar bahalı geyimdədirlər, ciblərisə doludur. Saman, yanıma gələnlər məhz bu cür olur.

Siddhartha halını pozmadı:

- Səndən öyrənməyə başlamışam. Özü də dünəndən. Gördüyün kimi, artıq uzun saqqalım yoxdur, saçlarımısa kəsdirərək yağlamışam. Sənə layiq olmam üçün cüzi şeylər çatmır: bahalı geyim və dolu pulqabı. Siddhartha bundan qat-qat çətin məqsədlərə doğru gedib və çatıb. Sənin də sevginə layiq olmağı bacaracam. Saçları daranmış, amma

Telegram: @cinciva

hələ də pulu olmayan yarıçılpaq Siddhartha xoşuna gəlmir?

Kəmalə yenə qəhqəhələrə daldı:

- Yox, hələ ki, xoşuma gəlmirsən! Siddharthaya bahalı geyimlər, səndəllər və ağzınacan dolu pulqabı lazımdır. Və Kəmaləyə gətirmək üçün hədiyyələr. Saman, dediklərimi qulağında sırğa elə.

- Söylədiklərini yaxşı yadımda saxladım, - Siddhartha cavab verdi. - O gül qoxulu ləblərindən çıxan sözləri necə unutmaq olar?! Amma mənim də dodaqlarım alovludur və səninkilərə uyğundur. Tezliklə buna əmin olacaqsan. Kəmalə, səndən sevgi oyunlarına yiyələnmək odu ilə alışan meşə samanından qorxmursanmı?

- Ömründə çaqqaldan savayı bir şey görməyən və qadın nə olduğunu bilməyən sadəlövh samandan niyə qorxmalıyam ki?

- Saman güclüdür və heç nədən qorxmur. Ey gözəl qadın, o səni zorla özünə ram edə bilər.

- Saman, mən bu aqibətdən heç qorxmuram. Məyər hansısa brahman kiminsə zor gücünə onun biliyinə sahib çıxacağından qorxurmu? Yox, çünki brahman yalnız özü istədiyi təqdirdə biliyini paylaşa bilər. Kəmalənin sevgi sevinci də eyni cür paylaşılır. Onun al dodaqları bal dadır, amma iradəsinin ziddinə heç kəs bu baldan bir damla dada

Telegram: @cinciva

bilməz! Siddhartha istedadlı şagirddir və qoy bu sözlərimi yadında yaxşı saxlasın: sevgini dilənmək, almaq, hədiyyə etmək olar, amma oğurlamaq qeyri-mümkündür. Düzgün yol seçməmisən. Bu cür gözəl oğlanın belə ağılsız hərəkətinə yalnız heyfsilənmək qalır.

Siddhartha gülümsəyərək baş əydi:

- Kəmalə, tamamilə haqlısan! Qoy dodaqların mənə yalnız bal bəxş etsin! Siddhartha sənin sevginə hazır olan kimi qayıdacaq. Gözəl qadın, mənə bir az da məsləhət verməzsən?

- Böyük məmnuniyyətlə. Ömründə çaqqaldan savayı heç nə görməyən dilənçi, sadəlövh samana məsləhət vermək savabdır!

- Əziz Kəmalə, məndə çatışmayan o üç şeyi tezliklə əldə etmək üçün neyləməliyəm?

- Dostum, bunu çoxları bilmək istərdi. Sən bacarıqlarının müqabilində pul qazanmalısan. Yoxsulun varlanması üçün bundan başqa yol yoxdur. Əlindən nə gəlir?

- Mən fikirləşməyi, gözləməyi və oruc tutmağı bacarıram.

- Daha heç nə?

- Heç nə. Hə, bir də şeir qoşa bilirəm. İndicə səninçün qoşduğum şeiri bir öpüşlə mükafatlandırmazsan ki?

Telegram: @cinciva

- Əgər xoşuma gəlsə. Şeirin adı nədir?
Siddhartha bir anlıq fikrə gedib söylədi:
Gözəl Kəmalə girir kölgəli bağçasına,
bağının ağzında görür qara samanı.
Şanagülü baxışlı o gözəlin gülüşü
Bələyir könlünü nura samanın.
Göylərə qurbandan qat-qat yaxşıdır
Yerdə Kəmaləyə vermək qurbanı.

Əllərini bərkdən bir-birinə vuran Kəmalənin qızıl qolbaqları cingildədi.

- Qaradərili saman, şeirin çox xoşuma gəldi! Bunun müqabilində sənə bir öpüş verməyinə dəyər.

Qadın baxışları ilə gənc samanı yanına çağırdı və onu uzun öpüşə qərq etdi. Siddhartha Kəmalənin müdrikliyinə heyrətləndi. O, bu yeganə öpüşü zamanı oğlanı gah uzaqlaşdırır, gah da köksünə sıxırdı. Siddhartha bunun sonralar sarınacağı sevgi zəncirinin ilk həlqəsi olduğunu bilirdi. Gənc saman aldığı yeni biliyin təsirindən tədricən özünə gəldi.

- Şeirin çox qəşəng idi! - Kəmalə təkrarladı. - Varlı olsaydım, səni qızılla mükafatlandırardım. Amma tək şeir qoşmaqla çox qazanmaq mümkün deyil. Sənə isə Kəmalənın dostu olmaq üçün çox pul lazımdır.

Telegram: @cinciva

- Kəmalə, sənin öpüşün adamın ağlını başından alır! - Siddhartha hələ də öpüşlərin təsiri altında dilləndi.

- Elə buna görə də pul qazanmağı bacarıram. Bəs sən nə edəcəksən? Yəni əlindən başqa heç nə gəlmir?

- Qurbanlıq nəğmələri oxuya bilirəm, - Siddhartha cavab verdi, - amma daha bunu etmək istəmirəm. Ovsun oxumağı bacarıram, amma ondan da uzaq durmaq fikrindəyəm. Hə, bir də kitab oxumağı...

- Dayan? - Kəmalə onun sözünü kəsdi. - Oxumağı bacarırsan? Yazmağı necə?

- Əlbəttə, bacarıram. Çoxları bunu bilir.

- Yanılırsan. Heç mən özüm üzündən oxuya bilmirəm. Sənin bu qabiliyyətin işə yarayar. Elə ovsun bacarığın da.

Elə bu an nökər qaçaraq gəlib, sahibəsinin qulağına nəsə pıçıldadı.

- Qonağım gəlib! - Kəmalə bərkdən dilləndi. - Siddhartha, tez burdan get! Səni heç kəs görməməlidir! Sabah yenə görüşərik.

O, nökərinə mömin samana ağ geyim bağışlamağı əmr etdi. Nökər Siddharthanın qolundan tutub tələsik kiçicik bir evə gətirdi, təzə geyimi verib, ondan heç kəsin gözünə görünmədən gizli yollarla bağdan çıxmasımı xahiş etdi.

Telegram: @cinciva

Xoşhal Siddhartha nökərin xahişini yerə salmadı. Meşədə gəzməyə öyrəşmiş saman səssiz-səmirsiz bağı tərk etdi. Bükülü qoltuğunda karvan-saraya gələrək, qarnını doyuzdurmaq üşün əl açıb diləndi. "Nə bilmək olar, bəlkə sabahdan bunun da daşını atacam", - düşüncələrə daldı.

Heç gözləmədiyi halda güruru baş qaldırdı və artıq saman olub dilənmək istəmədi. Əlindəki düyü kökəsini itə verdi.

"Adi gün-güəaran necə də sadədir, - Siddhartha fikirləşdi. - Samanlar arasında keçirdiyim iztirab-larla müqayisədə çox sadə. Elə Kəmalənin verdiyi ilk dərs kimi. Mənə bahalı geyim və coxlu pul la-zımdır. Bunlarsa məni yuxudan məhrum edə bilmə-yəcək qədər asan başa gələn şeylərdir".

O, səhərisi gün Kəmalənin evinə yollandı.

- Sevin! - Kəmalə salamlaşmaq əvəzinə həyəcan-la çığırdı. - Səni şəhərin ən varlı taciri Kamasvami gözləyir. Əgər xoşuna gəlsən, səni işə götürəcək. Ağıllı ol. İşi elə düzüb-qoşmuşam ki, haqqında ona başqaları danışıblar. Kamasvami çox mötəbərdir, ünsiyyətdə o qədər də utancaq olma! Ona nökərlik etməni istəmirəm, gərək eyni pilləyə çatasan, yoxsa Kəmalə səndən razı qalmayacaq. Kamasvami qo-calıb və tənbəlləşib, ürəyincə olsan, etibarını qaza-na bilərsən.

Telegram: @cinciva

Siddhartha təşəkkür edib gülümsündü. Kəmalə onun iki gündür heç nə yemədiyini bilib, çörəyə və şirin meyvələrə qonaq etdi.

- Uğur səni izləyir, - qadın sağollaşarkən söylədi. - Qarşındakı qapılar bir-bir açılır. Görəsən niyə? Bəlkə sən sehrbazsan?

Siddhartha cavab verdi:

- Dünən sənə fikirləşməyi, gözləməyi və oruc tutmağı bacardığımı dedim. Sənsə bunların heç nəyə yaramadığını söylədin. Kəmalə, zənnində yanılırsan və tezliklə bunun şahidi olacaqsan. Sadəlövh samanların meşədə sizin bacarmadığınız bir çox qəribə şeylərə yiyələndiklərini görəcəksən. Hələ srağagün cındırından cin hürkən çirkli saman idim, dünən artıq Kəmalənin al dodaqlarının balından daddım, tezliklə sə tacirlik edib sənin üçün əhəmiyyət kəsb edən var-dövlətə yiyələnəcəm.

- Qoy olsun, - qadın razılıqla dilləndi. - Amma mənsiz nə edərdin? Kəmalə kömək etməsəydi, Allah bilir haralardaydın.

- Əziz Kəmalə, - Siddhartha başını dik tutaraq gülümsündü. - Bağına girərkən ilk addımımı atdım. Məqsədim bu gözəl qadından sevginin sirlərinə yiyələnməkdi. Qərarımı verərkən məqsədimə çataca-ğımı bilirdim. Və sənin köməyini əsirgəməyəcəyinə əmindim. İlk baxışın sonrakı hadisələrə zamin durmuşdu.

Telegram: @cinciva

- Birdən sənə kömək etmək istəməsəydim?

- İstəyəcəkdin. Bilirsən, suya atılan daş ən qısa zaman kəsiyində dibə gedir. Siddharthada da belədir. Əgər hər hansısa məqsədi varsa, o sadəcə gözləyir, fikirləşir və oruc tutur, amma bununla yanaşı suya atılan daş tək sakitliyini saxlayaraq təbii şəkildə onu aşağı dartan gücə təslim olur. Məqsədin özü onu çəkir, çünki o, məqsədindən kənar heç nəyi ruhuna yaxın buraxmır. Siddhartha samanlardan bunu öyrənib, sadəlövhlərsə onu sehrbazlıq, şeytan əməli adlandırırlar. Halbuki şeytan deyilən bir şey heç mövcud deyil. Hər kəs gözləmək, fikirləşmək və oruc tutmaq iqtidarında olsa, məqsədinə çata bilər.

Siddharthaya diqqətlə qulaq asan Kəmalə özü də fərqinə varmadan artıq bu cavan samanın səsinə və baxışlarına vurulmuşdu.

- Əziz dost, bəlkə də hər şey sən deyən kimidir, - qadın sakit səslə söylədi. - Bəlkə də Siddhartha sadəcə gözəl kişidir, onun baxışları qadınların xoşuna gəlir və məhz elə bu səbəbdən xoşbəxtlik özü ona tərəf qaçır.

Siddhartha sevgilisini öpüb vidalaşdı:

- Müdrik Kəmalə, qoy sən deyən kimi olsun. Qoy həmişə baxışlarım xoşuna gəlsin və sənin bəxş etdiyin xoşbəxtlik məndən yan qaçmasın!

Telegram: @cinciva

ADAMLARIN ARASINDA

Siddhartha tacir Kamasvaminin yanına yollandı. Dəbdəbəli ev yiyəsinin həqiqətən varlı olduğundan xəbər verirdi. Nökərlər qonağı qiymətli xalçalar döşənmiş dəhlizlərdən keçirərək bir otağa gətirib ev sahibini gözləməsini söylədilər.

Bir azdan ağıllı və ehtiyatlı gözlərə, həris dodaqlara malik, qıvraq, çalbaş Kamasvami otağa daxil oldu. Qonaqla ev yiyəsi dostyana salamlaşdılar.

- Mənə sənin brahman, elmli bir insan olduğunu dedilər, - tacir sözünə başladı. - Amma sıradan bir alverçinin yanında xidmət etmək istəyirsən. Olmaya ehtiyacın var?

- Mən ehtiyac nə olduğunu bilmirəm, - Siddhartha cavab verdi. - Bu hissdən həmişə uzaq olmuşam. Uzun müddət meşədə, samanların arasında yaşamışam.

- Elə samanların arasında yaşamanın özü ehtiyacdan xəbər vermirmi? Məyər samanla yoxsul eyni şey deyilmi?

Telegram: @cinciva

- Əgər bu halım sənin dediklərinlə üst-üstə düşürsə, məni yoxsul adlandıra bilərsən, - Siddhartha cavab verdi. - Bəli, mən yoxsulam, amma bununla iradəmin ziddinə getməmişəm, deməli, ehtiyacım da yoxdur.

- Heç nəyə sahib olmadan necə yaşaya bilərsən?

- Cənab, bu haqda heç vaxt fikirləşməmişəm. Üç illik meşə həyat tərzi sürmüşəm və bu zaman kəsiyində necə dolanacağım barədə düşünməmişəm.

- Deməli, başqalarının hesabına yaşamısan.

- Bəlkə də. Amma tacir də başqalarının hesabına yaşayır.

- Yaxşı söylədin. Amma tacir heç nəyi havayı əldə etmir. O, əvəzində öz malını təklif edir.

- Sən də düz deyirsən. Kimsə verir, kimsə alır - bu, həyatın qanunudur.

- Bəs sən nə verə bilərsən, axı sənin heç nəyin yoxdur.

- Hər kəs özündə olanı verir. Döyüşçü gücünü verir, tacir - malını, müəllim - biliyini, kəndli - düyüsünü, balıqçısa - balığını.

- Əla. Yaxşı bəs sənin verə biləcəyin nədir? Əlindən nə gəlir?

- Mən fikirləşməyi, gözləməyi və oruc tutmağı bacarıram.

- Elə bu qədər?

- Hə.

Telegram: @cinciva

- Bunların faydası nədir? Elə götürək orucu - ac qalmağın nə xeyri?

- Cənab, xeyri çoxdur. Əgər adamın yeməyə heç nəyi yoxdursa, ən yaxşısı ac qalmaqdır. Əgər Siddhartha uzun müddət ac qalmağı bacarmasaydı, qarnını doyurmaq üçün hər bir işə razı olardı. Amma Siddhartha gözləməyi və aclığa tab gətirməyi bacarır. Bu da oruc tuta bilməyin faydası.

- Saman, çox ağıllısan. Bir az gözlə.

Otağı tərk edən Kamasvami əlində kağız büküləsü tezliklə geri qayıtdı.

- Bunu oxuya bilərsən?

Siddhartha bükülünü götürüb diqqətlə nəzərdən keçirdi və oxumağa başladı. Bu, alış-veriş müqaviləsiydi.

- Əla, - Kamasvami söylədi. - Nəsə yaza bilərsən?

Siddharthaya yazmaq üçün kağız və qələm verildi. O, tacirin bu xahişini də yerinə yetirdi.

Kamasvami kağızda yazılanları oxudu: "Yazmaq yaxşıdır, fikirləşmək üstündür, ağıl yaxşıdır, səbir daha uyğundur".

- Yazmağın da oxumağın kimi əladır, - tacir onu tərifləndi. - Birlikdə çox şeyi müzakirə etməliyik. Bu gün sadəcə qonağım ol, buranı öz evin kimi hiss elə.

Siddhartha təşəkkür edib, tacirin təklifilə razılaşdı. Ona bahalı geyim və səndəllər verdilər. Nökərlər gündə iki dəfə Siddhartha üçün bolluca yemək ha-

Telegram: @cinciva

zırlasalar da, o, yalnız bircə dəfə yeyir və ətlə çaxırdan imtina edirdi. Kamasvami Siddharthaya ticarətdən söhbət açır, ona mallarını və anbarı göstərir, haqq-hesabla tanış edirdi. Siddhartha bu günlərdə çox şey öyrənmişdi. O, çox qulaq asır və az danışırdı. Və Kəmalənin dediyi kimi, özünü tacirlə eyni səviyyədə tuturdu. Kamasvami işinə qayğı, bəzən də ehtirasla yanaşsa da, bütün bunlar Siddhatrtha üçün qaydalarını yaxşı öyrənməli halda məğzindən uzaq dura biləcəyi oyundan savayı heç nə deyildi.

Çox keçmədən Siddhartha tacirin sağ əli oldu. O, hər gün eyni vaxtda dəbdəbəli geyimdə və səndəllərdə, bahalı hədiyyələrlə gözəl Kəmalənin yanına getməyi unutmurdu. Kurtizan qadının al dodaqları, zərif olduğu qədər çevik əlləri Siddharthaya çox şey öyrətmişdi. Müəllimi sevgidə təcrübəsiz, həzzin burulğanında kor-koranə batmağa hazır şagirdinə səbirli şəkildə öz elminin sirrlərini açırdı. Siddhartha tədricən həzz vermədən həzz ala bilməyin mümkünsüzlüyünü, hər bir hərəkətin, hər toxunuşun, hər baxışın, bədənin ən kiçicik hissəsinin belə hüdudsuz sevinc daşıdığını öyrəndi. O, artıq sevişəndən sonra bir-birinə heyrətlənməmiş, bir-birinin üzərində qələbə çalmamış və bir-birinə itaət etməmiş durub getməyin sevgilini təhgir etmək olduğunu bilirdi. Sevgi oyunundan sonra tərəflərdən heç biri boşluğa qapılmamalı, sanki qarşısındakını ələ saldığını hiss etmə-

Telegram: @cinciva

məliydi. Müdrik Kəmalənin yanında heyrətamiz saatlar keçirən, onun şagirdi, sevgilisi, dostuna çevrilən Siddhartha bu incəliyə də yiyələnmişdi. İndi onun həyatının canı Kamasvaminin dükanı yox, Kəmalənin ağuşuydu. Tacir bütün vacib məktubların və müqavilələrin hazırlanmasını Siddharthaya tapşırmış və hər bir xırdalığı onunla məsləhətləşməyə öyrəşmişdi. Gənc köməkçinin yundan və düyüdən başı az çıxsa da, yüngül əli vardı və Kamasvami tezliklə onun sakitliyi və soyuqqanlılığı, dinləmə və insanların ürəyinə yol tapmaq bacarığı hesabına daha üstün olduğunu özlüyündə anladı.

- Bu brahmandan tacir çıxmayacaq, - o, dostuna söyləyirdi. - O, heç vaxt işinə ehtirasla, bütün qəlbilə yanaşmır. Amma sanki seçilmişlər sırasındadır, xoşbəxtlik özü onu tapır. Bilmirəm, cadugərdir, ulduzu həmişə parlayır, ya da samanlardan biz bilmədiyimiz şeylərə yiyələnib. Siddhartha işə oyun kimi baxır, ürəyinə yaxın buraxmır, uğursuzluqdan qorxmur və kefini pozmur.

Dostu tacirə məsləhət verdi:

- Sənin üçün gördüyü işdən qazancının üçdə birini ona ver və uğursuzluq anında həmin hissənin məsuliyyətini onun boynuna qoy, belədə işə daha səylə yanaşacaq.

Kamasvami dostunun məsləhətinə əməl etdi. Amma Siddharthanı şəxsi mənfəəti az maraqlandı-

Telegram: @cinciva

rırdı. Uğur anında qazancına etinasız yanaşır, əksinə halda gülüb aşağıdakıları söyləyirdi: "Baxsana, bu dəfə bəxtim gətirmədi!"

Ticarət, həqiqətən də, ona maraqsız idi. Bir dəfə Siddhartha kəndlilərin düyü məhsulunu almaq üçün uzaq kəndlərdən birinə yollanır. Ora çatanda malın başqasına satıldığını öyrənir. Siddhartha halını pozmadan bir neçə gün kənddə qalır, kəndliləri bahalı şeylərə qonaq edir, uşaqlara xırda pullar paylayır, yerlilərdən birinin toyunda şənlənir və səyahətdən məmnun halda geri qayıdır. Kamasvami köməkçisini pulunu və qiymətli vaxtını havaya sovurmaqda təqsirləndirir. Siddharthasa heç nə baş verməyibmiş kimi sakitcə cavab verir:

- Əziz dost, hirslənməyə dəyməz! Hələ heç kəs hirsin hesabına qələbə çalmayıb. Əgər ziyana getmişiksə, bunun ağırlığını qoy mən daşıyım. Səfərimdən razı qaldım. Müxtəlif insanlarla tanış oldum, bir brahmanla dostlaşdım. Uşaqlar dizimin üstündə oturur, kəndlilər mənə düyü sahələrini göstərirdilər. Heç kəs mənim tacir olduğumu belə bilmədi!

- Çox pakizə! - Kamasvaminin hirsi hələ də soyumamışdı. - Amma əslində sən tacirsən, hər halda belə fikirləşmək istərdim! Yoxsa ora yalnız kef çəkməyə getmişdin?

- Əlbəttə ki! - Siddhartha qəhqəhə çəkdi. - Əlbəttə, kef çəkməyə getmişdim. Başqa nə cür ola bilərdi

Telegram: @cinciva

ki? Təzə yerlər və adamlar gördüm, onların etibarlı və dostyana ünsiyyətinə sevindim. Bilirsən, əgər Kamasvami olsaydım, kiminsə məni qabaqladığına qəzəblənər və anındaca geri qayıdardım, onda, həqiqətən də, qiymətli vaxtımı və üstəlik pulumu itirərdim. Mənsə vaxtımı əla keçirdim, qəzəbim və təlaskənliyimlə nə özümə, nə də ətrafdakılara zərər verdim. Nə vaxtsa alver üçün ora qayıdası olsam, insanlar məni şadyanalıqla qarşılayacaq və zamanında kobudluq etmədiyim üçün özümdən razı qalacam.

Tacir əbəs yerə köməkçisini bu işin müqabilində çörək yediyinə inandırmağa cəhd edirdi. Siddhartha öz çörəyini yeyirdi, ya da onların hər ikisi başqalarının çörəyini yeyirdi. Siddhartha Kamasvaminin qayğılarına etinasız qalır, tacirinsə işi başından aşırdı. Növbəti işdə onları uğursuzluq gözləyir, mal zay çıxır, borc sahibi pulunu geri istəyir, - heç bir halda tacir köməkçisinə nitqində hirsli olmağı, qəm dəryasına batmağı, yuxusunu qarışdırmağı təlqin edə bilmirdi. Kamasvami bir dəfə Siddharthaya son zamanlar öyrəndiklərinə görə ona borclu olduğunu söylədikdə cavabında bunu eşitdi:

- Bu cür zarafatları sadəlövhlərlə elə! Səndən yalnız bir şey öyrənmişəm - bir səbət balıq neçəyədir, ya da borc verilən pulun faizi nə qədər eləyir. Sənin elmin yalnız bundan ibarətdir! Əziz Kamas-

Telegram: @cinciva

vami, düşünməyi səndən öyrənməmişəm. Əslində sənin buna ehtiyacın var.

Siddharthanın qəlbi ticarətdən qat-qat uzaqdaydı. Pul qazanmaqsa ona yalnız Kəmalənin sevgisini almaq üçün lazım idi. Onu da ehtiyac duyduğundan artıq əldə edə bilirdi. Yeni həyatında Siddharthanı maraqlandıransa əvvəllər kənar tutduğu adamlar və onların işi-gücü, qayğıları, sevinci-kədəri idi. Və o, nə qədər rahat ünsiyyət qursa da, yeni şeylər öyrənsə də, ətrafdakılarla özünün arasında dərin bir uçurum olduğunu anlayırdı. Siddhartha insanların qayğılı-qayğısız həyatlarına ikili münasibət bəsləyir, həm sevir, həm də nifrət edirdi. O, ətrafdakıların əlləşib-vuruşduqlarını, özünə qalsa heş bir anlamı olmayan şeylər uğrunda saç ağartdıqlarını, həyatlarını pul qazanmağa xərclədiklərini, kiçik sevinclər və şan-şöhrət ovçusuna çevrildiklərini, bundan ötrü bir-birini aşağıladıqlarını, samanın üzündə təbəssüm yarada biləcək ağrıdan şikayətləndiklərini görürdü.

Amma Siddhartha həmişə onları səbrlə dinləyirdi. İstər malını tərifləyən tacir olsun, istər borcunun üstünə borc istəyən birisi, istərsə də saatlarla yoxsulluq hekayəsini anladan və hər bir samandan heç olmasa iki dəfə varlı olan dilənçi, hamı onun üçün eyni qədərdə maraqlıydı. Siddhartha varlı tacirə də, onun üzünü təraşlayan nökərə də, küçədəki banan

Telegram: @cinciva

alverçisinə də eyni cür yanaşırdı. Kamasvaminin şikayət və təhriklərini şən əhval-ruhiyyə ilə dinləyir, təəccüblənir, başa düşməyə çalışır, özünə lazım olan qədər onunla razılaşır və istədiyi vaxt ehtiyacı olan başqa birisinə qulaq asmaq üçün arxasını ona çevirirdi. Siddharthanınsa yanına çoxları gəlirdi. Biriləri alver etmək, başqaları aldatmaq, üçüncüləri maraqlarını öldürmək, dördüncüləri məsləhət almaq istəyirdi. Və o, məsləhət verir, həmdərd olur, aldanmağına imkan yaradırdı. Beləcə, iştirakçıları adamlar olan bu oyun vaxtilə yalnız allahlar və Brahmana tutunan düşüncələrinə hakim kəsilmişdi.

Siddhartha vaxtaşırı köksündə nədənsə xəbər verən zəif bir səs, şikayət eşidirdi. Sonra bir saatlıq, bəlkə də daha az müddət kəsiyində qəribə həyat sürdüyünü, hərəkətlərinin lazımsız bir oyundan savayı heç nə olmadığını, bəzən sevinc hissinə qapılsa da, həqiqi dəqiqələrin ondan yan keçdiyini anlayırdı. Balaca bir oğlan topla oynayırmış kimi, insanlarla əylənir, onların sevincinə şərik çıxır, amma ürəyində çox uzaqda olduğunu anlayırdı. Ruhunun gözəgörünməz bulağı həyatına heç bir aidiyyatı olmadan səssizcə axırdı. Bu düşüncələri tez-tez Siddharthanı qorxudur və o, həqiqətən, yaşamaq və həyatdan həzz almaq istəyirdi.

Siddhartha əvvəlkitək tez-tez gözəl Kəmaləyə baş çəkir, cevgi sənətinə yiyələnir, "vermək" və "al-

Telegram: @cinciva

mağ"ın eyni pillədə durduğu şəhvət elminə qulluq edir, sevgilisilə söhbətləşir, ondan öyrənir, ona məsləhət verir və məsləhət alırdı. Kəmalə Siddharthanı cavanlıq dostu Qovindadan yaxşı başa düşürdü, çünki ona çox oxşayırdı.

Bir dəfə sevgilisinə dedi:

- Sən də mənim kimisən, başqalarına oxşamırsan. Sən yalnız Kəmaləsən və daxilində yalnız özünün gizlənə biləcəyin sakit bir məkanın var. Bunu mən də bacarıram. Çoxları bunu bilmir.

- Hamı ağıllı olmaz ki, - Kəmalə cavab verdi.

- Yox, - Siddhartha söylədi, - səbəb bu deyil. Kamasvami də mənim kimi ağıllıdır, amma iç dünyasında daldalanacağı yer yoxdur. İnsanların çoxu küləyə tuş gəlmiş yarpağa bənzəyir, havada fırlanıb aramla yerə düşürlər. Yalnız az sayda adam heç bir küləkdən çəkinməyən ulduz tək yollundan dönmür: onların qanunları özlərində əks olunub. Alimlər və zahidlər arasında yalnız bircə dəfə mükəmməl insanla rastlaşdım, onu heç vaxt unutmayacam. Bu, Hautama Buddadır. Minlərlə ardıcılı hər gün onun nəzəriyyəsini dinləyir və müəllimlərinin müdrik məsləhətlərini unutmamağa çalışırlar. Amma onlar olsa-olsa öz qanunları olmayan və küləyə tuş gələn yarpaqlardır.

Kəmalə mehribanlıqla sevgilisinin gözlərinə baxdı.

Telegram: @cinciva

- Yenə ondan söhbət açdın, yenə saman kimi düşünürsən.

Siddhartha susur və onlar yenidən yalnız Kəmaləyə məlum otuz-qırx sevgi oyunundan birinə başlayırdılar. Qadının bədəni bəbir kimi qıvraq idi və ondan sevgi öyrənənə həzzin bir çox sirri açılırdı. Kəmalə Siddhartha ilə uzun müddət sevişir, gah özünə çəkir, gah itələyir, gah da onun ustalığına heyrətlənərək ağuşuna alırdı. Sonda Siddhartha itaətli və əldən düşmüş halda Kəmalənin yanında uzanıb qalırdı.

Kurtizan qadın sevgilisinin başı üzərində əyilərək üzün müddət onun yorğun gözlərini seyr edirdi.

- İndiyə kimi sevdiklərimdən ən yaxşısısan, - o, fikirli halda dilləndi. - Sən başqalarından güclü, cəld və üzüyolasan. Siddharta, elmimə yaxşı yiyələndin. Nə vaxtsa cavanlığım məni tərk edəndə səndən uşaq doğmaq istərdim. Amma, əzizizm, sən elə saman olaraq qaldın və heç vaxt məni sevmədin; sən heç kəsi sevməyi bacarmırsan. Məyər düz demirəm?

- Yəqin ki, düz deyirsən, - Siddhartha cavab verdi. - Mən elə sənin kimiyəm - axı sən də heç kəsi sevmirsən. Yoxsa sevgiyə necə incəsənət kimi yanaşa bilərdin? Yəqin bizim kimilər sevməyi bacarmırlar. Uşaqlara oxşayan insanlarsa bacarırlar, onların sirri də bundadır.

Telegram: @cinciva

SANSARA

Uzun müddət cazibə və kef dolu həyat sürən Siddhartha əvvəlkitək onu özünə özgə sayırdı. Zahid həyat tərzi keçirərkən öldürdüyü hisslər yenidən baş qaldırmışdı; o, var-dövlətin dadına baxmış, sevginin nə olduğunu anlamış, amma bununla belə, müdrik Kəmalə zənnində yanılmamışdı: Siddhartha ürəyinin dərinliyində saman olaraq qalmışdı. Düşüncə, səbr və oruc əvvəlkitək həyatının üç əsas ehkamıydı. Və uşağa oxşayan insanlar hələ də ona özgə idi.

İllər ötür, iltifatlı talenin ağuşunda mürgüləyən Siddharta zamanın necə əridiyini hiss etmirdi. O, artıq varlıydı, çoxdan nökərlərlə dolu dəbdəbəli evə və çayın kənarında şəhəryanı bağa malik idi. İnsanlar Siddharthanı sevir, məsləhət və kömək almaq üçün onun yanına gəlir, amma o, Kəmalədən savayı heç kəsə yaxınlıq vermirdi.

Hələ gəncliyində, Hautama ilə görüşündən, Qovinda ilə ayrılığından sonra əldə etdiyi oyaq ruhu-

Telegram: @cinciva

nun ilahi həssaslığı, gərgin gözləntisi, istənilən müəllim və nəzəriyyələrdən qürurlu imtinası, ürəyindəki ilahi səsin ardınca gedə bilmək iqtidarı artıq çoxdan xatirələrə çevrilmişdi. Nə vaxtsa içində şırıldayan müqəddəs bulağın səsi indi çətin eşidilə biləcək məsafədəydi. Sözsüz, brahman atasından, samanlardan, Hautamadan öyrəndikləri hələ onu tərk etməmişdi: mötədil həyat, düşüncə sevinci, özünüdərk saatları, nə vücud, nə də şüur olan Məninin sirrinə varma. Amma bunlar da tədricən dərinə gedir və dalğınlığın qalın toz pərdəsilə örtülürdülər. Hərəkətə gətirilən dulusçu dairəsitək Siddharthanın zahidlik çarxı uzun müddət fırlansa da, getdikcə sürət yavaşıyır və dayanma nöqtəsinə yaxınlaşırdı. Tənbəllik səssiz ilantək ruhuna sarılır və bu ağırlıq onu get-gedə nəmin təsirindən çürüyən ağac gövdəsinə çevirirdi.

Əvəzində hissləri yenidən cücərmiş, bir cox yeni şeyin dadına baxmışdı. Siddharta ticarətlə məşğul olmağı, adamlara hökm etməyi, qadından həzz almağı, bahalı paltarlar geyməyi, dəbdəbəli evdə yaşamağı öyrənmişdi. O, balıq, mal və quş əti yeyir, adamı tənbəl və qayğısız edən çaxır içir, şahmat və qumar oynayır, rəqqas qadınlardan həzz alır, kəcavədə yırğalanır və yumşaq yorğan-döşəkdə yatırdı. Amma yenə də özünü başqaları kimi saya bilmir, hələ də ətrafdakılara samanın dünyəvi olan şeylərə

Telegram: @cinciva

qarşı keçirdiyi rişxənd hissilə nəzər salırdı. Kamasvami xəstələnəndə, hirslənəndə, inciyəndə, qayğılar onu üstələyəndə Siddhartha bütün bunlara yüngül istehza ilə yanaşmaqla kifayətlənirdi. Amma mövsümlər bir-birini əvəzlədikcə bu istehza azalır və üstünlük hissi kütləşirdi. Get-gedə varlanan Siddhartha özü də uşağa oxşayan insanlara bənzəməyə başlayır və qorxaqlaşırdı. Və bu oxşarlıq artdıqca onlara paxıllıq hissi də artırdı. Paxıllığın mənbəyisə başqalarında təbii şəkildə olan, özündəsə çatışmayan həyata verilən əhəmiyyət, qorxu və sevinclərinə qarşı duyulan ehtiras, əbədi vurğunluqlarının şirin xoşbəxtliyi idi. Onlar həmişə nəyəsə - özlərinə, qadınlara, uşaqlarına, şan-şöhrətlərinə, var-dövlətlərinə, arzu və ümidlərinə vurğun idilər. Siddharthasa hələ də uşaq sevincinə və uşaq düşüncəsizliyinə öyrəşə bilməmişdi. Əvəzində onlardan özünün nifrət etdiyi şeyləri öyrənmişdi. Gecəni şən keçirdiyi halda səhəri uzun müddət yorğunluq və darıxma hissilə yataqda uzanıb qalır və özünü ağılsız hesab edirdi. Bəzən Kamasvaminin şikayətlərindən yorulur sə səbri tükənir, digər halda qumarda uduzmasını dəli qəhqəhə ilə qarşılayırdı. Çöhrəsi hələ də ətrafdakılardan müdrikliyi və şövqü ilə fərqlənsə də, üz cizgiləri varlılara xas narazılıq, yorğunluq, ümidsizlik, tənbəllik, sevgisizliklə əvəzlənmişdi. Siddhartha yavaş-yavaş varlıların ruhi xəstəliyinə

Telegram: @cinciva

düçar olurdu. Yorğunluq onun çiyinlərinə nəm və bulanıq duman kimi çökürdü. Qovinda ilə ayrılıqdan sonra başladığı yeni həyatı çox geyilmiş, köhnə, ləkəli, yırtıq paltar tək təravətini itirmiş və nimdaşlaşmışdı. Hardasa yaxınlıqda gizlənən və ilk fürsətdəcə ona zərbə endirməyə hazır peşmançılıq və nifrət hissi səbrlə məqamını gözləyirdi.

Siddhartha bunu sezmirdi, yalnız nə vaxtsa Zöhrə ulduzu tək ona yol göstərən ürəyindəki Mərhəm Səsin susduğunu duyurdu.

Həyatı Siddharthanı öz quluna çevirmişdi. O, arzuların, hisslərin, tənbəlliyin və nə vaxtsa ələ salıb nifrət etdiyi tamahkarlığın əsiriydi. Var-dövlət, mal-mülk də ağır zəncir həlqəsi tək yaxasından sallanmışdı. Vaxtilə oyun kimi baxdığı şeylər indi ağır yükə çevrilmişdi. Siddharthanın ən sonuncu miskin asılılığı isə gumar idi. Hətta ürəyinin dərinliyində belə samanlığın daşını atandan bəri qarşısıalınmaz qəzəb və ehtirasla qumara qurşanmışdı. Ortalığa böyük pullar atan Siddhartha qorxulu oyunçu idi, tək-tük halda kimsə onunla rəqabətə girməyə ürək edirdi. O, şiddətli tamahkarlıqla oyuna girişir, uduzmaq, pulları havaya sovurmaqdan xüsusi ləzzət alır, sanki bununla var-dövlətə olan nifrətini təcəssüm edirdi. Siddhartha dayanmaq bilmir, özünə nifrət hissilə udduğu minlərlə rupidən yerindəcə qurtulmağa çalışır, evini, qiymətli daş-qaşlarını

Telegram: @cinciva

uduzur, geri qaytarır, yenidən uduzurdu. O, qumar oynayarkən ortaya qoyduğu pulları uduzmaq qorxusundan həzz alır, bu hissi körpə uşaq kimi bəsləyir, hər vəchlə onun kəskinliyinin azalmamasına çalışırdı. Çünki o, Siddharthanı bu mənasız həyata bağlayan yeganə hiss idi. Və hər iri məbləğdə uduzulan pul onu daha səylə alver etməyə, varlanmağa sövq edirdi. Çühki bir də oynamaq, qazandığı pulları havaya sovurmaq, varlılara olan nifrətini hiss etdirmək istəyirdi. Siddhartha əvvəlki soyuqqanlılığını və səbrini itirmiş, ticarətə dəyən zərərə, məsuliyyətsiz borclulara, dilənçilərə amansız olmuşdu. İndi o, heç kəsə havayı pul vermək istəmirdi. Hər dəfə bir anlıq özünü silkələyib güzgüdə qocalmış və xoşagəlməz sifətini görəndə ürəyi nifrət dolu utanc hissindən sıxılır və bu hissdən qurtulmaq üçün ikiqat tamahkarlıqla qumara qurşanırdı. Bu mənasız dövrədə gücünü və cavanlığını itirən Siddhartha özünü xəstəhal və taqətsiz hiss edirdi.

Bir dəfə o, sanki gələcəkdən xəbər verən yuxu gördü. Hələ yatmazdan əvvəl Siddhartha həmin gün Kəmalə ilə birgə olmuşdu. Sevgililər ağacların altında oturub söhbət edir, dalğın baxışlı Kəmalə yorğunluqdan və kədərdən xəbər verən qəribə şeylər danışırdı. O, Siddharthadan Hautamanın müdrik çöhrəsini, mehriban təbəssümünü, aydın baxışlarını, sakit yerişini təsvir etməsini xahiş edirdi.

Telegram: @cinciva

Sevgilisi öz növbəsində uzun-uzadı Müqəddəs Buddadan söhbət açırdı. Nəhayət, Kəmalə ah çəkərək dilləndi:

- Nə vaxtsa, ola bilsin, tezliklə Buddanın ardıcılı olacam və ona öz bağımı bağışlayacam.

Qadın bunları deyib Siddharthanı sevgi oyununa dəvət etdi. O, sevgilisini heç vaxt olmadığı qədər ağrılı ehtirasla sevir, sanki bu keçici həzzdən son damlanı sıxıb çıxarmaq istəyirdi. Siddhartha heç vaxt şəhvət və ölümün oxşarlığını bu qədər aydınlıqla dərk etməmişdi.

Sonra o, Kəmalənin yanında uzanıb, sevgilisinin cizgilərini diqqətlə nəzərdən keçirdi: qadının gözlərinin və dodaqlarının kənarındakı xəfif qırışlar ona artıq qırx yaşa çatdığını və getdikcə çoxalan ağ saçlarını xatırlatdı. Siddhartha Kəmalənin üzündə işıqlı məqsədi olmayan yolçunun yorğunluq, qocalıq və ölüm qarşısında bəlkə də hələ tam dərk edilməmiş gərginlik və qorxusunu gördü. O, köks ötürüb sevgilisilə sağollaşdı: həsrət və gizli narahatlıq ruhunu parçalayırdı.

Gecənin qalan hissəsini evində düzənlədiyi, rəqqas qadınlar və bolluca çaxırla müşayiət olunan eyş-işrət məclisində keçirən Siddhartha səhərə yaxın yataq otağına yollandı. Amma gözlərinə yuxu getmədi: ruhunu bürüyən ağrı və nifrət hissi dözülməz həddə çatmışdı. Sanki vücudu təpədən-dırnağa

Telegram: @cinciva

ürəkbulandırıcı, həddən artıq şirin çaxır, zəhlətökən musiqi, rəqqasələrin saçlarından və döşlərindən gələn ətirə bələnmişdi. Ən başlıcasısa öz saçlarından gələn ətir, ağzından qoxuyan çaxır iyinə, hissiyyatsız və ölümcül yorğun dərisinə nifrət edirdi. Mədəsini əndazəsiz doldurmuş insan artıq çıxış yolunu qusmaqda gördüyü kimi, yuxuya getmək iqtidarında olmayan Siddhartha kefdən, vərdişlərindən, mənasız həyatdan və özündən qurtulmaq istəyirdi. O, yalnız günəşin şəfəqləri evinin pəncərəsindən boylananda mürgüləyə və qısa yuxuya gedə bildi. Və bu cüzi bayğınlıq məqamında Siddhartha Kəmalənin evində qızıl qəfəsdə yaşayan quşu gördü. Hər səhər cingiltili səsilə oxuyan bu quş nədənsə susmuşdu. O, qəfəsə yaxınlaşarkən quşun öldüyünü sezdi. Siddharta tələf olmuş heyvanın soyuq bədənini bir neçə saniyə ovuclarında saxlayıb pəncərədən bayıra atdı və elə həmin andaca sanki özündə olan işıqlı və qiymətli bir şeyi itiribmiş kimi ürəyi sıxıldı.

O, dərin kədər içində diksinib ayıldı. Bomboz, mənasız həyatında qoruyub saxlaya biləcəyi qiymətli heç nə qalmamışdı. Dəryada gəmisi qərq olmuş dənizçi tək puç edilmiş həyatı üzərində dayanmışdı.

Siddhartha qəmgin halda bağa gəlib, manqa ağacının altında yerə çökdü və dəhşətlə içində nə-

Telegram: @cinciva

yinsə öldüyünü, sonuna çatdığını hiss etdi. O, fikrini cəmləməyə çalışaraq bir daha yadında qaldığı ilk gündən ta bu yana həyatı vərəqlədi. Nə vaxt xoşbəxt olub, nə vaxt həqiqi səadəti hiss edib? Bu cür dəqiqələri çox keçirib. Hələ uzaq uşaqlıq illərində müdriklərlə mübahisədə fərqlənərkən, müqəddəs şeirlər oxuyarkən, yaşıdlarından üstün görünərkən, brahmanların tərifinə layiq görülərkən belə hisslər keçirmişdi. Həmin anlarda ürəyi ona aşağıdakıları söyləyirdi: "Səni taleyin cızdığı yol və allahlar gözləyir!" Və gənclik illərində düşüncələrində daha da irəli gedərək iztirablar içində Brahmanın mənasına varmağa çalışarkən əldə etdiyi hər yeni bilik onun ruhunu daha da susadır və ağrılar içində həmin səsi eşidirdi: "İrəli! İrəli! Sən seçilmişlər sırasındasan!" Siddhartha bu səsin ucbatından vətənini tərk edərək meşə həyat tərzini seçmiş və bununla da kifayətlənməyərək Buddanı tanımaq xətrinə samanlıqdan əl çəkmiş, lakin Hautamadan da ayrılaraq böyük naməlumuğa üstünlük vermişdi. Bu səsi eşitməyəli, yüksəkliyə can atmayalı nə qədər vaxt keçmişdi, artıq uzun müddətdir heç bir məmnunluq duymadan balaca sevinclərə qane olmaqla mənasız həyat sürürdü. Bu illərdə özü də bilmədən ruhunun çağırışı ilə yalnız bir şeyə - çoxları kimi, böyük uşaqlar kimi olmağa can atmışdı. Amma həyatı ətrafındakılardan

Telegram: @cinciva

qat-qat kasıb və miskin idi, çünki nə qədər istəsə də, onların qayğı və məqsədlərinə vara bilməmişdi; Kamasvaminin dünyası onun üçün kənardan izlədiyi oyundan, komediyadan savayı bir şey deyildi. Təkcə Kəmaləni ürəyinə yaxın buraxa bilmişdi, amma bu müdrik qadın da yalnız dünənədək Siddharthaya əziz idi, bəs bu gün? Ona əvvəlkitək ehtiyacı vardımı? Ya qadının ona? Məyər onlar sonu olmayan oyuna qurşanmamışdılarmı? Məyər ona görə yaşamaq labüd idimi? Buna lüzum yox idi! Bir dəfə, beş dəfə, on dəfə oynanıla biləcək bu oyunun adı sansara idi! Və onu yenidən, yenidən, həmişə oynamaq vacib idimi?!

Siddhartha oyunun sonuna gəldiyini anladı, artıq oynamağa gücü qalmamışdı. Kürəyinin ortasından soyuq tər axdı, sanki içində nəsə qırıldı.

O, axşamacan manqa ağacının altında oturaraq, atası, Qovinda və Budda haqda xatirələrə daldı. Belə çıxır ki, onları Kamasvamiyə çevrilmək üçün atmışdı. Ətraf zülmətə bürünsə də, o, heykəl kimi yerindən tərpənmirdi. Ulduzları seyr edən Siddhartha fikirləşdi: "İndi mən öz bağımda, öz manqa ağacımın altında oturmuşam". Və bu fikir onu gülümsəməyə məcbur etdi: ağaca, bütöv bir bağa sahib olması axmaq bir oyun deyildimi?

Buna da son qoyulmuşdu, içində bu sahiblik hissi də ölmüşdü. O, ayağa qalxıb ağacla, bağla

Telegram: @cinciva

sağollaşdı. Gün ərzində heç nə yeməyən Siddhartha ac olduğunu hiss etdi və şəhərdəki evini, isti yatağını, hər cür naz-nemətlə bəzədilmiş masasını xatırladı. O, yorğun-yorğun gülümsəyərək, artıq ehtiyac duymadığı bu şeylərlə də vidalaşdı.

Siddhartha həmin gecə evini, bağını, şəhəri tərk etdi və bir daha geri qayıtmadı. Kamasvaminin nökərləri sahiblərinin quldur xəncərinə tuş gəldiyini düşünüb, onu uzun müddət axtardılar. Siddharthanın yox olması yalnız Kəmaləni təəccübləndirmədi. Məyər bu sonluğu hər gün, hər an gözləmirdimi? Məyər Siddhartha məkanı olmayan saman deyildimi? Müdrik qadın bu vidanı son görüşlərində hiss etmiş və bəlkə elə bu səbəbdən onunla xüsusu ehtirasla sevişmişdi.

Kəmalə Siddharthanın yoxa çıxdığını eşidən andaca gəfəsin qapısını açıb, quşu pəncərədən çölə buraxdı və uzun müddət arxasınca baxdı. Həmin gündən kurtizan qadının evinin qapıları müştərilərin üzünə qapandı. Az sonra Kəmalə Siddharthadan uşağa qaldığını anladı.

Telegram: @cinciva

ÇAYIN KƏNARINDA

Şəhərdən uzaqlaşaraq meşədə dolaşan Siddhartha artıq geriyə yol olmamasından, uzun illər yaşadığı və nifrət həddinə çatdırdığı həyatı ilə vidalaşmasından başqa heç nə bilmirdi. Yuxuda gördüyü nəğməkar quşcığaz ölmüşdü. Sansaranın toru ruhuna sarılmış, iyrənclik süngər nəmi çəkən kimi vücuduna hopmuşdu. O, darıxma hissinin, şüur aclığının, ölümün zirvəsinə varmış, sevinc və ümid hissini tamamilə itirmişdi.

Siddhartha bütün vücudu ilə bayılmaq, sakitləşmək, ölmək istəyirdi. Elə indicə şimşək çaxsaydı, ildırım vursaydı! Ya da meşədən çıxan ac pələng onu parçalasaydı! İçini dağıdan ağrını boğan, geriyə yolu olmayan dərin bir yuxuya aparan zəhər içsəydi! Dünyada bulaşmadığı çirkab, işlətmədiyi günah, çəkmədiyi ağrı qalmamışdı. Bundan belə yaşamağına dəyərdimi? Əvvəlkitək havanı ciyərlərinə çəkə, aclığını-susuzluğunu yatıra, qadınla sevişə bilərdimi? Məyər bu dövrə geridə qalmamışdımı?

Telegram: @cinciva

Siddharthanın yolunu Hautama ilə görüşündən sonra qayıqçının köməkliyilə üzüb-keçdiyi meşə çayı kəsdi. İndi yenidən bu çayın sahilində duran Siddhartha qərarsız idi. Yorğunluq və aclıq ona güc gəlmişdi. Bir də yola davam etməyin nə anlamı vardı? Nə üçün, hansı məqsəd uğrunda? Bu miskin həyata son qoymaqdan savayı bir məqsədi yox idi.

Sahildə, budaqlarını suya sallamış bir hindqozu ağacı bitmişdi. Siddhartha ağaca söykənib qolları ilə onu qucaqladı və aşağı nəzər saldı. Birdən ağlından qollarını boşaldıb suya düşmək, çayda qərq olmaq keçdi. Ayağının altındakı dəhşətli boşluq sanki içindəki daha ağır boşluqla saziş bağlamışdı. Bəli, bu son idi. Yoxa çıxmaqdan, alınmamış həyatına son qoymaqdan, onu ələ salan allahların ayağı altına atılmaqdan başqa çarəsi yox idi. Çoxdan arzuladığı an, mənasız vücudunun məhv olma dəqiqəsi gəlib çatmışdı! Qoy Siddhartha adlı bu köpək, çürümüş bədən, süst düşmüş ruh balıqlara yem olsun. Qoy onu timsahlar parçalasın, şeytanlar ağuşuna alsınlar!

O, bir neçə saniyə suda əyilmiş əksini seyr edib tüpürdü və canına çökmüş yorğunluğun ağırlığına tabe olaraq qollarını boşaltdı. Eyni zamanda elə çevrildi ki, mümkün qədər tez batmaq üçün bədəni suya şaquli vəziyyətdə düşsün. Bağlı gözlərlə məhvinə doğru getdi.

Telegram: @cinciva

Birdən, ürəyiniń dərinliyindən, qocalmış həyatının artıq çox-çox geridə qoyduğu keçmişindən solğun bir səs eşitdi - bütün brahman dualarının başlanğıcı və sonu olan, "mükəmməllik", "son" anlamını verən müqəddəs "Aum". Siddhartha bu səsi eşidən kimi sönmüş şüuru yenidən geri qayıtdı və o, tutduğu işin anlamsızlığını dərk etdi.

Siddhartha dəhşətə gəldi. Deməli, işləri əməlli-başlı xarab imiş! Deməli, bir-birinin ardınca bütün həqiqətlərindən məhrum olaraq o qədər uzağa getmişdi ki, hətta ölməyə belə hazır idi. Son illərin iztirablarının, ümidsizliyinin verə bilmədiyini şüuruna tıxanan bir söz - "Aum" bacarmışdı: Siddhartha düzgün yolda olmadığını anladı.

- Aum! - o sakitcə dilləndi. - Aum!

Və elə həmin andaca həyatın məhvedilməzliyini, ilahiliyi, çoxdan unutduğu hər şeyi xatırladı.

Amma bu, olsa-olsa bir an, bir qığılcım idi. Siddhartha hindqozu ağacının yanında yerə çöküb, dərin yuxuya getdi.

Çoxdandı bu cür möhkəm yatmamışdı. Bir neçə saatdan sonra oyananda, sanki on il keçmişdi. Axar suyun sakit şırıltısına qulaq kəsilir və harda olduğunu, bura necə gəlib çıxdığını xatırlamağa çalışırdı. Nəhayət, gözlərini açıb təəccüblə başının üstündəki mavi səmaya baxdı, nazik tor örtüyünə bürünmüş keçmişi sonsuz ənginliyə dalaraq, özgə və darıxdırıcı

Telegram: @cinciva

göründü. Siddhartha yalnız əvvəlki həyatı ilə vidalaşdığını (oyandığı ilk anda isə əvvəlki həyatı ona indicə doğulmuş Məninin uzaq, keşmiş formasını xatırlatmışdı), ona nifrətindən irəli gələrək hətta çayda boğulmaq istədiyini, amma sonra birdən ürəyinin dərinliyində müqəddəs "Aum" sözünü eşitdiyini və bu hisslərlə dərin yuxuya getdiyini yadına sala bildi. İndi o, dünyaya yeni doğulmuş bir insan kimi nəzər salırdı. Siddhartha zəif səslə bir daha "Aum" söylədi və şüurlu şəkildə oxuduğu bu duanın içində əridi.

Necə də gözəl yuxu idi! Hələ heç vaxt yuxudan bu cür gümrah ayılmamışdı! Bəlkə həqiqətən də ölüb, formasını dəyişib? Yox, bu əllər, ayaqlar, uzandığı yer, içindəki Məni, tərs və əcaib Siddhartha ona tanış idi, amma bu Siddhartha həm də dəyişmiş, başqalaşmış, gümrahlaşmış və şən olmuşdu.

Ayağa qalxdı və birdən qarşısında sarı geyimli, qırxıqbaş, meditasiya edən bir rahib gördü. Siddhartha vaxtilə Buddanın nəzəriyyəsində sığınacaq tapmış uşaqlıq və gənclik dostu Qovindanı tanıdı. Dostu onun kimi qocalsa da, üz cizgilərini, sadiq, cəsarətsiz, sonu olmayan axtarış nişanələrini qoruyub saxlamışdı. Qovinda üzərindəki baxışları hiss edib, göz qapaqlarını qaldıraraq ona baxanda Siddharta özünün tanınmadığını anladı. Qovinda onun ayılmasına sevindi: yəqin naməlum səyyahın başının üstündə çox gözləməli olmuşdu.

Telegram: @cinciva

- Mən yatmışdım, - Siddhartha söylədi. - Bəs sən bura necə düşmüsən?

- Sən yatmışdın, - Qovinda cavab verdi. - İlanların qaynaşdığı bu yerlərdə yatmaq təhlükəlidir. Cənab, mən müqəddəs Hautamanın, Buddanın, Şakyamuninin şagirdiyəm. İcmamızın bir neçə üzvü ilə buradan keçərkən səni gördüm. Oyatmağa çalışdım, amma möhkəm yuxuya getmişdin. Yoldaşlarım yollarına davam etdilər, mənsə sənin oyanmanı gözlədim. Amma, deyəsən, keşik çəkərkən özüm mürgüləmişəm. Artıq oyanmısan, indi yolçu yolunda gərək - yoldaşlarıma çatmalıyam.

- Saman, keşiyimdə durduğun üçün çox sağ ol, - Siddhartha dilləndi. - Siz, Hautamanın şagirdləri olduqca mehribansınız. Əlbəttə, tələsməyin lazımdır.

- Cənab, mən gedirəm. Salamat qal.

- Saman, bir daha təşəkkür.

Qovinda ovüclarını bir-birinə dayayıb söylədi:

- Əlvida.

- Əlvida, Qovinda, - Siddhartha cavab verdi.

Rahib ayaq saxladı:

- Cənab, mənim adımı hardan bilirsən?

Siddhartha gülümsündü:

- Adın mənə atanın komasi, birgə getdiyimiz brahman məktəbi, allahlara verdiyimiz qurbanlar qədər lap keçmişdən tanışdır. Mən saman kimi me-

Telegram: @cinciva

şədə keçirdiyimiz illəri də, Cetavana bağında Buddaya tapındığın günü də unutmamışam.

- Siddhartha! - Qovinda çığırdı. - Səni indi tanıdım! Necə oldu ki, ilk baxışdan səni tanıya bilmədim? İlahi, yollarımızın bir də nə vaxtsa kəsişəcəyi ağlımın ucundan belə keçməzdi!

- Mən də səni görməyimə çox şadam. Keşiyimi çəkdin, hərçənd buna ehtiyacım yox idi. Dostum, hara gedirsən?

- Heç yerə. Biz rahiblər yağış mövsümünədək həmişə yoldayıq. Müəllimimizin qoyduğu qanunlara boyun əyərək qapı-qapı gəzir, dilənir, sonra yenə yolumuza davam eləyirik. Həmişə belə yaşamışıq. Siddhartha, bəs sən hara gedirsən?

Siddhartha dilləndi:

- Mənim də cavabım eynidir: heç yerə. Mən sadəcə yoldayam.

Qovinda söylədi:

- Yolda olduğunu deyirsən, sənə inanıram. Amma, Siddhartha, bağışla, sərgərdan həyat tərzi keçirənə oxşamırsan. Əynində bahalı paltar, ayaqlarında dəbdəbəli səndəllər var. Saçlarından gözəl ətir iyi gəlir.

- Düz buyurursan, dostum, iti baxışlarından heç nə yayınmayıb. Amma mən saman olduğumu demədim. Yalnız yolda olduğumu söylədim.

- Amma, adətən, belə geyimdə yola çıxmırlar.

Telegram: @cinciva

Sərgərdan həyat tərzimdə ilk dəfədi bu cür səyyahla rastlaşıram.

- Başa düşürəm, Qovinda. Bü gün beləsini də gördün. Əzizim, həyatda hər şey - geyimimiz də, saçlarımız da, bədənimiz də, hər şey keçicidir. Varlı paltar sahibi olduğumu düz sezmisən. Çünki bu günədək varlı olmuşam, saçlarım da şəhvətpərəstlərin sacı tək yuyulub-daranıb, bu günədək onlardan biriydim.

- Bəs indi, Siddhartha? İndi kimsən?

- Hələ bilmirəm. Bu haqda sənin qədər məlumatsızam. Yoldayam. Bu günə kimi varlı idim, bundan sonrasını bilmirəm.

- Var-dövlətini itirmisən?

- Hə, itirmişəm, ya da o məni itirib. Bir-birimizdən ayrı düşmüşük. Qovinda, çərxi-fələk sürətlə fırlanır. Brahman Siddhartha hardadır? Saman Siddhartha hardadır? Varlı Siddhartha hardadır? Qovinda, həyatda hər şey zamana tabedir, bunu yaxşı bilirsən.

Qovinda uzun müddət şübhəli baxışlarla uşaqlıq və gənclik dostunu süzdü. Nəhayət, hörmətlə sağollaşıb yoluna davam etdi.

Siddhartha üzündə təbəssüm dostunun ardınca baxdı. O, hələ də Qovindanı, onun itaətkar, cürətsiz qəlbini sevirdi. Həm də az əvvəl keçirdiyi ecazkar yuxudan, təkrarladığı "Aum" sözündən sonra

Telegram: @cinciva

kimisə sevməyə bilərdimi?! Ürəyi bündan belə rastlaşacağı hər şeyə açıq idi. Nəhayət, uzun illər düçar olduğu ağır xəstəlikdən şəfa tapmışdı: axı o, əvvələr heç kəsi sevə bilmirdi.

Nəzərlərilə getdikcə uzaqlaşan rahibi izləyən Siddhartha hələ də gülümsəyirdi. Yuxu gücünü bərpa etsə də, aclıq aman vermirdi: üç gündü dilinə heç nə dəyməmişdi. Oruc tutduğu günlərsə uzaq keçmişdə qalmışdı. Nə vaxtsa Kamasvaminin qarşısında üç əsas qabiliyyətilə öyünmüşdü: oruc, səbir və düşünmək məharəti. Siddharthanın əsl dövləti, gücü və hakimiyyəti bunlar idi. İndi üçündən də məhrum olmuşdu - artıq nə aclığa tab gətirə, nə səbrini basa, nə də düşünə bilirdi. Bacarığını ötəri hisslərə, var-dövlətə qurban vermişdi. Tale onunla əcəb oyun oynamışdı. İndi, deyəsən, həqiqətən də, uşağa bənzəyən adamlardan birinə çevrilmişdi.

Siddhartha düşdüyü vəziyyət üzərində baş sındırırdı. Ağır idi, əslində heç fikirləşmək belə istəmirdi, amma özünü məcbur edirdi.

"İndi, zamana tabe hər şeydən qurtulandan sonra yenidən körpə uşaq tək torpağın üstündə dayanmışam, sahib olacağım bir şeyim yoxdur və heç nə bacarmıram. Qəribədir! Cavanlığımın arxada qaldığı, saçlarıma dən düşdüyü bir vaxtda balaca uşaq kimi hər şeyə yenidən başlayıram!"

Telegram: @cinciva

Bu fikir onu sevindirdi. Həqiqətən, qəribə taleyi varmış. Həyat onu dibə sürüklədiyi halda yenidən əvvəlkitək boş, çılpaq və sadəlövh idi, amma bundan kədərlənmirdi, əksinə halına, qəribə izahsız dünyaya gülməyi gəlirdi.

"İşlərin kələfə düşüb! Yolun səni aşağı aparır!" - öz-özünə təkrarladı, qəhqəhə çəkərək çaya baxdı. Və çayın elə hey aşağı axdığı halda şadyanalıq edərək oxuduğunun şahidi oldu. Məyər bu, sanki yüz il əvvəl özünü boğmaq istədiyi həmin çay idi? Yoxsa bunu röyasında görmüşdü?

"Həyatım başdan-ayağa qəribəliklərlə doludur, taleyin mənə cızdığı dolanbac yollar da maraqlıdır. Uşaqkən işim yalnız allahlar və qurbanlarla idi. İlk gəncliyim zahidliklə, düşüncələrlə, Brahmanın axtarışı ilə, Atmana pərəstişlə keçdi. Sonra samanların yanına, meşəyə gedib, bədənimi hər cür iztiraba, aclığa, soyuğa alışdırdım. Daha sonra müqəddəs Buddanın həqiqətinə - cahanın vəhdətinin dərkinə vardım. Bu həqiqət sanki damarlarıma girərək qan yerinə axmağa başladı. Amma Buddadan da ayrıldım. Başqa şeylər öyrənməyə can atdım: Kəmalədən sevgi, Kamasvamidən ticarətin sirlərinə yiyələnərək çoxlu pul qazandım, onları xərclədim, qarnımı doydurmağı, hisslərimə yaltaqlanmağı öyrəndim. Uzun illər işim-gücüm vəhdəti unudaraq düşüncələrdən yaxa qurtarmaq oldu. Amma həqiqət

Telegram: @cinciva

də ondadır ki, dolanbac yollarla geriyə qayıtdım, kişidən balaca oğlana, mütəfəkkirdən vaxtilə istehza etdiyim uşağaoxşar adamlardan birinə çevrildim. Amma bu mənim yolumdur, içimdəki o quş hələ də ölməyib. Lakin bu nə yoldur belə?! Geri qayıtmaq üçün etmədiyim ağılsızlıq, işlətmədiyim günah qalmadı. Sonunda özümə nifrət etdim! Və bütün bunlar hər şeyə yenidən başlamaq üçünmü lazım idi?! Hə, içimdəki hüzn, gözlərimdəki təbəssüm də bunu təsdiqləyə bilər. Əfv olunmaq, "Aum" sözünü yenidən eşitmək, qayğısız yuxuya gedib oyanmaq üçün ümidsizliyin son nöqtəsinə qapılmalı, özünəqəsd fikrinə kimi yetişməliydim. İçimdəki Atmana qovuşmaq üçün ağılsız olmalıydım. Yeni həyata tapınmaq üçün günah işlətməliydim. Görəsən, yeni yol məni hara aparacaq? Bu yöndəmsiz yol bəlkə məni cızdığım dairədə fırlanmağa sövq edir? Hara aparır-aparsın, davam etməyə hazıram".

O, ürəyinin sevincdən döyündüyünü hiss etdi.

"Bu sevinc hissi haradandır? - Siddhartha özünə sual verdi. - Bəlkə səbəbi mənə rahatıq gətirən yuxuda axtarmaq lazımdır? Ya "Aum"da? Yoxsa yenidən azadlığa qovuşub qayğısız uşaq tək aydın səmaya baxa bilməyimdə? Bu xilaskarlıq hissi necə də şirindir! Hava necə də təmiz, nəfəs almaq necə də rahatdır! Cəngindən qurtulduğum yer çaxır iyi verirdi, orda hər şey darıxdırıcı və cansıxıcı idi. Varlı-

Telegram: @cinciva

ların, pulunu havaya sovuran oyunçuların həyatına necə də nifrət edirəm. Bu dünyada yaşadığım, onlardan biri olduğum üçün özümə necə nifrət edirdim! Necə də qocalmışam, qəzəbli olmuşam! Yox, bir daha Siddharthanın müdrik olduğuna inanmasına imkan verməyəcəm! Amma indi o ağıllı addım atıb, indi o tərifə layiqdir, çünki özünə qarşı yönələn hirsə, fərəhsiz, boş və mənasız həyatına son qoyub! Uzun illər uçuruma yuvarlansam da, nəhayət, köksümdəki quşun səsini eşitdim və bu səsin ardınca getdim".

Beləcə o, qarnının qurultusuna sevincək qulaq asır, son illər, son günlər keçirdiyi ürəkbulandırıcı, nifrətəlayiq, ölümcül iztirabların labüdlüyünü dərk edirdi. Ümidsizlik və çarəsizlik sürətlə axan çayın yanına gətirib çıxarmasaydı, o, hələ uzun müddət Kamasvami ilə qala, qazandığı var-dövləti qumarda sovura, qarnını doldura, ruhunu acıda, bahalı xalçalarla bəzədilmiş cəhənnəmdə çürüyə bilərdi. Amma Siddhartha cəhənnəmin dibinədək yuvarlanmamış, köksündəki quş hələ də susmamışdı.

"Zəruri olan hər şeyi özümün sınaqdan keçirməm lazım imiş, - o fikirləşdi. Hələ uşaq ikən vardövlətin qərəz toxumu olduğunu bilirdim, amma yalnız indi dərk etdim. Bunu artıq yaddaşımla yox, gözlərimlə, ürəyimlə, mədəmlə bilirəm. Siddhartha, dərk edə bildiyin üçün sevin!"

Telegram: @cinciva

O, köksündə çırpınan quşun səsinə bir xeyli qulaq asaraq, indiki halına sevindi. Məyər bu quş nə vaxtsa ölməmişdi, məyər onun məhvini hiss etməmişdi? Yox, ölən başqasıydı. Bəlkə bu, hələ saman olarkən öldürməyə çalışdığı həmin duyğu idi? Onun Məni, uzun illər hökmranlığına qarşı çıxdığı, amma həmişə tabe olduğu, hər dəfə qətlə yetirdiyini düşünərkən yenidən zühur edən qürurlu Məni? Bu meşədə, çayın kənarında öz ölümünü tapan, nəhayət, o deyildimi? Və qorxudan azad olmasına, yenidən uşaq kimi hər şeyə etibar etməsinə görə bu ölümə borclu deyildimi?

Birdən Siddhartha hələ brahman, saman olduğu illərdə niyə Məninə qələbə çala biləməməsinin səbəbini anladı. O, həddən artıq çox öyrənməyə can atmış, müqəddəs şeirlər oxumuş, bədənini hədsiz işgəncələrə məruz eləmişdi. O, həmişə iddialı, ağıllı, çalışqan, başqalarlndan bir addım irəlidə olmuş, savadla, düşüncələrlə silahlanmışdı. Oruc və sərt tövbə ilə onu öldürdüyünü düşündüyü halda Məni bu silahına daldalanaraq daha da böyümüşdü. Bunu yalnız indi dərk edirdi və ürəyinin səsi yanılmamışdı: heç bir müəllim onu Mənindən uzaqlaşdıra bilməzdi. Məhz bu səbəbdən, içindəki saman və kahini öldürmək üçün insanların arasına gedərək ruhunu hakimiyyətə, qadınlara, qızıla, ticarətə, qumara, içkiyə xərcləmişdi. Elə buna görə o iyrənc il-

Telegram: @cinciva

lərin ağırlığı altında əzilərək, içində bir nifrət, sonsuz boşluq və həyatının mənasızlığını hiss etməli, nəhayət, şəhvətpərəst, tamahkar Siddhartha sonunda ölməliydi. O da nə vaxtsa qocalmalı və vəfat etməliydi. Siddhartha da istənilən forma kimi keçici idi. Amma bu gün o cavan idi, uşaq idi və bu yeni Siddhartha başdan-başa sevinc idi.

O, minnətdarlıq hissilə mədəsinin qurultusuna və arılarln vızıltısına qulaq asaraq bu cür düşüncələrə dalmışdı. Siddhartha çöhrəsində təbəssüm çaya baxırdı: hələ heç bir çay ona bu qədər xoş gəlməmişdi, hərəkətdə olan suyun şırıltısı hələ heç vaxt bu qədər möhtəşəm və əsrarəngiz olmamışdı. Çay sanki ona hələ bilmədiyi, amma nə vaxtsa öyrənəcəyi mühüm bir şey demək istəyirdi. Az əvvəl bu çayda batmaq istəmişdi, qoca, yorğun, ümidsiz Siddhartha onun sularında qərq olmuşdu. Yeni Siddhartha isə bu yorulmaq bilməyən axına sonsuz sevgi duyurdu. O, çaydan tələsik aralanmamağı qərarlaşdırdı.

Telegram: @cinciva

QAYIQÇI

"Çayın yanında qalacam, - Siddhartha fikirləşdi, - uşaqlara oxşayan adamların sırasana qoşulmaq üçün nə vaxtsa bu cayı keçmişdim; mənə yaxşılıq edib sahilə gətirənsə mərhəmətli qayıqçı olmuşdu. Elə onun yanına gedəcəm. Haçansa yeni həyatımın yolu onun komasından başladığı kimi sonuna da yetdi, qoy bugünkü yolumun ilk cığırları da elə ordan keçsin".

Siddhartha sakit axan çayın sularına xüsusi mehribanlıqla nəzər saldı. O, suyun dibindən qalxaraq mavi səmanı özündə əks etdirib səssiz oynaşan hava qabarcıqlarını diqqətlə süzdü. Çay ona minlərlə - yaşıl, ağ, büllur, səmavi-mavi gözlərlə baxırdı. Siddhartha bu çaya dərin minnətdarlıq hissi duyurdu.

Yenidən çoxdan bəri dilə gəlməyən ürəyinin səsinin eşitdi: "Bu suyu sev! Onun yanında qal! Ondan öyrən!" Bəli, o bu çaydan çox şey öyrənəcək, sanki bu suların sirrinə vara bilən bir çox üstü açılmamış mətləblərdən hali olacaqdı.

Telegram: @cinciva

Amma hazırda həmin çayın saysız-hesabsız sirlərindən yalnız biri ürəyini titrəməyə məcbur etmişdi. Çayın suyu elə hey axır, eyni zamanda məcrasını tərk etmir - o, hər an eyni və ayrıdır! Bunu dərk etmək, buna varmaq necə də mürəkkəb işdir! Hələ ki bu həqiqət Siddharthanın gücü xaricindəydi, o, yalnız içində bir tərpəniş, ilahi səslərin əks-sədasını hiss edə bilmişdi.

Siddhartha ayağa qalxdı, mədəsini deşən aclıq artıq dözülməz həddə çatmışdı. O, beynində dərin düşüncələr sahil boyu cığırla çayyuxarı irəlilədi.

Keçidə çatanda sahildə nə vaxtsa samana kömək etmiş qayıqçını gördü. Qayıqçı qocalsa da, Siddhartha onu tanıdı.

- Məni çaydan keçirməzsən ki? - o soruşdu.

Bahalı geyimli birisinin təkbaşına, müşayiətsiz buralarda piyada dolaşdığına təəccüblənən qoca onu qayığa dəvət etdi.

- Özünə əla həyat tərzi seçmisən, - Siddhartha dilləndi. - Yəqin hər gününü bu çayın kənarında keçirmək çox xoşdur.

Avarın öhdəsindən məharətlə gələn qayıqçı gülümsündü:

- Cənab düz buyurur. Bu, doğrudan da, əladır. Amma istənilən başqa iş, başqa həyat da yaxşı deyilmi?

Telegram: @cinciva

- Yəqin sən də düz deyirsən. Amma mənim daha çox sənin həyatın və işindən xoşum gəlir.

- Bu həyatdan tez bezərdin. O sənin kimilər üçün deyil.

Siddhartha qəhqəhə çəkdi:

- Bu gün əyun-başımdan təəccüblənən ilk adam deyilsən. Mənə ağırlıq edən bu paltarları hədiyyə götürməzsən ki? Çünki sənə verməyə pulum yoxdur.

- Cənab yəqin zarafat edir, - qayıqçı güldü.

- Dostum, mən zarafat eləmirəm. Bir dəfə də məni bu çaydan keçirərkən pul almamışdın. Bu gün də mərhəmət göstər, haqqının əvəzinə paltrlarımı götür.

- Cənab çılpaq səyahət etmək fikrindədir?

- Açığı, bundan sonra səyahət etmək fikrim yoxdur. Böyük məmnuniyyətlə yanında qalıb sənin köməkçin, daha dəqiq desək, şagirdin olardım, çünki əvvəlcə qayıq sürməyi öyrənməliyəm.

Qayıqçı qarşısındakını anlamaq, bəlkə də nəyisə xatırlamaq üçün uzun müddət Siddharthanın üzünə baxdı.

- İndi səni tanıdım, - nəhayət dilləndi. - Lap çoxdan, iyirmi il əvvəl komamda gecələmişdin, sonra səni çayın o biri sahilinə keçirdim, sağollaşdıq. Lakin onda sən saman idin. Adını xatırlaya bilmirəm.

- Adım Siddharthadır, düz buyurursan, sonuncu görüşümüzdə mən saman idim.

Telegram: @cinciva

- Nə deyirəm ki, xoş gəlmisən, Siddhartha. Adım Vasudevadır, ümid edirəm bu gün də qonağım olacaq və geyiminin niyə sənə ağırlıq edəcəyini anladacaqsan.

Onlar çayın ortasına çatanda Vasudeva axına güc gəlmək üçün ağırlığını avarın üstünə saldı. Diqqətini qayığın burnuna cəmlənmiş qayıqçıya baxan Siddhartha hələ uzun illər əvvəl bu insana duyduğu sevgi hissini xatırladı. O, Vasudevanın dəvətinə görə minnətdar idi. Sahilə çatanda Siddhartha qocaya qayığı kötüyə bağlamağa kömək elədi. Sonra komaya girərək Vasudevanın qonaq etdiyi çörəklə suyu iştahla yeyib manqa meyvəsindən daddı.

Günəş qüruba enəndə sahilin kənarındakı kötüyün yanında əyləşdilər və Siddhartha qayıqçıya öz valideynlərindən, indiyədək başına gələnlərdən söhbət etdi.

Vasudeva xüsusi diqqətlə qulaq asırdı. O, sanki eşitdiklərini ruhuna hopdururdu: Siddharthanın ata evi, uşaqlığı və gəncliyi, sonsuz təmrinlər və axtarışlar, yaşadığı sevinclər və bədbəxtlikləri əhatələyən bütün söhbəti. Bu, qayıqçının əsas məziyyətlərindən biri idi: o, qulaq asmağı bacarırdı. Söhbət boyu Vasudeva bir kəlmə kəsməsə də, Siddharta ağzından çıxan hər bir sözə qayıqçının necə sakit, səbr və qayğı ilə yanaşdığını, mühakimədən və ya tərifdən uzaq durduğunu, sakitcə qulaq asdığını

Telegram: @cinciva

hiss edirdi. O bu cür dinləyiciyə etibar etməyin, ona ürəyini boşaltmağın, dərdini bölüşməyin necə böyük səadət olduğunu anladı.

Siddhartha hekayətinin sonuna yaxınlaşanda, çayın kənarındakı ağacın yanında yerə sərələnib dərin yuxuya getməsindən, ürəyinin dərinliyində müqəddəs "Aum" sözünü eşitməsindən, oyanandan sonra çaya duyduğu sonsuz məhəbbətdən danışanda qayıqçının gözləri qıyıldı və ikiqat diqqətlə ona qulaq asmağa başladı.

Siddhartha, nəhayət susdu və ortalığa çökən dərin sükutu ilk Vasudeva pozdu:

- Hər şey mənim fikirləşdiyim kimi sonuclandı. Çay sənlə danışıb. O, sənin dostuna çevrilib. Bu, çox yaxşıdır. Siddhartha, mənimlə qal. Arvadım çoxdan ölüb, tək yaşayıram. Yanımda qal, burda ikimizə də yer çatar.

- Məmnuniyyətlə dəvətini qəbul edirəm, - Siddhartha cavab verdi. - Vasudeva, mənə xüsusi qayğı ilə qulaq asdığına görə sənə minnətdaram. İndiyə kimi dinləyicilərim çox olub, amma heç biri sənin kimi qulaq asa bilməyib. Yanında qalıb bunu da səndən öyrənəcəm.

- Əlbəttə, öyrənəcəksən, - Vasudeva söylədi, - amma müəllimin mən yox, çay olacaq. Çay hər şeyi bilir, ondan çox şey öyrənmək olar. Artıq ilk dərsini almısan: dərinliyin axtarışında dibəcən getmək

Telegram: @cinciva

yaxşıdır. Varlı və alicənab, elmli brahman Siddhartha sadə qayıqçıya çevrilir - bunu da sənə çay öyrədib. Ondan başqa şey də öyrənəcəksən.

Uzun fasilədən sonra Siddhartha soruşdu:

- Başqa nə, Vasudeva?

- Artıq gecdir, yatmaq lazımdır. Dostum, bunu hələ deyə bilmərəm. Vaxtı gələndə özün agah olacaqsan. Bəlkə də artıq bilirsən. Mən alim deyiləm, nə danışmağı, nə də fikirləşməyi bacarıram. Yalnız qulaq asmaq qabiliyyətim var. Əgər hiss etdiklərimi çatdıra bilsəydim, müdrik olardım, mənsə olsa-olsa adi qayıqçıyam və məzhəbim adamları çaydan keçirməkdir. Ömrüm boyu çoxlarını qayığıma mindirmişəm və minlərlə insan üçün bu çay yalnız və yalnız sipər olub. Onlar pul qazanmağa, qayğılarını çözməyə, toya, müqəddəs yerlərə tələsiblər və çay yollarını kəsib. Qayıqçı olsa-olsa bu maneəni dəf etməkdə yardımçı rolunu oynayıb. Amma bu çoxluğun arasında yalnız dörd-beş nəfər çayın səsini eşidib və ona müqəddəs kimi yanaşıb. İndisə gəl yataq, Siddhartha.

Vasudevanın yanında qalan Siddhartha tezliklə qayığı idarə etməyin sirlərinə yiyələndi. Boş vaxtlarında isə o, düyü tarlasında işləyir, ocaq üçün çır-çırpı toplayır, banan yığırdı.

Siddhartha həmçinin avar düzəltməyi, qayığı təmir etməyi, səbət hörməyi də öyrəndi. O, günlərin

Telegram: @cinciva

aylarla əvəzləndiyini belə, hiss etmirdi. Siddharthanın qoca qayıqçıdan savayı daha bir müəllimi vardı. Bu, çay idi. O, daxilindəki bütün arzu və ehtirasları söndürüb, mühakimə və fikirlərdən uzaqlaşaraq hüzurla çayın səsinə qulaq asmağı öyrənirdi.

Beləcə, Siddhartha Vasudevanın yanında dinc həyat sürürdü. Onlar olduqca az mükalimə edirdilər. Qoca qayıqçı söhbət etməyi xoşlamırdı və Siddhartha nadir hallarda onu danışdırmağa müvəffəq olurdu.

- Haçansa çay vaxtın mövcud olmadığını sənə söyləyibmi? - bir dəfə qayıqçıdan soruşdu.

- Hə, Siddhartha, - Vasudeva gülümsündü, - demək istəyirsən ki, yəni çay eyni zamanda hər yerdədir: öz mənbəsində, şəlalədə, keçiddə, sıldırımda, dənizdə, dağdadır və onun üçün bu andan, indidən başqa heç nə mövcud deyil.

- Elə bunu demək istəyirdim, - Siddhartha təsdiqlədi, - bu həqiqəti dərk edəndə həyatıma yenidən nəzər saldım və gördüm ki, o da çay kimidir. Balaca Siddhartha böyük və qoca Siddharthadan mövcud olmayan kölgə ilə ayrılıb. Və Siddharthanın dünyaya əvvəlki gəlişləri keçmiş, ölümü, Brahmana qayıdışı isə gələcək deyil. Heç nə olmayıb, heç nə olmayacaq, hər şey var və yalnız indi mövcuddur.

Siddhartha yeni kəşfindən vəcdə gələrək, həyəcan dolu xoşbəxtliklə söhbət açırdı. Məyər bütün

Telegram: @cinciva

iztirab və qorxuların səbəbi zaman deyilmi və əgər şüurda vaxt deyilən anlama qalib gəlmək mümkün olarsa, dünyada ədavət deyə bir şey qalarmı? Vasudeva üzündə təbəssüm, sakitcə ona qulaq asır, razılıq əlaməti olaraq başını tərpədir və sonra ehmalca Siddharthanın çiyninə toxunaraq yarımçıq qalmış işinə davam edirdi.

Bir müddət sonra yağış mövsümündə coşub-daşan çaya nəzər salan Siddhartha söylədi:

- Dostum, çayın çıxardığı səslər sonsuzdur. Ondan padşahın hökmü, döyüşçünün harayı, öküzün nəriltisi, gecə quşunun çığırtısı, xəyalpərəstin ahı və minlərlə başqa səs eşidilir.

- Düzdür, - Vasudeva razılaşdı, - yer üzünün bütün səsləri onda cəmlənib.

- Bilirsən, - Siddhartha davam etdi, - onun minlərlə, on minlərlə səsini birdən eşitməyə müvəffəq olanda mənə hansı kəlamı söyləyir?

Vasudeva gülümsəyərək ona tərəf əyildi və qulağına pıçıldadı: "Aum". Siddhartha məhz bu sözü nəzərdə tutmuşdu.

Zaman ötdükcə Siddharthanın təbəssümü qayıqçının təbəssümünə oxşamağa başlayır, onun da minlərlə xırda qırışlarının arasından xoşbəxtlik yağır və cizgiləri eynilə həm körpəni, həm də qocanı xatırladırdı. Çaydan keçənlərin çoxu qayıqçıları qardaş sayırdılar. Dostlar tez-tez sahildə kötüyün

Telegram: @cinciva

üstündə oturur və sükuta dalaraq çaya diqqət kəsilirdilər. Bu səs onlar üçün həyatın, mövcudluğun, Əbədi Təşəkküldə Daiminin sədasıydı. Bu səsə aludə olan iki qoca, adətən, eyni düşüncələrə dalırdı: dünənki söhbət, sifəti və taleyi yaddaşlarında ilişib qalan hansısa səyyah, ölüm, uşaqlıq illəri. Və bəzən Vasudeva ilə Siddhartha eyni zamanda çaydan eyni suala cavab alarkən bir-birinə nəzər salır və eyni şey haqda fikirləşirdilər.

Səyyahların çoxu qayıqçıların sıradan biri olmadığını hiss edirdi. Bəzən hansısa sərgərdan qayıqçılardan birinin üzünə baxıb həyatından, başına gələnlərdən söhbət açır, tövbə edir və təskinlikqarışıq məsləhət istəyirdi. Bəzən kimsə onlardan bir sürə yanlarında qalıb çaya onlarla birlikdə qulaq asmaq istəyini dilə gətirirdi. Bəzənsə ora çayın kənarında iki müdrik, sehrbaz, hətta müqəddəsin yaşaması haqda şayiələrə uyanlar təşrif buyururdu. Gələnlər suallarına cavab tapmır, orda iki mehriban, lal-daş, azacıq qəribə və ağıldankəm təsiri bağışlayan qayıqçıdan savayı heç kimi görmürdülər. Və sadəlövh insanların şayiə yaydıqlarından şikayətlənməklə kifayətlənirdilər.

Zaman ötür və heç biri geridə qalan illəri saymırdı. Bir dəfə Buddanın çayı keçən ardıcıllarından bir neçəsi ağır xəstə yatan və tezliklə sonuncu ölümünü adlayaraq əbədi azadlığa qovuşacaq dahi

Telegram: @cinciva

müəllimlərinin yanına tələsdiklərini söylədi. Bir-birini əvəzləyən zəvvarların hamısı Hautamadan və onun yaxınlarda öləcəyindən danışırdı. Onlar müharibəyə, ya da tacqoyma mərasiminə tələsən insanlar tək dəstə ilə çayı keçir və hansısa sirli cəzbetmənin təsiri altında dəhşətli hadisənin baş verəcəyi yerə tələsirdilər. Orda mükəmməllik pilləsinin zirvəsinə qalxmağa müvəffəq olmuş dahilərdən ən möhtəşəmi əbədiyyətə qovuşmalıydı.

Siddhartha bu günlərdə can verən müdrik, Dahi Müəllim, səsilə yüz minlərlə ardıcılın ürəyini titrədən müqəddəs Budda haqda çox fikirləşirdi. Hautama haqda xatirələri işıqlıydı, o, xəyali baxışla Buddanın mükəmməlliyə gedən yolunu görür, hələ cavan ikən ona dediklərini yadına salırdı. Bu, cavanlıqdan irəli gələn, yaşına uyğun olmayan qürurlu ifadələr indi onun üzündə təbəssüm yaradırdı. Baxışlarını qəbul edə bilmədiyi Hautama ilə fərqlilik hissi çoxdan yoxa çıxmışdı. Həqiqi axtarış alovu ilə yanan kəs heç bir baxışı qəbul edə bilməz. Həqiqəti tapansa istənilən baxışı, yolu, məqsədi alqışlayır və Əbədidə, İlahidə yaşayan minlərlə başqası ilə onu heç nə ayırmır.

Buddanın yanına tələsənlər arasında Kəmalə də vardı. O, çoxdan əvvəlki həyatı ilə vidalaşmış, bağını Hautamanın rahiblərinə bağışlamış, onun nəzəriyyəsinə tapınaraq minlərlə sərgərdanın dostu ol-

Telegram: @cinciva

muşdu. Hautamanın yaxınlaşan ölüm xəbərini eşidən Kəmalə oğlu, balaca Siddhartha ilə sadə geyimdə, piyada yola düşdü. O, çayın kənarı ilə keçidə tərəf irəliləyirdi. Piyada gəzintilərə alışqan olmayan uşaq tez-tez yorulur, acdığını bəhanə gətirir və mızıldanaraq anasından geri dönməyi xahiş edirdi. Kəmalə ərköyün oğlunun ucbatından ara-sıra dayanmaq və ona təskinlik vermək məcburiyyətində qalırdı. Uşaq ölüm ayağında olan hansısa müqəddəsin yanına getmək üçün bu ağır səyahətin anlamına varmır və düşdüyü vəziyyətdən şikatəylənirdi. Budda ölür-ölsün, bundan onlara nə?

Səyyahlar Vasudevanın komasına yaxınlaşanda balaca Siddhartha anasından növbəti dəfə ayaq saxlamasını xahiş etdi. Kəmalə özü də əldən düşmüşdü və uşaq məyus-məyus banan yediyi vaxt yerə uzanaraq azacıq mürgülədi. Lakin az keçməmiş qadın birdən qışqırdı və oğlan dəhşətdən anasının bənizinin ağardığını gördü. Kiçik bir qara ilan Kəmalənin ətəyinin altından çıxaraq otların arasında gözdən itdi.

Ana-bala adamlara çatıb imdad diləmək üçün qaçmağa başladılar, amma keçidə az qalmış Kəmalə son gücünü də itirdi. O, əldən düşərək yerə sərildi, oğlansa anasını öpüşlərə qərq edərək vargücü ilə köməyə çağırmağa başladı. Onun harayına gələn Vasudeva qadını qucağına götürüb qayığa apardı və tezliklə üçü də komaya gəldi. Heç nədən

Telegram: @cinciva

xəbərsiz Siddhartha ocaq qalayırdı. İlk əvvəl oğlana diqqət yetirən qoca onu hardasa gördüyünü fikirləşdi. Sonra qayıqçının qolları arasında huşsuz vəziyyətdə olan Kəmaləni tanıdı və üzü yetərincə tanış gələn bu uşağın öz oğlu olduğunu anladı.

Kəmalənin yarasını yusalar da, qadının rəngi artıq qaralmış, garnı şişmişdi. Ağzına müalicəvi məlhəm damızdırandan sonra o azacıq özünə gəldi. Kəmalə komada, Siddharthanın yerində uzanmışdı və başının üstündə dayanan kişi nə vaxtsa sevdiyi saman idi. Sanki röyasında gördüyünü fikirləşən qadın ona təbəssümlə baxdı. Tədricən olanları yadına salan Kəmalə qorxu içində oğlunu səslədi.

- Uşaq burdadır, narahat olma, - Siddhartha söylədi.

Kəmalə sevgilisinin gözlərinə baxdı.

- Əzizim, qocalmısan, - qadın güclə dilləndi. - Saçların ağarıb. Amma yenə də nə vaxtsa ilk dəfə gördüyüm yarıçılpaq, ayaqyalın samana oxşayırsan. Məni və Kamasvamini tərk etdiyin vaxtdan fərqli olaraq indi həmin samanı daha çox xatırladırsan. Siddhartha, bu oxşarlıq baxışlarındadır. Mən də qocalmışam... Məni necə tanıdın?

Siddhartha gülümsündü:

- Səni gördüyüm an mənə bəs elədi.

Kəmalə oğlanı göstərib soruşdu:

- Bəs onu? Onu necə, tanıdınmı? O sənin oğlundur.

Telegram: @cinciva

Qadının gözləri yumuldu. Bunu görən oğlan ağlamağa başladı. Siddhartha uşağın könlünü almaq üçün onu dizinin üstündə otuzdurub saçlarını sığallamağa və uşaqkən öyrəndiyi brahman duasını zümzümə etməyə başladı. O, uzaq keçmişinin qaranlıq ənginliklərindən gələn duanın sözlərini aramla, sanki layla çalırmış kimi səsləndirdi və oğlan bu mahnının sədaları altında tədricən sakitləşərək yuxuya getdi. Siddhartha onu ocaqda düyü qaynadan Vasudevanın yatağına uzatdı.

- O öləcək, - Siddhartha sakitcə dilləndi.

Vasudeva cavabında başını tərpətdi və alovun şölələri onun mehriban çöhrəsini işıqlandırdı.

Kəmalə yenidən özünə gəldi. Qadının ağarmış bənizi, qıyılmış gözləri, büzüşmüş dodaqları ağrıdan xəbər verir və Siddhartha bu iztirab kitabını gərginliklə izləyərək sevgilisinin əzabını ürəyində hiss edirdi.

Ona baxan Kəmalə dilləndi:

- Sənin də baxışların dəyişib. Gözlərin başqalaşıb. Bəs sənin Siddhartha olduğunu hələ də söyləyən nədi? Bu, sanki sənsən və həm də sən deyilsən.

Nəzərlərini ondan çəkməyən Siddhartha susurdu.

- Axtardığını tapdınmı? - qadın sözünə davam etdi. - Hüzura yetişdinmi?

Siddhartha gülümsəyib Kəmalənin əllərini ovuclarına aldı.

Telegram: @cinciva

- Tapmısan, - qadın dilləndi, - bunu görürəm. Tezliklə mən də əbədiyyətə qovuşacam.

- Qovuşacaqsan, - Siddhartha pıçıldadı.

Kəmalə nəzərlərini ondan çəkməyərək az əvvəl Hautamanı görmək arzusunda olduğunu, onun işıq saçan hüzurunun pərdəsinə bürünmək istədiyini, əvəzində Siddhartha ilə rastlaşdığını və sanki Budda ilə görüşübmüş kimi eyni hissləri keçirdiyini düşündü. O, fikirlərilə bölüşmək istədi, lakin dili artıq söz tutmurdu. Kəmalənin gücü yalnız sevgilisinə baxmağa yetir və Siddhartha qadının gözlərində həyat işığının söndüyünü görürdü. Qoca qayıqçı qadının sonuncu iztirabından, qıcolmasından sonra barmaqları ilə onun göz qapaqlarını örtdü.

Siddhartha Kəmalənin donmuş çöhrəsinə, qocalmış, yorğun, nazik dodaqlarına baxıb, nə vaxtsa onları yetişmiş əncirə oxşatdığını xatırladı. O, qadının ağarmış bənizini, yorğun qırışlarını uzun müddət nəzərdən keçirərək, onların sirli mənasına varır, bu görüntünü ruhuna hopdurur, öz sifətini həmçinin sönük və hərəkətsiz hiss edir, amma eyni zamanda al dodaqlı, odlu baxışlı iki cavan çöhrəni də izləyirdi. Özü də fərqinə varmadan indilik, eynilik, əbədilik onun iliyinə işləyirdi. Həmin dəqiqələrdə o, istənilən həyatın əbədiliyini, hər anın sonsuzluğunu bütün vücudu ilə duyurdu.

Telegram: @cinciva

Siddhartha, nəhayət, yerindən tərpənəndə Vasudevanın düyüsü çoxdan hazır idi, amma o, yeməyə toxunmadı. Qocalar yeganə keçilərini saxladıqları damda quru otdan yer hazırladılar. Vasudeva yatağına uzandı, Siddharthasa çölə çıxıb komanın kandarında oturdu və bütün gecəni çaya baxaraq, keçmişin dalğalarında yuyunan tənha ada tək eyni zamanda bütün vücudu ilə həyatının hər ilini, saatını vərəqlədi. Yalnız bir neçə dəfə yerindən durub komaya yaxınlaşdı və uşağın oyanıb-oyanmamasını yoxladı.

Vasudeva hələ dan yeri sökülməmiş, səhər tezdən damdan çıxdı.

- Yatmamışdın, - o, dostuna yaxınlaşaraq söylədi.

- Yatmamışdım. Çaya qulaq asırdım. Həmişəki kimi, ondan çox şey öyrəndim. O, vəhdətlə bağlı fikirlərini bölüşdü.

- Siddhartha, sənə bədbəxtlik üz verib, amma ürəyində kədər yoxdur.

- Düz buyurursan, əzizim. Amma niyə kədərlənim ki? Xoşbəxtliyim ikiqat artıb: tale mənə oğul hədiyyə eləyib.

- Sənin oğlun mənim oğlumdur. Amma indi işimiz çoxdur. Kəmalə vaxtilə arvadımın öldüyü yataqda canını tapşırıb, qoy dəfn tonqalı da eyni təpədə yansın.

Uğaq yuxuda ikən, qocalar dəfn tonqalını hazırladılar.

Telegram: @cinciva

OĞUL

Uşaq göz yaşları və qorxu içində anasının dəfnini izləyir, Siddharthanın onu mehribancasına oğul adlandırmasını və bundan sonra Vasudevanın komasında birgə yaşayacaqları xəbərini qaşqabaqla qarşılayırdı. O, günlərlə anasının yandırıldığı təpənin üstündə oturur, yeməkdən imtina edir, özünə qapılır və heç cür taleyilə barışmaq istəmirdi.

Siddharthanın oğluna yazığı gəlir, onun azadlığını məhdudlaşdırmır və anlayırdı ki, hələ uzun müddət ata kimi qəbul olunmayacaq. Tədricən o, on bir yaşlı ərköyün, ana uşağının dadlı yeməklərə, yumşaq yatağa, hər arzusunu anındaca yerinə yetirən nökərlərə öyrəşdiyinə əmin oldu. Siddhartha anası ilə bərabər hər şeyini itirmiş bu şıltaq oğlanın özgə yer və yoxsulluqla asanca barışmayacağını da anlayırdı. Amma zaman keçdikcə qayğı və səbirlə uşağın ürəyini ələ ala biləcəyinə ümid edirdi.

Telegram: @cinciva

Oğlu həyatına girdiyi gün özünü varlı və xoşbəxt adlandırmışdı. Lakin aradan müəyyən vaxt keçsə də, uşaq ilk günlərdəki kimi ondan qaçır və atasını qürurlu, tərs ürəyinə yaxın buraxmırdı. Heç bir işə əl atmadığı bəs deyilmiş kimi, qocaları ələ salır, Vasudevanın meyvə ağaclarını sındırır, hər fürsətdə onlara pislik edirdi. Siddhartha tezliklə oğlu ilə bərabər xoşbəxtlik əvəzinə ağrı dolu həyəcan qazandığını başa düşdü. Bununla belə, yenə də oğlunu sevir və ondan gördüyü əzab-əziyyətin onsuz xoşbəxtlikdən qat-qat üstün olduğunu düşünürdü.

Balaca Siddhartha onlarla birgə yaşamağa başlayandan sonra qocalar öhdəliklərinə düşən işi öz aralarında bölmüşdülər. Vasudeva yenidən əvvəlki kimi qayıq sürür, Siddhartha isə oğlu ilə daha çox vaxt keçirmək üçün təsərrüfat işlərilə məşğul olur və tarlada çalışırdı.

Siddhatha aylarla səbrini basıb, oğlunun, nəhayət, onu ata kimi qəbul edəcəyini və sevəcəyini gözləyirdi. Vasudeva da gözləyir, müşahidə edir və susurdu. Bir gün balaca Siddharta növbəti dəfə tərslik edib atasının acığına gil qabları sındıranda Vasudeva dostunu kənara çəkib söylədi:

- Dostum, məni bağışla! Amma bunları xeyrin üçün demək məcburiyyətindəyəm. Sənin necə iztirab çəkdiyini görürəm. Oğlunun narahatçılığı sənə dinclik vermir. Bu balaca şahin tamamilə başqa həyata

Telegram: @cinciva

öyrəşib. Onu bura səndən fərqli olaraq, nə darıxma, nə də şəhər həyatına nifrət hissi gətirib. Balaca Siddhartha var-dövlətindən iradəsi ziddinə əl çəkib. Çaydan bu haqda çox soruşdum, ondan məsləhət istədim. Amma çay cavab vermək əvəzinə gülür, sənin də, mənim də axmaqlığıma heyran qalır. Su suya, cavanlıq cavanlığa qovuşmağa tələsir, iki dilənçi qoca ilə birgə həyat oğlunun xeyrinə olmayacaq. Əminlik üçün sən də çaydan soruş, məsləhət al.

Siddhartha kədərlə dostunun qırış basmış gülərüz çöhrəsinə baxdı.

- Oğlumdan ayrıla bilmərəm, - sıxıntı içində söylədi. - Bir az da döz! Sən də şahidsən, sevgi və qayğı ilə onun ürəyinə yol tapmağa çalışıram. O da nə vaxtsa çayın səsinə qulaq kəsiləcək, çünki onu da allahlar çağırıb.

Vasudeva yenidən gülümsündü:

- Əlbbətə, oğlunu da əbədi həyat gözləyir. Amma tale yolunda onu izləyən sınaqlardan necə xəbərdar ola bilərik? Bu cür qürurlu, qəddar ürək sahibinəsə fələk çoxlu iztirab və çaşqınlıqlar göndərir, günahlarının bədəli ağır olur. Əzizim, oğlunu heç iradı ziddinə getməyə məcbur edirsənmi? Onu döyüb cəzalandırırsanmı?

- Yox, Vasudeva, dediklərinin heç birini etmirəm.

- Elə də bilirdim. Onu heç nəyə məcbur etmir, döymür, cəzalandırmırsan, çünki yumşağın bərk-

Telegram: @cinciva

dən, suyun qayadan, sevginin zorakılıqdan güclü olduğunu bilirsən. Siddhartha, həqiqətən, tərifə layiqsən. Amma onu cəzalandırmadığını düşünməkdə yanılmırsanmı? Onu öz sevginlə zəncirlədiyinin fərqində deyilsənmi? Oğluna qarşı mehribanlığın və sonsuz səbrin onun həyatını bir az da ağırlaşdırmırmı? Məyər ərköyün və varlı yaşamağa öyrəşmiş bir uşağın gündə iki banan, hərdən düyü ilə kifayətlənən iki qoca ilə yaşaması məcburiyyət və cəza deyilmi?

Siddhartha gözlərini döydü.

- Bəs mən nə edim? - sakit səslə soruşdu.

Vasudeva cavab verdi:

- Oğlunu şəhərə, doğulduğu evə apar və əmr etməyə öyrəşdiyi nökərlərə tapşır. Əgər orda heç kəsi tapmasan, ona müəllim tut. Qoy yaşıdlarının arasında olsun. Heç bu haqda fikirləşmisənmi?

- Ürəyimi oxuyursan, - Siddhartha köks ötürdü. - Bu haqda çox fikirləşmişəm. Amma canı canımdan, qanı qanımdan olan oğlumu təkəbbürlü ruhunun bir az da böyüyəcəyi mühitə necə buraxım? Axı hakimiyyət hərisliyi və sonsuz istəkləri onun axırına çıxacaq. Atasının səhvlərini təkrarlayacaq, bəlkə daha pis irəliləyəcək, sansaranın burulğanında tamamilə itib-batacaq.

Vasudeva halını pozmadan, üzündə daha parlaq təbəssüm Siddharthanın əlindən tutdu:

Telegram: @cinciva

- Dostum, səni boğan suallarına cavabı çayda axtar! Onun sənə necə güldüyünə özün şahid ol. Məyər sən oğlunu seçdiyi yoldan döndərə bilərsən? Məyər sən onu sansaradan qoruya bilərsən? Nəyə güvənirsən? Nəsihətlərinə, dualarına, olmaya xəbərdarlıqlarına? Əzizim, deyəsən, məhz bu yerdə hekayəsini anlatdığın cavan brahman Siddharthanın başına gələnləri unutmusan. Kim saman Siddharthanı günahlarından, tamahkarlığından, etdiyi dəliliklərdən qoruya bildi? Atasının möminliyi, müəllimlərinin nəsihətləri, öz bilgiləri, axtarışları onu dayandıra bildimi? Valideynləri, müəllimləri Siddharthaya öz həyatını yaşamasına, günah işlətməsinə, uçuruma yuvarlanmasına sədd çəkə bildilərmi? Bəlkə kiminsə taleyin cızdığı yoldan kənara çıxa bilmək iqtidarında olduğunu düşünürsən? Öz oğlunu ağrı və peşmançılıqdan qoruya biləcəyinimi zənn edirsən? Uğrunda yüz dəfə ölüb-dirilsən belə, onu taleyindən döndərə bilməzsən!

Hələ heç vaxt Vasudevanın nitqi bu cür uzun çəkməmişdi. Siddhartha ona təşəkkür edib məyus halda komaya qayıtdı və uzun müddət yuxuya gedə bilmədi. Vasudeva ona əslində bildiyi, aylarla üzərində baş sındırdığı şeyləri anlatmışdı. Amma bildiklərini həyata keçirmək mümkünsüzdü, çünki oğluna olan sevgisi, onu itirmək qorxusu qat-qat güclü idi. Ömründə hələ heç kəs ürəyinə bu cür ha-

Telegram: @cinciva

kim kəsilməmiş, hələ heç kəsi bu cür kor-koranə, ağrılı və eyni zamanda xoşbəxtcəsinə sevməmişdi!

Siddhartha dostunun məsləhətinə əməl edə bilməzdi, çünki oğlu ilə ayrılmaq iqtidarında deyildi. O, balaca Siddharthanın hər bir arzusunu dinməz-söyləməz yerinə yetirir və hər gün yenidən mehribanlıqla yaraqlanıb səbirlə qalxanlanaraq mübarizəsinə davam edirdi. Vasudeva da susur və gözləyirdi. Səbirli olmaqda hər ikisi usta idi.

Bir dəfə oğlu Siddharthaya daha güclü şəkildə Kəmaləni xatırladanda gözlənilmədən müdrik qadının illər öncə onun haqqında dediyi sözləri də yadına saldı: "Sən sevməyi bacarmırsan". Həmin vaxt o, sevgilisi ilə razılaşmış, özünü ulduza, uşaqlara oxşayan adamları isə yerə düşən yarpağa bənzətmişdi. Həm də Kəmalənin sözlərində məzəmmət hiss etmişdi. Siddhartha, həqiqətən də, heç vaxt özünü bütövlüklə başqasının ixtiyarına verə bilməmiş, qarşısındakına olan sevgisindən irəli gələrək ağılsızlıq etməmiş, elə bu səbəbdən də uşaqlara oxşayan adamlarla özü arasında dərin uçurumu həmişə hiss etmişdi. Yalnız indi, oğluna münasibətdə onlardan biri olmuş, ömründə ilk kəs başqası üzündən iztirab çəkmiş, ağlını itirmişdi. Nə qədər də gec! Ən möhtəşəm və izaholunmaz ehtirası ömrünün qürubunda baş qaldırmış və ağrı çəkməsinə baxmayaraq qanadlanmış, özünü bəxtəvər hiss etmişdi.

Telegram: @cinciva

Siddhartha oğluna olan sevgisinin sansara adlanan insani ehtiras, bulanıq su olduğunu bilirdi. Amma bununla yanaşı, cismindən əmələ gələn bu varlığın qiymətini də, lazımlığını da hiss edirdi. Deməli, ruhunun bu şəhvətini də təmizləməli, bu ağrıdan da keçməli, bu dəliliyə də əl atmalıydı.

Oğlusa öz növbəsində atasının əzizləmələrinə, onun hər arzusunu yerinə yetirməklə alçalmasına etinasız yanaşır, ürəyindəki büz heç cür ərimirdi. Axı bu ata onu heyrətləndirəcək və onu qorxudacaq heç nəyə malik deyildi. Nə olsun ki, o, mehriban, gülərüz, zərif və bəlkə də müqəddəs idi. Bu ata onu darıxdırıcı, kasıb komasına məhkum etmişdi. Qocanın ən zəhlətökən hiyləgərliyisə oğlunun hər şıltaqlığını təbəssümlə, hər qəddarlığını şəfqətlə, hər təhqirini xoş baxışla qarşılaması idi. Bəlkə də atasının hədə-qorxusu, ciddi cəzaları onun daha çox xoşuna gələrdi.

Və bir gün cavan Siddharthanın qəzəb kasası daşdı. Atası ona quru çör-çöp yığmağı tapşırdı. Oğlan həmişəki kimi tərsliyinə salıb yerindən tərpənmədi. Əvəzində ayaqlarını yerə döyərək böyük Siddharthaya dişinin dibindən çıxanı dedi:

- Get özünə nökər tap! Bilirəm, məni döyməyə cəsarətin çatmır. Hər şıltaqlığımı möminliyin və mərhəmətinlə cəzalandırır və alçaldırsan. Məni də özün kimi mötədil, yumşaq, müdrik görmək istəyirsən! Amma sənin acığına meşə qulduru və qatil olmağa

Telegram: @cinciva

üstünlük verirəm! Sənə oxşamaqdansa cəhənnəmdəki iblislərə tay olum! Sənə nifrət edirəm, min dəfə anamın məşuqu olsan da, mənim atam deyilsən!

Onun qeyzli sözləri Siddharthanın ürəyini dəldi. Sonra oğlan gözdən itərək evə bir də gecə qayıtdı.

Səhərisi gün o, atasını birdəfəlik tərk etdi. Balaca Siddhartha qocaların qayıqdan qazandıqları mis və gümüş pulları saxladıqları səbəti də özü ilə götürmüşdü. Bu azmış kimi, qayıq da yoxa çıxmışdı. Siddhartha qayığı çayın o biri sahilində sezdi. Oğlu ondan qaçmışdı.

- Onun ardınca getməliyəm, - qüssədən büzüşmüş Siddhartha dilləndi. - Uşağın meşəni təkbaşına dolaşması düzgün deyil. O, həlak ola bilər. Vasudeva, çayı keçmək üçün bərə düzəltməliyik.

- Biz qayığı qaytarmaq üçün bərə düzəldəcəyik, - Vasudeva cavab verdi. - Amma oğlunun ardınca getməyinə dəyməz. O, artıq uşaq deyil və öz qayğısına qala bilər. Yəqin indi o, şəhərə gedən yolu axtarır və düz də edir. Oğlun öz yolunu seçib. Ah, Siddhartha, sənin necə əzab çəkdiyini görürəm. Amma inan mənə, bir azdan özün indi keçirdiyin iztirablara güləcəksən.

Siddhartha cavab vermirdi. O, baltanı əlinə götürərək artıq bambuk ağacını yonmağa başlamışdı. Vasudeva dostunun köməyinə gəldi: qocalar gövdələri bir-birinə möhkən bağlayaraq tarım çəkdilər.

Telegram: @cinciva

Nəhayət, bərəni düzəldib cayın o biri sahilinə üzdülər. Axın qocaları aşağı apardığından onlar bir müddət bərəni üzüyuxarı çəkmək məcburiyyətində qaldılar.

- Niyə özünlə balta götürdün? - Siddhartha soruşdu.

- Böyük ehtimalla qayığımızın avarlarından biri itib, - Vasudeva cavab verdi.

Amma Siddhartha əslində dostunun ağlından nələr keçirdiyini bilirdi. Yəqin oğlunun təqib olunmaması, ya da acığından avarı sındırdığını fikirləşirdi. Avarlar, həqiqətən də, yoxa çıxmışdı. Vasudeva dostuna qayığın dibini göstərib, üzündəki təbəssümqarışıq ifadə ilə sanki bunu söyləyirdi: "Oğlunun nə demək istədiyinin hələ də fərqində deyilsən? O, təqib olunmasını istəmir". Vasudeva avar düzəltməyə başladı. Siddhartha oğlunu axtarmaq üçün dostu ilə vidalaşdı. Vasudeva onu yolundan saxlamadı.

Siddhartha uzun müddət meşəni dolaşandan sonra axtarışlarının mənasız olduğunu anladı. Oğlan, yəqin ki, çoxdan şəhərə çatmışdı. Ya da atasının səsini eşidib daha möhkəm gizlənmişdi. Siddhartha düşüncələrə dalarkən oğluna görə narahat olmadığının fərqinə vardı. O, ürəyinin dərinliyində balaca Siddharthanın salamat olduğunu və heç bir təhlükəyə məruz qalmadığını hiss edirdi. Amma uşağı xilas etmək üçün yox, onu sonuncu dəfə görə bilmək ümi-

Telegram: @cinciva

dilə dincəlmədən yoluna davam edirdi. Beləcə, gəlib şəhərə çıxdı.

Geniş yola çıxan Siddhartha Kəmalə ilə ilk dəfə rastlaşdığı yerdə, ecazkar bağın girişində dayandı. Xatirələrə dalıb, özünü yenidən toz basmış saman kimi hiss etdi. Siddhartha uzun müddət bağın darvazaları qarşısında dayanıb, orda gəzişən sarı geyimli rahibləri seyr etdi.

Siddhartha düşüncələrə dalaraq, xəyali nəzərini geriyə yönəltdi. O, ağacların arasında rahiblərin əvəzinə öz cavanlığını, gözəl Kəmaləni gördü. Kurtizan qadının cavan samana bağışladığı ilk öpüş, insanların arasına qayıtdığı gün, Kamasvami, nökərlər, kef məclisləri, qumar oynayanlar, musiqiçilər, Kəmalənin qəfəsdəki quşu bütün aydınlığı ilə gözləri qarşısında canlandı. Sanki yenidən sansaranın havasını ciyərlərinə çəkərək, qocalıb əldən düşdüyünü, həyatdan doyduğunu, onunla vidalaşmaq ustədiyini, "Aum" söylədiyini hiss etdi.

Beləcə, onu bura gətirən istəyinin mənasızlığını, oğluna kömək etmək iqtidarında olmadığını, özünü zorla ona sevdirə bilməyəcəyini dərk edənəcən hasarın ağzında dayandı. Siddharta bu sevginin köksünü yaraladığını, eyni zamanda iztirabının uzun sürməyəcəyini və hətta tezliklə daha möhkəm sakitliklə əvəz olunacağını duyurdu.

Telegram: @cinciva

Amma həmin an hələ gəlmədiyindən onu kədər bürüdü. Oğluna qovuşmaq arzusu indi acı boşluqla əvəzlənmişdi. Qüssədən boğulan Siddhartha yerə çökdü, sanki içində nəsə ölmüşdü, qarşıda onu heç nə gözləmirdi. Siddhartha düşüncələrə dalaraq gözlərini yumdu. Bunu çaydan öyrənmişdi: gözləmək, səbr etmək və dinləmək. Və toz içində oturub səbrlə ürəyinin səsinin nə deyəcəyini gözlədi. Siddhartha vücudunu bürümüş boşluğa qatlanaraq uzun müddət eyni vəziyyətdə qaldı. Yarasının yeri möhkəm ağrıyanda isə ürəyində "Aum" sözünü təkrarladı. Bir neçə saat yerindən tərpənməyən qocanı görən rahiblərdən biri qarşısına iki banan qoydu. Siddhartha tərpənmədi.

Bir müddət sonra kimsə əllərilə çiyninə toxunaraq, onu donuq vəziyyətdən çıxartdı. Siddhartha bu yumşaq toxunuşu tanıdı və özünə gəldi. O, ayağa qalxıb Vasudevanı salamladı. Və qoca qayıqçının qırış dolu təbəssümünü görüb özü də gülümsündü. Qarşısındakı bananları yalnız indi sezən Siddhartha birini dostuna verib, o birini özü yedi. Sonra sakitcə, sanki heç nə olmayıbmış kimi, geriyə, komaya döndülər. Qocalardan heç biri mövzuya toxunub, evdən qaçan balaca Siddhartha haqda danışmadı. Siddhartha yatağına uzandı, Vasudeva əlində kokos südü ona yaxınlaşanda dostu artıq yatmışdı.

Telegram: @cinciva

AUM

Siddhartnın yarası uzun müddət qaysaqlanmadı. O, hər dəfə övladları ilə birgə çayı keçən valideyn görəndə qibtə hissilə düşüncələrə dalırdı: "Niyə mən bu səadətdən məhrum olmalıydım? Pis adamlar da, hətta quldurlar da oğul-uşaq sahibidir, onların sevgilərindən bəhrələnir, bircə məndən başqa!" İndi Siddhartha sadəlövh düşüncələrində necə də uşağa bənzər insanları xatırladırdı.

O, qürurunu bir kənara atıb adamlara artıq başqa cür nəzər salır, onlara istilikqarışıq qəribə bir maraq duyurdu. Çaydan keçirdiyi yolçular - fərqi yoxdur, istər qadın, istər döyüşçü, istərsə də tacir olsun, Siddharthaya əvvəlkitək özgə görünmür, əksinə, onların düşüncə və dərketməyə əsaslanmamış, yalnız arzu və instinktlərdən ibarət həyatları aydın və yaxın gəlir, ən nəhayət, qoca qayıqçı özünü bu kəslərə bənzətməyə başlayırdı. Və o, artıq yolun sonuna yaxınlaşıb axırıncı yarasının ağrısını çəksə də, uşaqlara bənzər insanları özünə

Telegram: @cinciva

qardaş sayır, sonuncuların şöhrətpərəstliyi, tamahkarlığı, cəfəngiyyatı gülməli görünmür, əksinə, sevgi və ehtiram doğururdu. Ananın uşağına korkoranə sevgisi, atanın yeganə oğluna münasibətdə əsassız qüruru, cavan, nazlı qadının bər-bəzəyə və kişi baxışlarına olan vəhşi həvəsi, - bütün bu sadə və axmaq, amma bənzərsiz güclü və həyati instinktlər artıq Siddhartha üçün uşaq əyləncəsi anlamı daşımırdı. Çünki adamların bütün bunların xatirinə yaşadığını, uğrunda istənilən maneəni keçməyə hazır olduqlarını, qurbanlar verdiyini, müharibələr törətdiyini görürdü. Və buna görə bəşəriyyəti sevməyinə dəyərdi. Çünki insanların hər bir hərəkətində, hər bir ehtirasında həyat, Əbədi Yaşam, Məhvolunmaz, Brahman vardı. Öz laldinməz sədaqəti, güclü həyatsevərliyilə sevgiyə, heyrətə layiq olan bu varlıqlar hər şeyə malikdilər və müdrik insan yalnız bircə şeylə - mövcud olanların vəhdəti və əlaqəsini dərk etməsilə fərqlənə, qürur duya bilərdi. Amma həmin məqamda da Siddharthanı şübhələr boğurdu: bu bilgi göründüyü kimi böyük bir əhəmiyyət kəsb edirmi, o da öz növbəsində uşaqlarabənzər düşüncəli insanların əyləncəsi deyilmi? Axı bütün başqa məqamlarda sansaranın uşaqları düşüncə sahiblərilə eyni pillədə və hətta bəlkə də yuxarıda dururdu. Cəngəllik qanunları ilə yaşayan, həyat uğrunda mübarizə

Telegram: @cinciva

aparan vəhşi heyvanlar bəzən insanlardan daha güclü görünürlər.

Uzun müddətli axtarışlarının nəticəsi, əslində müdrikliyin nə olmasının dərki gec bar verən məhsul tək tədricən çiçəkləyirdi. Siddharthanın ruhu vəhdət anlamını hər an özünə hopduracaq vəziyyətdə idi. Dünyanın əbədi mükəmməlliyi, harmoniyası, həqiqəti aramla ona tərəf irəliləyirdi.

Amma yarası hələ də sızıldayırdı, həsrətlə oğlunu xatırlayan, ürəyi qan ağlayan Siddhartha bir-birinin ardınca axmaqlıqlar edirdi. Ruhunu ağuşuna almış od isə öz-özünə sönmədi.

Bir dəfə həsrətə tab gətirməyib, yenə çayı keçdi və oğlunu axtarmaq üçün şəhərə yollanmaq istədi. Çay həmin gün mülayim və yumşaq idi, yağış mövsümü arxada qalsa da, suyun qəribə səsi vardı: o gülürdü! Siddharta gülüş səsini aydın eşidirdi. Çay şaqraq gülüşünü qoca qayıqçıya yönəltmişdi. Ayaq saxlayıb sakit axan suya əyildi və baxışlarını aşağı dikdi. Əksi Siddharthaya çoxdan yaddaşından sildiyi, keçmişdə qoyduğu, nə vaxtsa sevdiyi, hörmət etdiyi, azacıq çəkindiyi bir adamı xatırlatdı. Bu onun atası idi. Və o, nə vaxtsa özünün də atasını tərk edib samanların yanına getdiyini, bir daha geri qayıtmadığını yadına saldı. Məyər həmin vaxt atası da eyni ağrıları çəkməmişdimi? Məyər atası da oğlunun həsrətini çəkərək ölməmişdimi? Məyər

Telegram: @cinciva

özünü də eyni sonluq gözləmirmi? Məyər bi qəribə və axmaq təkrar, dairəvi qaçış, bu qəddar dövran komediya deyilmi?

Çay gülürdü. Bəli, hər şey qayıdırdı, sonadək çəkilməmiş iztirab sansaranın alovundan çıxaraq yenidən alışır və insanlara göndərilirdi. Atasını, oğlunu, masqaraya qoyulmuş özünü düşünərək, ümidsizliyə qapılmaq həddinə çatan, eyni zamanda özünə və bütün dünyaya bərkdən gülmək istəyən Siddhartha qayığa minib, geriyə, komaya qayıtdı. Yarası hələ qaysaq bağlamasa da, ürəyi taleyinə qarşı çıxsa da, ağrısı əriyib qələbənin şəfəqlərində itib-batmasa da, artıq ümid qığılcımları parlamağa başlayırdı. Siddhartha tez evə çatıb, mükəmməl dinləyici olan dostu ilə dərdini bölüşmək istədi.

Vasudeva komada oturub səbət hörürdü. Gözləri avazıdığından, qolları taqətdən düşdüyündən artıq qayıq sürmür və günün çox hissəsini evdə keçirirdi. Yeganə dəyişməyən və əvvəlki təravətini saxlayaraq bir az da yumşalan mülayim təbəssümü idi.

Siddhartha qocanın qənşərində oturub içini tökməyə başladı, indiyədək sirr saxladığı şeylərdən söhbət açdı: şəhərə səfəri zamanı yaşadıqlarını, qaysaqlanmayan yarasını, xoşbəxt atalara olan qibtəsini və ürəyini dələn bu istəyin səfehliyini dərk edərək onu boğmaq cəhdini. O, başına gələnlər, içi-

Telegram: @cinciva

ni dağıdan şeylər haqda qəribə yüngüllüklə danışdı. Siddhartha utanmadan yarasını açıb göstərdi, bugünkü qaçışını, şəhərə yollanmaq üçün gizlicə çayı keçdiyini və çayın ona güldüyünü söylədi.

Vasudeva diqqətlə qulaq asırdı. Siddhartha dostunu heç vaxt bu qədər yaxından duymamışdı. O, ağrı və qorxusunun aramla qarşısındakına axdığını və əvəzində mərhəm ümidin qayıtdığını anlayırdı. Bu cür dinləyiciylə bölüşmək sızıldayan yaranı buz kimi suda soyuyanadək saxlamağa bərabərdi. Tövbə edən Siddhartha qarşısındakının Vasudeva, sıradan bir insan deyil, istənilən iztirabı özünə hopdurmaq iqtidarında olan çay, Allah, əbədiyyətin özü olduğunu kəskin şəkildə hiss edirdi. Yarasını və özünü unudan Siddhartha bütünlüklə bu həqiqətin sehrinə bürünmüş və Vasudevanın çoxdan, bəlkə də həmişə belə olduğunu, sadəcə bunu sezmədiyini və özünün də ondan fərqlənmədiyini dərk edirdi. O, qoca Vasudevaya insanlar allahları təsvir etdikləri kimi baxır, eyni zamanda bunun uzun sürməyəcəyini hiss edir, ürəyində dostu ilə vidalaşır, bununla belə, hekayəsini davam etdirirdi.

Siddhartha susanda Vasudeva bircə kəlmə kəsmədən sevgi, şəfqət dolu müdrik baxışlarını ona dikdi. O, Siddharthanın əlindən tutub sahilə gətirdi, kötüyün üstündə dostu ilə yanaşı əyləşərək çaya gülümsədi.

Telegram: @cinciva

- Sən onun qəhqəhəsini eşitdin, - Vasudeva dedi. - Amma sonuna varmadın. Qulaq as və daha çox şey öyrən.

Siddhartha diqqətini cəmlədi. Çayın çoxsəsli nəğməsi zərif səslə ətrafa yayılırdı. Nəzərini sudan çəkməyən Siddharthanın baxışları qarşısında sakit axan çayla bahəm bir-birinin ardınca müxtəlif görüntülər canlandı: oğul həsrətilə alışıb-yanan atası, eyni hissləri keçirən özü, gənc istəklərinin odlu cığırı ilə irəliləyən tənha oğlu. Onlardan hər biri öz məqsədinə tutunmuş, hər biri öş ağrısı ilə təkbaşına qalmışdı. Çay ehtiraslı iztirab nəğməsini oxuyur, məqsədinə can atan səsindən sanki yazıqlıq yağırdı.

"Eşidirsən?" - Vasudevanın baxışları bunu söyləyirdi.

Siddhartha başını tərpədirdi.

- Diqqətlə qulaq as! - Vasudeva pıçıldayırdı.

Siddhartha dostunun məsləhətinə əməl etməyə çalışırdı. Atasının, oğlunun və özünün əksi bir-birinə qarışmışdı; Kəmalə, Qovinda və digər görüntülər biri digərində əriyərək axına qoşulmuş, hamısı ağrı və iztirabla, səbirsizcəsinə eyni məqsədə doğru yönəlmişdi. Və bu çayın səsində həsrət, sıxıntı və yanğı vardı. O, məqsədinə doğru qaçırdı, Siddhartha yaxınlarından və özgələrdən ibarət bu çayın tələsdiyini görürdü. Bütün bu kiçik və böyük dalğalar irəliyə can atır, iztirab çəkir, hərəsi öz məqsədi-

Telegram: @cinciva

nə - gölə, şəlaləyə, uçuruma, dənizə çatmağa çalışırdı. Və hər istəyin ardından yenisi doğulur, məqsədinə çatmaqdan doymayan su buxarlanaraq havaya qalxır, yağışa çevrilərək yerə qayıdır, bulağa, şəlaləyə, çaya çevrilərək yenidən tələsirdi. Amma çayın ehtiraslı səsi sanki dəyişmişdi - əvvəlkitək qüssəli və həyəcanlı olsa da, ona yüzlərlə, minlərlə mehriban və qəddar, kədərli və şadyana səslər qarışmışdı.

Siddhartha qulaq asırdı. O, yer üzündə hər şeyi unudub içindəki boşluğa qapılaraq tamahkarlıqla hər kiçicik xışıltını belə özünə hopdururdu. Siddhartha bu sənətə ömürlük yiyələndiyini hiss edirdi. Dəfələrlə eşitdiyi bu yüzlərcə, minlərcə səs indi ayrı cür səslənirdi. O, eşitdiklərini bir-birindən ayıra bilmir, xoşbəxt və kədərli, böyük və uşaq sədaları arasındakı fərqə belə varmırdı. Həsrət yanğısı və müdrikliyin şadyanalığı, qəzəbin qışqırtısı və can verənin iniltisi bir-birinə qarışmışdı. Və bunların hamısı - arzu və istəklər, məqsəd və iztirablar həyatın nəğməsi idi. Bu səsdən savayı heç nəyi eşitməyən Siddhartha çayın çoxsəsli mahnısına qulaq kəsilərək ayrıca xırdalıqlara dalmır, - çünki onlardan hər biri Məni üçün cəzbedici burulğan rolunu oynamaq iqtidarındaydı, - diqqətini bütövə, vəhdətə yönəldir və onda bu nəğmə yalnız bir sözdən, müqəddəs "Aum"dan ibarət olurdu.

"Eşidirsən?" - Vasudeva yenidən səssizcə dilləndi.

Telegram: @cinciva

Qoca qayıqçı gülümsəyirdi: müqəddəs "Aum" çayın çoxsəsli mahnısı üzərində qövr eləyən tək Vasudevanın təbəssümü çoxsaylı qırışları arasından şəfəq saçırdı. Dostuna baxan Siddharthanın da çöhrəsi eyni ifadə almışdı. Onun yarası, nəhayət, çiçək açdı! Onun Məni vəhdətdə əridi!

Siddharthanın taleyinə qarşı apardığı müharibə sona çatdı. Onun üzünü mükəmməlliyə toxunan, həyat nəğməsilə həmahəng olan, istənilən istəklə bölüşə biləcək şəfqətlə dolan, axına tabe olan, vəhdətdə əriyən müdrik bir təbəssüm bürümüşdü.

Dostunun bu halını görən Vasudeva ayağa qalxaraq əlini onun çiyninə qoydu və həmişəki sakit səslə dilləndi:

- Bu məqamı çoxdan gözləyirdim. Nəhayət, gəlib çatdı. Səni tərk edirəm. Uzun müddət qayıqçı Vasudeva oldum. Artıq mənim də zamanım çatdı. Əlvida, koma, əlvida, çay, əlvida, Siddhartha!

Siddhartha dostuna dərin ehtiramla baş əydi.

- Bunu bilirdim, - o, sakitcə dedi. - Meşəyə gedirsən?

- Meşəyə, vəhdətə gedirəm, - Vasudeva cavab verdi.

O, ağacların arasında gözdən itdi. Siddhartha nəzərləriylə dostunu izlədi. O, sevinc dolu dərin düşüncələr içində gedəni yola salır, qoca qayıqçının hər addımında hüzn hiss edir, sanki işıqdan hörülmüş bir bədən görürdü.

Telegram: @cinciva

QOVİNDA

Qovinda uzun yolçuluqdan sonra digər rahiblərlə birgə Kəmalənin Hautamaya bağışladığı Cetavana bağında dincəlirdi. Elə orada rahiblərin dilindən şəhərdən uzaqda, meşə çayının kənarında çoxlarının müdrik kimi qəbul elədiyi bir qoca qayıqçının yaşaması haqda eşitmişdi. Yenidən səyahətə çıxmaq vaxtı çatanda Qovinda, haqqında çox danışılan qoca ilə şəxsən tanış olmaq üçün yolunu çay kənarından saldı. Axı artıq həyatının ciddi şəkildə nizamnaməyə uyğun düzənlənməsinə, cavan rahiblərin ona yaşından və sakitliyindən irəli gələrək hörmətlə yanaşmasına baxmayaraq, içindəki narahatlıq alovu hələ də səngiməmiş və axtarışları sona yetməmişdi.

Keçidə çatan Qovinda qocadan onu qayığa mindirməsini xahiş etdi və ayağı sahilə dəyəndə dilləndi:

- Biz rahiblərə və başqa səyyahlara çox yaxşılıq eləmisən. Qayıqçı, söylə, məgər sən də həqiqət axtarışında deyilsənmi?

Telegram: @cinciva

Siddhartha gözlərini qıyaraq gülümsündü:

- Möhtərəm rahib, uzun ömür sürsən də, üzərində Hautamanın ardıcıllarının geyimini daşısan da, hələ də axtarışdasan?

- Düz buyurursan, artıq qocalmışam, - Qovinda cavab verdi, - amma axtarışlarım davam edir. Və yəqin ki, onların sonu olmayacaq. Bu da mənim taleyimdir. Amma sənin də nə vaxtsa axtarışda olduğunu hiss edirəm. Bu haqda bir-iki kəlmə söylərsənmi?

Siddhartha dilləndi:

- Heç bilmirəm nə deyim. Bəlkə həddən artıq səy göstərdiyindən artıq nə axtardığını belə bilmirsən.

- Bu necə ola bilər ki?

- İnsan axtaran zaman, - Siddhartha davam etdi, - elə ola bilər ki, məqsədində ilişib qalsın və elə bu səbəbdən axtardığını tapmasın, burnunun ucunda olan həqiqəti belə ruhuna yaxın buraxmasın. Axtarmaq - məqsədi olmaq deməkdir. Tapmaqsa istənilən məqsəddən qurtuluşdur. Sən axtarışda olana oxşayırsan, çünki məqsədinə çatmaq uğrunda lap yaxınında olanı belə görmürsən.

- Nə dediyini hələ də başa düşmürəm! - Qovinda gözlərini döydü. - Sözlərinin tam mənasını açıqla.

Siddhartha gülümsündü:

- Bir dəfə, uzun illər öncə bu çaydan keçərkən sahildə yatmış bir adam gördün və onu vəhşi hey-

Telegram: @cinciva

vanlardan qorumaq üçün keşiyini çəkdin. Qovinda, amma onu tanıya bilmədin.

Rahib sanki möcüzə ilə rastlaşıbmış kimi qayıqçının gözlərinə baxdı.

- Sən Siddharthasan? - nəhayət, qətiyyətsiz səslə soruşdu. - Heç indi də səni tanıya bilməyəcəkdim! Siddhartha, yollarımızın yenidən kəsişdiyinə necə də şadam! Dostum, çox dəyişmisən. Deməli, indi də qayıqçısan.

Siddhartha qəhqəhə çəkdi:

- Hə, Qovinda, indi qayıqçıyam. Bəzi adamlar ömürləri boyu bir neçə sənətin yiyəsi olur və geyimlərini də ona uyğun dəyişirlər. Mən də belələrindənəm. Qovinda, qonağım ol və gecəni burda qal.

Qovinda komada gecələdi və nə vaxtsa Vasudevaya xidmət etmiş yatağa uzandı. O, gecə boyu gənclik dostuna çoxlu suallar verdi və Siddhartha həyatından çox şeylər danışdı.

Səhərisi gün vidalaşmaq zamanı gəldikdə Qovinda ayaq saxlayıb Siddharthadan soruşdu:

- Sağollaşmazdan və yoluma davam etməzdən əvvəl sənə bir sualım var. Sənin hansısa nəzəriyyən varmı? Ya inandığın və əməl etdiyin hansısa həqiqətin?

Siddhartha cavab verdi:

- Əzizim, yadındadırsa, hələ cavan yaşlarımda meşədə, samanların arasında yaşayarkən müəllim

Telegram: @cinciva

və nəzəriyyələrə etibarımı itirdim. Bu fikrimdən dönməmişəm, amma həmin gündən bəri həyatımda çoxlu müəllimim olub. Gözəl kùrtizan qadın da, varlı tacir də, qumar yoldaşlarım da mənə müəllimlik edib. Bir dəfə Hautamanın icmasından səyahət edən bir rahib də başımın üstündə keşik çəkərkən mənə nələrisə aydınlaşdırıb. Ondan da bəzi şeylər öyrənmişəm və buna görə dərin minnətdarlıq hissi keçirirəm. Amma hamıdan çox, bax, bu çaydan, bir də sələfim, qayıqçı Vasudevadan öyrənmişəm. O, mütəfəkkir deyil, adi bir qayıqçı idi, amma lazım olanları Hautamadan az bilmirdi. O, mükəmməldi, müqəddəsdi.

Qovinda söylədi:

- Siddhartha, cavanlığındakı kimi zarafatından geri qalmırsan. Sənin indiyəcən heç bir müəllimin ardınca getmədiyinə inanıram. Amma məgər özün yaşamına kömək edən, qanına işləyən nəzəriyyə olmasa da, hansısa bir həqiqət tapmamısanmı? Bunları açıqlasaydın, məni xoşbəxt edərdin.

Siddhartha dedi:

- Düzdür, bəzi məqamlarda bu cür həqiqətlər tapırdım. Hərdən gün boyu, bəlkə də bir saat köksümdə döyünən ürək kimi bir şeylər hiss edirdim. Bu cür fikirlərim çox olub, amma onları sənə açıqlamaq olduqca çətindir. Qovinda, müdrikliyin başqasına ötürülməsinin qeyri-mümkün olması gəldi-

Telegram: @cinciva

yim nəticələrdən biridir. Müdrik adamın başqasına çatdırması məqsədilə söylədiyi ağıllı söz həmişə axmaq bir nəticəyə çevrilir.

- Məni ələ salırsan? - Qovinda təəccübləndi.

- Zərrə qədər də yox. Mən gəldiyim nəticələrdən danışıram. Biliyi ötürmək olar, müdrikliyisə heç vaxt. Onu tapmaq olar, onunla yaşamaq olar, onu öz yelkəninə çevirə bilərsən, onunla möcüzələr yaradarsan, amma onu sözə çevirmək, kiməsə öyrətmək qeyri-mümkündür. Bu məni hələ cavan yaşlarımda müəllimlərdən uzaq salan həqiqətdir. Qovinda, indi söyləyəcəyimi də yəqin zarafat kimi qəbul edəcəksən: istənilən həqiqətin tərsi də həqiqətdir! Belə ki, yalnız birtərəfli həqiqəti sözlə ifadə etmək mümkündür. Sözlə ifadə oluna biləcək hər bir fikirsə vəhdətdən, birlikdən məhrumdur. Müqəddəs Hautama nəzəriyyəsilə bölüşərkən, dünyadan danışarkən onu iki yerə, sansara və nirvanaya, yanılma və həqiqətə, iztirab və azadolmaya bölmək məcburiyyətində qalmışdı. Başqalarını öyrətmənin digər yolu qeyri-mümkündür. Qovinda, ətrafımızda olan hər şeyin iki üzü var. Heç vaxt insan və onun elədikləri yalnız sansaraya və ya nirvanaya məxsus olmur. Heç vaxt insan təkcə müqəddəs və ya günahkar olmur. Bu yalnız bizə elə gəlir, yanılaraq fikirləşirik ki, zaman gerçəklikdir. Qovinda, belə deyil və mən dəfələrlə buna əmin olmuşam. Və

Telegram: @cinciva

əgər zaman gerçəklik deyilsə, faniliyi əbədilikdən, ağrını həzzdən, yaxşılığı pislikdən ayıran sərhəd də mövcud deyil, bu da yanlışdır.

- Axı bu necə ola bilər? - Qovinda qorxu içində soruşdu.

- Qovinda, diqqətlə qulaq as. Mən və ya sən, fərqi yoxdur, kimsə nə vaxtsa günahkar olduğu halda bir dəfə özündə Brahmanı hiss edə, nirvanaya çatıb, Buddaya çevrilə bilər. Qovinda, bax bu "bir dəfə" yanlışdır, yalandır! Günahkar "mükəmməlliyə gedən", "inkişafda olan" anlamını vermir, halbuki düşüncələrimiz olanları başqa cür təsvir etməyə qadir deyil. Xeyr, hər bir günahkarda artıq bu gün, indi, sabahkı Budda, gələcək həyatı mövcuddur, sən onda - məndə va ya elə özündə - mərhəm, inkişafda olan, gələcək Buddaya hörmət etməlisən. Qovinda, dünya mükəmməlliyə çatmaq üçün uzun yol gedilməsi qeyri-mükəmməl bir şey deyil. Əksinə, o, əbədi mükəmməl olub, olacaq da. Hər bir günah özündə əfv, hər uşaq qoca, hər körpə ölüm, hər can verənsə əbədi həyat daşıyır. Heç kəs yoldaşının yolun hansı hissəsində olduğunu görə bilməz, istənilən qumarbazda, istənilən quldurda Budda, brahmandasa quldur yaşayır. Yalnız dərin meditasiya anlarında zamana qalib gəlmək, eyni məqamda keçmiş, indiki və gələcək həyatları görmək mümkündür və məhz onda hər şey mükəmməldir, hər şey Brahmandır.

Telegram: @cinciva

Elə buna görə də hər şey mənə gözəl gəlir, ölümdə həyatı, günahda müqəddəsliyi, dəlilikdə ağlı görə bilirəm, bu elə belə də olmalıdır, hər şeyin yalnız mənim xeyir-duama, hazırlığıma, sevgi dolu razılığıma ehtiyacı var və bu zaman o, mənə ziyan verə bilməz, əksinə, faydası olar. Bütün həyatımla, vücudumla, ruhumla günahın zəruri olduğuna əminəm. Nəhayət, içimdəki qarşıdurmanı sındırmaq, dünyanı sevə bilmək, onu xəyallarımda canlandırdığım aləmlə, mükəmməlliklə müqayisə etməmək, əvəzində onu olduğu kimi sevmək, ona mövcudluğuma görə sevinmək üçün günaha batmalı, var-dövlət toplamalı, tamahkara çevrilməli və sonsuz ümidsizliyə qapılmalıydım. Qovinda, tapdığım həqiqətlər bunlardır.

Siddhartha əyilib yerdən daş götürdü.

- Bü daşı görürsən? - o, daşı ovcunun içində fırladaraq dedi. - Nə vaxtsa o, torpağa çevriləcək, sonra bitkiyə, ya da hansısa heyvana, ola bilsin, insana. Əvvəllər deyərdim: "Bu, olsa-olsa daşdır və heç bir qiyməti yoxdur, Mayya dünyasına aiddir, yalnız çevrilmələrindən birində dönüb insan olanda ona hörmət edəcəm". Əvvəllər belə fikirləşərdim. Amma bu gün tam əksini düşünürəm: bu, həm daş, həm heyvan, həm Allah, həm də Buddadır və onu nə vaxtsa hansısa birinə çevriləcəyinə görə sevmirəm, o, artıq var və əbədidir. Bəli, o, daşdır və mən onu daş olduğuna görə sevirəm, onun hər bir çatı-

Telegram: @cinciva

na, rəng çalarına, bərkliyinə, əl vurarkən çıxan səsinə hörmət edirəm. Yağ kimi hamar, sabun kimi sürüşkən daşlar da var, digərləri yarpağı, üçüncülər qumu xatırladır və onlardan hər biri özünə uyğun şəkildə "Aum" söyləyir, hər biri brahman və eyni zamanda hamar, sürüşkən və ya kələ-kötür daşdır. Məhz, buna görə onlar heyrətə və hörmətə layiqdir... Bu qədər yetər. Qaranlıq işıqdan qorxan tək mərhəm məna da sözdən qorxur. Nəyisə sözlə ifadə edən kimi əsas məğz sürüşüb aradan çıxır və dilimizdə axmaq bir şeyə çevrilir. Amma bu da mənim ürəyimcədir, bununla da razıyam. Axır-əvvəl birinin dəyər verdiyi həqiqət digərinə səfeh bir şey kimi görünə bilər.

Qovinda sakitcə onun dediklərinə varmağa cəhd edirdi.

- Niyə daşdan misal gətirdin? - o, ehtiyatla sual verdi.

- Bunun heç bir xüsusi anlamı yoxdur. Bəlkə ona görə ki, bu daşı, çayı və ətrafımızda olan hər şeyi sevirəm və onlardan nəsə öyrənirəm. Mən eyni sevgini daşa, ağaca və ya onun qabığına göstərə bilərəm. Sözlərisə sevə bilmirəm, məhz bu səbəbdən istənilən nəzəriyyədən qaçıram. Onlar yumşaq və ya bərk deyil, rəngə, iyə, dada malik olmur, quru sözdən başqa heç nələri yoxdur. Bəlkə elə sözlərin çoxluğu sənə rahatlıq vermir. Qovinda, qurtuluş,

Telegram: @cinciva

məziyyət, sansara və nirvana yalnız sözdür. "Nirvana" əşya deyil, sadəcə cözdür.

Qovinda etiraz etdi:

- Nirvana yalnız söz deyil, o, həm də fikirdir.

- Qoy sən deyən kimi olsun, - Siddhartha davam etdi. - Açığı, sözlər və fikirlər arasında elə bir fərq görmürəm. Fikrin bir dəyəri olduğuna da şübhə ilə yanaşıram. Mənim üçün qat-qat dəyərlisi cisimlərdir. Bax burda, bu komada ömründə yalnız bir şeyə, çaya etiqad edən sələfim və yeganə müəllimim, müqəddəs bir insan yaşayırdı. Bir dəfə ona səslənən çayın səsini eşitmiş və elə həmin gündən ondan öyrənməyə başlamışdı. Bu çay ona Allah kimi görünmüşdü. Uzun illər o, istənilən küləyin, buludun, quşun və ya xırdaca həşəratın eyni şeyə qabil olduğuna varmamışdı. Amma bu müqəddəs insan meşəyə çəkiləndə səndən də, məndən də çox şey bilirdi və bütün bunlara kitabsız-müəllimsiz nail olmuşdu. Yalnız bircə səbəbdən çaya inandığından.

- Lakin sənin "cisim" adlandırdığın həqiqətdirmi? - Qovinda soruşdu. - Bəlkə bu, sadəcə görüntüdür, yalandır? Bəlkə bu, Mayyanın məkrindən doğulan illüziyadır? Sənin daşın, ağacın, çayın həqiqət dünyasına aiddirmi?

- Mənim bununla da işim yoxdur, - Siddhartha cavab verdi. - Əgər cismin kökündə görüntü dayanırsa, deməli, mən də görüntüyəm və biz bir-birimi-

Telegram: @cinciva

zin tayıyıq. Onlar məhz mənə oxşadıqlarına görə hörmətə layiqdirlər. Buna görə onları sevməyinə dəyər. Qovinda, bu da sənə ələ sala biləcəyin nəzəriyyə: Mənin üçün yer üzündə ən əsas şey sevgidir. Fikirlə dünyanı dəlib keçmək, onu izah etmək, ona nifrət etmək qoy mütəfəkkirlərin işi olsun. Mənə lazım olan yeganə şeysə dünyanı sevmək, ona, özümə və hər varlığa heyrətlə, minnətdarlıqla baxmaqdır.

- Bunu başa düşürəm, - Qovinda söylədi. - Amma müqəddəs Budda məhz onu yalan adlandırırdı. Hautama bizə mehribanlığı, acımanı, səbri nəsihət edirdi, lakin yerdəkilərə sevgiyə qadağa qoymuşdu.

- Bilirəm, - təbəssümü qızıldan bərk parlayan Siddhartha gülümsündü. - Qovinda, bunu bilirəm. Bax, biz mühakimələrin içində itib-batdıq, sözlə mübahisəyə girişdik. Sevgi haqda söylədiklərim Hautamanın dediklərinin zahirən tərsi ola bilər. Məhz buna görə sözlərə etibar etmirəm, çünki bu ziddiyyətin yalan olduğunu bilirəm. Hautama ilə vəhdət zəncirilə bağlı olduğumu da anlayıram. Sevginin ona yad olması qeyri-mümkündür. İnsan mövcudluğunun keçiciliyinə və heçliyinə varan və eyni zamanda həyatını onları öyrətməyə sərf edən bir müqəddəs necə sevməyə bilərdi?! Bu dahi müəllimin də sözlərinə yox, cisminə qiymət verirəm. Onun etdikləri, həyatı sözlərindən, qolunun hərəkəti yürütdüyü mühakimələrdən qat-qat əhəmiy-

Telegram: @cinciva

yətlidir. Buddanın möhtəşəmliyini nitqində, fikirlərində yox, həyatında görürəm.

Araya uzunmüddətli sükut çökdü. Nəhayət, Qovinda ayağa qalxıb təzim etdi və sağollaşarkən söylədi:

- Mənimlə bölüşdüyün üçün sənə minnətdaram. Fikirlərinin bəzisi mənə qəribə görünsə də, onların çoxu anlaşılmaz olsa da, sənə təşəkkür edirəm. Qoy həyatın həmişə rəvan olsun!

Eyni zamanda özlüyündə fikirləşdi: "Siddharthanın beynində qəribə fikirlər dolaşır, onun baxışları da qeyri-adidir. Müqəddəs Buddanın dedikləri qat-qat aydındır, onun sözlərində gülməli, qəribə, axmaq heç nə yoxdur. Amma Siddharthanın əlləri, gözləri, alnı, nəfəsi, təbəssümü, salamlaşması, yerişi fikirlərinin tam əksidir. Möhtərəm Budda əbədi nirvanaya dalandan sonra ikinci müqəddəslə rastlaşmadım. Yalnız Siddhartha bu cür insana oxşayır. Qoy dedikləri məndə təəccüb dolu gülüş doğursun, əvəzində vücudunun hər bir zərrəsindən hüzn yağan bu insan Buddadan sonra gördüyüm yeganə müqəddəsdir".

Qovinda içini parçalayan, sonunda sevginin qalib gəldiyi qarmaqarışıq hisslərlə heykəl kimi oturmuş Siddharthaya yenidən təzim etdi.

- Siddhartha, hər ikimiz qocalmışıq. İndiki həyatımızda, çətin ki, bir daha görüşək. Ruhunun

Telegram: @cinciva

dinclik, hüzur tapdığını görürəm. Mənəsə bu səadət nəsib olmadı. Möhtərəm dost, özümlə apara biləcəyim, beynimin çözə biləcəyi aydın bir şöz de! Bu çətin və qaranlıq yoluma işıq salacaq bir nəsihət ver!

Siddhartha sakitcə gülümsəyirdi. Qovindanın dostuna dikilmiş baxışlarından qorxuqarışıq həsrət yağırdı. Siddhartha iztirab və sonu olmayan axtarışlardan bəhs edən bu açıq kitabda əbədi itirilmənin kədərli işarələrini oxuyurdu.

- Mənə tərəf əyil! - o, güclə eşidiləcək tərzdə pıçıldadı. - Lap aşağı əyil! Bir az da! Daha! Qovinda, alnımdan öp!

Dostunun iradəsinə tabe olan Qovinda əyilib dodaqlarını Siddharthanın alnına yapışdırdı və elə həmin anda möcüzə baş verdi. Beyni qoca qayıqçının qəribə sözlərilə məşğul olarkən, iradəsinin ziddinə gedərək şüurundan zamanı atıb, nirvana və sansaranı vəhdətdə görməyə çalışarkən, içində şiddətli sevgilə dostunun dediklərinə qarşı nifrət müharibə apararkən Qovinda qeyri-adi nəyinsə baş verdiyini hiss etdi.

Siddharthanın üzü yoxa çıxdı; əvəzində güclü axına qarışmış yüzlərlə, minlərlə sifət gördü; onlardan hər biri dəyişir, yeniləşir və eyni zamanda dostunun cizgilərini qoruyub saxlayırdı. O, can verən balığın başını, iri bir karpın geniş açılmış ağzını, şüşə tək donub qalmış gözlərini görürdü; o, dünya-

Telegram: @cinciva

ya təzəcə gəlmiş körpənin qırmızı və qırışmış, ilk fəryaddan əyilmiş sifətini görürdü; o, qurbanının bədəninə bıçaq soxan və eyni anda həmin qatilin zəncirlənmiş halda dizi üstə boynunun vurulduğunu görürdü; o, sarmaşıq tək bir-birinə sarılmış, sevgi oyunundan dəlicəsinə həzz alan çılpaq kişi və qadın bədənləri görürdü; o, quruyub-qalmış meyitləri, quş və heyvanları - öküz, fil, timsah, qaban başlarını, allahları, Krişnanı, Aqnini, bütün bu obrazları onları bağlayan münasibətlərin, sevgi və nifrətlərinin, bir-birini tələf etmələri və yenidən doğurmalarının cəmi halında görürdü; ölüm yanğısından, mövcudluğun keçiciliyinin ağrılı etirafından ibarət bu varlıqlardan hər biri sonunda yoxa çıxmır, sadəcə sonsuz dəyişmələrə məruz qalır, yeni formalar alır, hər əvvəlki və hər sonrakı çevrilişdə zamana yer olmurdu; bütün bu obrazlar sonsuzluğa axaraq bir-birini doğurur, qarışır, qovuşurdu. Və o bunların üzərindən nazik, cismsiz, şüşəyə, buza, şəffaf pərdəyə, yırğalanan forma və ya maskaya bənzər bir varlıq görürdü; bu maska həmin an Qovindanın dodaqlarının toxunduğu Siddharthanın gülümsəyən çöhrəsi idi. Və o, bu gülümsəyən maskanın formaların axını üzərində vəhdətin, minlərlə ölüm və yaranışın üzərində eyniliyin təbəssümü olduğunu görürdü. Siddharthanın təbəssümü eynən vaxtilə pərəstişlə seyr etdiyi Hauta-

Telegram: @cinciva

ma Buddanın sakit, zərif, bəlkə mehriban, bəlkə də istehzalı, minsifətli təbəssümü idi. Bu cür yalnız mükəmməlliyyə çatanlar gülümsəyə bilərdi.

Artıq zamanı xatırlamayan, bu möcüzənin bir an və ya yüz il çəkdiyinin fərqinə varmayan, yer üzündə Siddharthanın, Hautamanın, ya da ümumiyyətlə, hansısa Mənin mövcudluğunu yaddaşından silən, sanki cahanda əriyərək, ilahi oxla vurulan ürəyinin şirin ağrısını çəkən Qovinda dostunun indicə öpdüyü və sehrli güzgü tək bütün bu formaları, təşəkkülün, mövcudluğun sirrlərini əks etdirən hərəkətsiz çöhrəsi üzərində bir neçə saniyə dayandı. Və bu güzgü sönəndən, minsifətli dəryası bağlandıqdan sonra belə, səthində əvvəlkitək hərəkətsiz, sakit, mülayim, bəlkə mehriban, bəlkə də istehzalı, eynilə Hautamanın üzündəki təbəssüm nəşələnirdi.

Qovinda sonsuz ehtiramla təzim etdi, onun qoca və qırışmış sifətində fərqinə belə varmadığı yaş dənəcikləri parladı; sonsuz sevgi alovu ilə alışan ürəyi eyni zamanda itaətli pərəstişlə şölələnirdi. Qovinda heykəl kimi tərpənməz dostunun qarşısında torpağadək əyildi. Siddharthanın təbəssümü ona həyatı boyu sevdiyi, qiymətləndirdiyi və müqəddəsləşdirdiyi hər şeyi xatırlatdı.

Telegram: @cinciva

QEYDLƏR

Əsər yazıçının üçüncü həyat yoldaşı, Auslenderdə doğulmuş Ninon Dolbinə (1895-1968) həsr edilib.

Brahman (sanskrit) - qədim hind dini və ondan doğan fəlsəfi cərəyanlarda ali obyektiv reallıq anlamında səslənir; dünyada mövcud olan hər şeyin yaranışına təkan verən simasız, mütləq ruhani başlanğıc.

Atman (sanskrit) - nəfəs, ruh, "mənin özü"; qədim hind dini və ondan doğan cərəyanlarda subyektiv ruhani başlanğıc, "Mən", ruh.

Pracapati - hərfi anlamda "nəslin ağası" - qədim hind mifologiyasında Allah, hər şeyin yaradıcısı.

Upanişadlar (sanskrit) - mərhəm bilik. Hind ədəbiyyatının qədim dini abidəsi olan "Vedalar"a dini-fəlsəfi şərhlər. Onun tərtibatının başlanğıcı e.ə. VII-III əsrlərə, sonu isə eramızın XIV-XV əsrlərinə təsadüf edir. Upanişadların kökündə brahmanizm və buddizmin əsaslandırması, brahmanla atmanın qovuşması

Telegram: @cinciva

nəzəriyyəsi ("Mokşa" traktatı - fərdi doğuluşlar zəncirindən azadolma yolu) durur.

Atharva-Veda - qədim hindlilər, atharvà kahinlərinin dörd müqəddəs kitabından biri. Zərərli ilahilər, xəstəliklər, vəhşi heyvanlara qarşı ovsunlar, şəfaverici cadular toplusu.

Mara (sanskrit) - hərfi anlamda "qətlə yetirən", "məhv edən" - Budda mifologiyasında canlı varlıqları ölümə aparan insan sifətli şər qüvvə.

Mayya (sanskrit) - veda mifologiyasında yeni forma ala bilmə qabiliyyəti; sehrli güc, ecazkar metamorfoz; veda dövründən sonra Mayya tez-tez ilahi qadın şəklində təqdim edilib.

İki dəfə doğulmuş - xüsusi biliklərə daha yaxın olan və elə bu səbəbdən də sanki ikinci dəfə doğulma şansını qazanan brahmanların, həmçinin hərbi və tacir zümrəsinin üzvlərinin ləqəbi.

Siddhartha - real Hautama Buddanın adı. Burda hər kəsin Budda, Mükəmməl ola bilməsinə işarə edir.

Aqni (qədim hind dilində) - veda və hind mifologiyasında od, ocaq, qurbanlıq tonqalı allahı.

Telegram: @cinciva

İÇİNDƏKİLƏR

BİRİNCİ HİSSƏ

BRAHMANIN OĞLU 7
ASKETLƏRİN ARASINDA 17
HAUTAMA 29
OYANIŞ 40

İKİNCİ HİSSƏ

KƏMALƏ 47
ADAMLARIN ARASINDA 63
SANSARA 74
ÇAYIN KƏNARINDA 84
QAYIQÇI 97
OĞUL 112
AUM 123
QOVİNDA 131

QEYDLƏR 145

Telegram: @cinciva

Telegram: @cinciva

Telegram: @cinciva

Azf263049

"Siddhartha"nı 1919-cu ilin qışında yazmağa başladım; birinci və ikinci hissələr arasında təxminən il yarım fasilə etdim. Çünki məhz həmin ərəfədə ilk dəfə yox, ancaq heç vaxt olmadığı qədər əmin oldum: nəylə yaşamağı yazmaq istəyi mənasızdır. Elə buna görə də "Siddhartha"nı qələmə almaq fikrindən daşındığım ötürülmüş dövrün yerini doldurmalıydım. Və hələ cavan yaşlarımdan mənə yaxın olan müqəddəs hind fəlsəfəsinin yenidən doğmalaşması üçün həyatımın müəyyən hissəsini askez və meditasiyada keçirməliydim. Mənim üçün həyatım da yaradıcılığım kimi heç bir xüsusi arqumentlərlə müdafiə olunmağa və möhkəmləndirilməyə ehtiyac duymayan təbii vəhdətdir".



HERMAN HESSE

1887-1962

Herman Hesse - Nobel mükafatı laureatı, "Muncuq oyunu", "Yalquzaq" kimi məşhur romanların, "Nərgiz və Qoldmund", "Demian" və s. povestlərin müəllifidir.

Hind mövzusunda olan "Siddhartha" (1922) povesti Hessenin ilkin yaradıcılığının ümumiləşdiricisi rolunda çıxış edir. Əsərin güclü psixosimvolik mövzusu isə onu yazıçının sonrakı işlərilə doğmalaşdırır.

Povestin qəhrəmanı müqəddəs Hautama Buddanın adaşıdır.

Qiyməti: 5 AZN

QN QANUN NƏŞRİYYATI